AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

QANTƏMİRİN NƏSR DİLİ

İxtisas: 5706.01 - Azərbaycan dili

Elm sahəsi: Filologiya

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş

D İ S S E R T A S İ Y A

İddiaçı: **Mətanət Səfər qızı Ağasiyeva**

Elmi rəhbər: **filologiya elmləri doktoru,**
professor Q.Ş.Kazımov

SUMQAYIT – 2022

MÜNDƏRİCAT

GİRİŞ.....3
I FƏSİL. QANTƏMİRİN NƏSR DİLİNİN LEKSİK XÜSUSİYYƏTLƏRİ.....7
1.1. Qantəmir ədəbi və bədii dil haqqında.....7
1.2. Qantəmirin nəsr dilində alınma sözlər.....13
1.3. Qantəmirin nəsr dilində dialektizmlər.....28
1.4. Qantəmirin yaradıcılığında arxaizmlər.....38

II FƏSİL. QANTƏMİRİN NƏSR DİLİNİN ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ.....48
2.1. Fonetik və morfoloji-üslubi xüsusiyyətləri.....48
2.2. Leksik-üslubi xüsusiyyətləri.....55
2.2.1. Qantəmir nəsrində ümumxalq dilinin izləri.....55
2.2.2. Qantəmirin nəsr dilinin frazeologiyası.....69
2.2.3. Sinonimlər.....74
2.3. Sintaktik-üslubi xüsusiyyətləri.....78

III FƏSIL. QANTƏMİR YARADICILIĞINDA KOMİK BƏDİİ DİL VASİTƏLƏRİ.....88
3.1. Sözlərin komik potensialı.....88
3.2. Tropların komizmi 103
3.3. Frazeoloji birləşmələrin, atalar sözlərinin komik təbiəti.....111

NƏTİCƏ.....123
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT.....125

GİRİŞ

Qantəmir Azərbaycan ədəbiyyatında özünəməxsus yaradıcılıq yolu və tərzi olan sənətkarlardandır. Qantəmir təxəllüsü ilə tanınan bu yazıçının əsl adı Qafur Sədrəddin oğlu Əfəndiyevdir. O, 1888-ci ildə Göyçay mahalının Potu kəndində ziyalı ailəsində göz açmışdır. Sədi Salis təxəllüsü ilə tanınmış atası Sədrəddin Əfəndi müəllimliklə məşğul olmuşdur. Atasının müəllim kimi fəaliyyət göstərdiyi mədrəsədə ilk təhsilini alan Qafur uşaqlıq illərindən klassik şairlərə, Şərq ədəbiyyatına xüsusilə maraq göstərmişdir.

Qantəmirin ikili təhsili var idi. O, tarix-ədəbiyyat müəllimliyi ilə yanaşı, diş həkimi kimi də fəaliyyət göstərmişdir. Müəllim kimi çalışdığı bir dönəmdə Abbas Səhhətlə, Mirzə Ələkbər Sabirlə sıx əlaqəsi onun bir yazıçı kimi formalaşmasında xüsusi rol oynamışdır.

1911-1914-cü illər Qantəmirin həyatında önəmli bir səhifə açmışdır. Belə ki Qantəmir bu zaman kəsiyində kiçik hekayələrlə yaddaşlarda iz salmışdır. Sonradan o, ədəbiyyat tariximizdə satirik hekayələr müəllifi kimi ürəklərə yol tapmışdır. Ola bilsin ki, Qantəmir imzasını da həmin illərdə özünə təxəllüs seçmişdir.

Repressiya qurbanlarındandır. 1939-cu ildə həbs edilən Qantəmir Orta Asiyaya sürgün edilmiş, 1944-cü ildə 56 yaşında dünyasını dəyişmişdir.

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Yaradıcılığı "Kolxozstan" povestindən və bir çox hekayələrdən ibarətdir. Məlumdur ki, Qantəmir daha çox satirik yazıçı kimi şöhrət qazanmış, hekayələrinin çoxu da bu üslubda yazılmışdır. Yazıçının yaradıcılığı elə bir tarixi dövrə təsadüf edir ki, bu dönəmdə Azərbaycan ədəbi dili sürətli inkişaf və dəyişikliklər mərhələsini yaşayırdı. Neçə yüzilliklər işlənmə təcrübəsinə malik ədəbi dilimiz bu dönəmdə özünün elmi-nəzəri təhlilini tapdı. Ədəbi dil çərçivələrinin elmi müstəvidə müəyyənləşməsi dilə sərbəst münasibəti bir qədər məhdudlaşdırdı. Onu da qeyd edək ki, ədəbi dil çərçivələrinin hələ konkretləşib tam işləklik qazanmadığı bu dövrdə dildə bir qədər xaotik mənzərə də yaranmışdı. Bu mənzərədə normativ dilin, xalq danışıq dilinin, hətta dialektin, əcnəbi dilin, osmanlı-türk ləhcəsinin elementləri görünürdü. Xüsusilə də, bədii

üslubda qeyri-ədəbi dil faktları daha aktiv şəkildə özünü göstərirdi. Odur ki, keçən əsrin iyirmi, otuzuncu illərinin bədii mətnlərinin dilinin öyrənilməsi dövrün dil tendensiyalarını görə və dərk edə bilmək imkanı verir. Bu baxımdan Qantəmir yaradıcılığı da qiymətli mənbədir. Dövrün dil mənzərəsi nəsr janrında və realist, satirik üslubda yazılmış Qantəmir yaradıcılığında daha əyani şəkildə görünür. Çünki nəsr elə bir janrdır ki, burada dil elementləri özünü bütün imkan və halları ilə nümayiş etdirə, realist, satirik üslubda isə öz təbii axarı ilə ifadə oluna bilir. Demək, Qantəmir yaradıcılığının dili xüsusi cilalanmamış dildir və dil proseslərinin təbii yönünü özündə əks etdirir. Onun əsərləri zamanın dil mənzərəsindən sanki canlı reportajları xatırladır. Yazıçının əsərlərinin bu dil xüsusiyyəti onun tədqiqatını aktuallaşdırır. Ümumiyyətlə, Qantəmirin yaradıcılıq dilinin öyrənilməsi ədəbi dil tariximizin tədqiqi işinin bir parçasıdır. Bu baxımdan onun tədqiqi xüsusi əhəmiyyət kəsb edir.

Qantəmir nəsrinin dili indiyə qədər heç bir monoqrafik tədqiqatın mövzusu olmamışdır. Qəzənfər Kazımovun Komik bədii vasitələr monoqrafik araşdırmasında, Əbdüləzəl Dəmirçizadənin "Gülmək və şarlatanlar" məqaləsində Qantəmir nəsrinin linqvistik problemləri bu və ya digər dərəcədə elmi-nəzəri təhlil müstəvisinə çıxarılmışdır.

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyektini Qantəmirin nəsr əsərləri təşkil edir. Tədqiqatın predmeti Qantəmirin nəsr əsərlərinin linqvistik xüsusiyyətləridir.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqat işinin əsas məqsədi Qantəmirin nəsr dilini linqvistik təhlil etmək, onun rakursundan ədəbi dilimizdə keçən əsrin iyirminci, otuzuncu illərində gedən prosesləri və inkişaf tendensiyalarını izləməkdir. Bu məqsədə çatmaq üçün aşağıda göstərilən elmi problemlərin şərhi tədqiqatın vəzifəsinə çevrilir.

-Bədii mətnin kontekstində Qantəmir dövrünün dil məsələlərinə münasibətini üzə çıxarmaq;

-Onun əsərlərinin leksik sisteminin linqvistik təhlilini vermək, lüğət tərkibini müəyyən etmək;

-Qantəmir nəsrinin arxaik dil bazasını müəyyənləşdirmək, leksik və qrammatik arxaizmləri elmi tədqiqat müstəvisinə çıxarmaq, leksik arxaizmlərin dövrün lüğət tərkibində yerini müəyyənləşdirmək;

-Qantəmir nəsrinin dilinə əsasən dövrün lüğət tərkibinin müəyyənləşməsində əcnəbi mənbələrin yerini aşkarlamaq, onun əsərlərində vətəndaşlıq hüququ qazanmayan alınmaların üslubi məqamlarını müəyyənləşdirmək;

-Qantəmir yaradıcılığında dialektizmləri aşkara çıxarmaq, onların qeyri-ədəbi dil faktı kimi bədii mətnin dilində mövqeyini müəyyənləşdirmək;

-Qantəmir nəsrinin lüğət tərkibinin leksik-üslubi xüsusiyyətlərini aşkarlamaq, onda xəlqi dil elementlərini müəyyən etmək, semantik-üslubi təhlilini vermək;

-Qantəmirin nəsr dilinin fonetik, morfoloji və sintaktik sisteminin linqvistik-poetik xüsusiyyətlərini səciyyələndirmək;

-Qantəmir yaradıcılığında komizmin qurulmasında dil elementlərinin iştirakını aşkara çıxarmaq;

-Qantəmir nəsrində komik tropların (müqayisələrin) linqvistik təhlilini vermək;

-Yazıçının frazeoloji birləşmələrin komik potensialından istifadə üslubu və üsullarını aydınlaşdırmaq.

Tədqiqatın metodu. Tədqiqat diaxron aspektdə təsviri və müqayisəli metodlar əsasında yazılmışdır.

Müdafiəyə çıxarılan əsas müddəalar:

1. Qantəmir nəsri ədəbi dilimizin bir parçası kimi dövrün dil proseslərini özündə əks etdirən qiymətli mənbədir.

2. Qantəmir yaradıcılığının öyrənilməsi dil tariximizin öyrənilməsi işinin bir hissəsidir.

3. Qantəmir nəsrinin dilinə əsasən iddia etmək olur ki, dövrün dil prosesi milliləşmə tendensiyası üzərində gedirdi.

4. Qantəmir nəsrinin dili xalq danışıq dili üslubunda qurulmuş, tədricən bədiiliyin artması ilə nəticələnmişdir.

5. Qeyri-ədəbi dil elementləri olan dialektizmlər, ədəbi dildə vətəndaşlıq hüququ qazanmayan söz qrupları bədii mətnə müəyyən bədii-üslubi funksiyaların daşıyıcıları kimi daxil olmuşdur.

6. Qantəmir yaradıcılığında satirik üslubun yaradılmasında dil materiallarının komik potensialından maksimal dərəcədə istifadə edilmişdir.

Tədqiqatın elmi yeniliyi. Qantəmir nəsrinin dili ilk dəfə olaraq monoqrafik tədqiqata cəlb edilir, onun dil sisteminin bütün layları linqvistik təhlil edilir, ədəbi dil tariximizin maraqları nöqteyi-nəzərindən araşdırılır, dövrün dil prosesində yeri müəyyənləşdirilir.

Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti. Tədqiqatın nəzəri müddəalarından Azərbaycan ədəbi dili tarixinin müxtəlif məsələlərinin, eləcə də dilimizin fonetik, leksik, qrammatik xüsusiyyətlərinin, komik imkanlarının araşdırmalarında isə elmi mənbə kimi istifadə oluna bilər.

Aprobasiyası və tətbiqi. Dissertasiya Sumqayıt Dövlət Universitetinin Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının tədqiqat istiqamətlərinə uyğun olaraq yerinə yetirilmiş, tədqiqat işinin mövzusu Azərbaycan Respublikası Elmi Tədqiqatların Təşkili və Əlaqələndirməsi Şurasında təsdiq olunmuşdur. Əldə edilən elmi nəticələr, dissertasiyanın əsas məzmunu, tədqiqat konsepsiyası Azərbaycan Respublikası Prezidentinin yanında Ali Attestasiya Komissiyasının müəyyənləşdirdiyi elmi jurnallarda, beynəlxalq konfranslardakı çıxışlarda öz əksini tapmışdır.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Sumqayıt Dövlət Universitetinin Azərbaycan dili və onun tədrisi metodikası kafedrası

Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi. Tədqiqat işi ümumilikdə 134 səhifədən (212524 işarə), o cümlədən giriş, I fəsil (72279 işarə), II fəsil (69895 işarə), III fəsil (61394 işarə), nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

I FƏSİL. QANTƏMİRİN NƏSR DİLİNİN LEKSİK XÜSUSİYYƏTLƏRİ

1.1. Qantəmir ədəbi və bədii dil haqqında

Aydındır ki, Qantəmirin yaradıcılığı elə bir dövrə təsadüf edirdi ki, bu dövrdə Azərbaycan türkcəsi öz inkişafında yeni bir mərhələni yaşayırdı. Dilimizin normaları indiyə qədər praktik şəkildə ayrı-ayrı mətnlərdə müəyyənləşmişdisə və bu müəyyənləşmədə subyektlərin tərzi və yanaşması əlamətdar rol almışdısa, XX əsrin 20-30-cu illərində ədəbi dil normaları nəzəri şəkildə işlənir, elmi araşdırmalarda öz təsdiqini tapırdı.

Qantəmir XX əsrin 20-30-cu illərinin dil prosesinin iştirakçısı olduğu kimi, həm də müəyyən mənada araşdırıcısıdır. Əlbəttə, bu, elmi araşdırma deyildir. Ancaq yazıçının bədii mətnin kontekstində istifadə etdiyi dilçilik görüşləri dövrün dil prosesini dəyərləndirmək baxımından maraq doğurur.

Professor Qəzənfər Kazımov Qantəmirin Azərbaycan dilinin problemləri ilə mütəmadi maraqlandığını, bədii yaradıcılıq dönəmində ədəbi dilimizi zənginləşdirmək və inkişaf etdirmək cəhdi ilə bərabər, dilin quruculuq prosesində aktiv iştirak etdiyini, dilin və dilçiliyin problemli məsələlərini yeri gəldikcə öz hekayələrində əks etdirdiyini xüsusi olaraq qeyd etmiş, bu dil proseslərinə öz münasibətini bədii vasitə və üsulları ilə əks etdirməyə çalışan ədibə bir sənətkar kimi yüksək dəyər vermişdir.

Qantəmirin nəsri XX əsrin iyirminci və otuzuncu illərində ümumxalq və ədəbi dil müstəvisində gedən prosesləri özündə praktiki şəkildə əyaniləşdirdiyi kimi, onlara nəzəri münasibət də ifadə etmişdir. Bu münasibət elmi müstəvidə, terminoloji dil aparatında deyil, bədii müstəvidə hadisələrin kontekstində, məişət dili leksikasında öz ifadəsini tapmışdır. Müəllif elmi-nəzəri problemləri öz əsərlərində məharətlə müəyyən bədii situasiyanın motivlərinə daxil etmişdir.

Qantəmirin dil və dövrün dil siyasəti ilə əlaqəli ədəbi-bədii görüşləri daha çox dilimizin leksik norması ilə bağlıdır. Çünki bu norma həmin dövrdə dilin ən mübahisəli və müzakirəli məsələsi idi. Odur ki, Qantəmir nəsri də bu mübahisələrə qoşulmaqla yanaşı, həm də onlara müəyyən münasibət bildirmişdir. Dil məsələləri onun yaradıcılığında daha çox əcnəbi və milli leksika məsələləri müstəvisində öz əksini tapmışdır. Müəllif müəyyən bədii situativ vəziyyətlərdə əcnəbi leksikanın dilimizə yersiz hücumlarının əleyhinə çıxmışdır.

Əcnəbi mənbələr arasında seçim, yaxud dilimizin təmizliyi, milliliyi kimi prinsiplərin həmin dövrdə yaratdığı müzakirələrin Qantəmir nəsrində bədii ifadəsi ədəbi dilimizin leksikoloji mənzərəsini dərk etmək baxımından əhəmiyyətli rol oynayır. Onu da qeyd edək ki, yazıçının yaradıcılığında alınmaların qrammatik və üslubi xüsusiyyətləri haqqında tədqiqatımızın gələcək bölmələrində danışacağıq. Bu bölmədə isə müəyyən bədii situasiyaların və obrazların dili ilə dövri müzakirələrdə Qantəmirin mövqeyini araşdırmaya gətirəcəyik.

“Sara bibi” hekayəsində XX əsrin iyirminci-otuzuncu illərində alınmalar və milli leksika arasında gedən mübahisələrdən bir fraqment canlı şəkildə öz bədii əksini tapmışdır.

Ərəb və fars mənşəli sözlərin milli sözlərlə əvəzlənmə tendensiyası “Sara bibi” hekayəsində obrazlar arasında belə bir dialoqa səbəb olmuşdur:

Sara bibi dedi:

- *Yaz! Ali cənab, fəzayülməab Ağamalı oğlu həzrətlərinə.*

Dedim:

-Sara bibi, mən bu sözü yaza bilmərəm. İndiki ərizənin başı belə yazılmaz.

-Nə üçün yazılmaz?- dedi. - Hər xırman vaxtı axund Mirzə Əbütalıb ağa Murad bəyə kağız yazanda onun başını belə yazardı.

Dedim:

- *Bibi, indi o vaxtlar deyil, indi gərək “yoldaş” yazasan, yoxsa qəbul etməzlər* [88, s.230].

Əslində, bu dialoqda müəllifin vurğulamaq istədiyi məsələ *fəzayülməab* sözünün *yoldaş* sözü ilə əvəzlənməsi deyil. Yazıçı, ümumiyyətlə, Şərq danışıq

formasının, yüksək, təmtəraqlı müraciətin öz ömrünü başa vurduğuna işarə edir. Fəzilətlər sığınacağı mənasında işlənən *fəzayülməab* sözü yalnız müraciət ifadə etməyib, həm də şəxsin keyfiyyətlərini tərif etdiyi halda, *yoldaş* sözü konkret olaraq yalnız müraciət bildirir. Yeri gəlmişkən onu da qeyd edək ki, böyük mütəfəkkir M.F.Axundzadə hələ XIX əsrdə şəxsi təmtəraqlı şəkildə tərif etmək üzərində qurulan müraciət formalarını öz yazışmalarında tənqid etmiş, bundan qurtulmanın zamanı olduğunu demişdi.

XX əsrin iyirminci-otuzuncu illərində ərəb və fars dili dəbinin rus dili dəbi ilə əvəzlənməsi dilimizin saflaşması, milliləşməsi üçün növbəti təhlükə idi. Qantəmir əsərlərində satirik bədii ifadəetmənin gücü ilə belə bir dəbə qarşı çıxır. *İntelligent* hekayəsində yazıçı rus dilinin Azərbaycan türkcəsinə qarşı açdığı cəbhəni bədii gülüş lövhələrində təsvir edir.

O, Qori müəllimlər seminariyasının pansionunda bircə il yaşadıqdan sonra milli yeməklərimizə kinayə edərək, onları dadsız hesab edir. *İntelligentin* dilində rus kəlmələri yerli-yersiz işlədilir. Onun anası ilə dialoqu maraq doğurur.

Qantəmirin bədii yozumuna görə, ruslaşma yalnız dilimizə deyil, həyatımıza, məişətimizə də hücum edir. Milli xörəklərimizə ağız büzən soydaşımızın zövqü, düşüncəsinin ilkin təməli dildən başlamışdır. Belə ki ana kotlet bişirə bilməməyinin səbəbini rus dilini bilməməklə əsaslandırır. Bu, əslində oğlunun danlağına cavab verən sadəlövh, avam bir qadının mühakiməsi deyil, ictimai mühitdə gedən prosesləri analiz edən yazıçının düşüncələridir. Rus dili cəmiyyət üçün sadəcə öyrəndiyimiz bir əcnəbi dil olaraq qalmır. O, birinci növbədə, nitqimizdə milli sözlərin yerini tutur, sonra isə düşüncəmizdə, həyat tərzimizdəki digər şeylərin. Qantəmirə görə milli keyfiyyətlərin qorunması dilin qorunmasından başlamalıdır. Onu da qeyd edək ki, ədib yalnız əcnəbi dillərin deyil, osmanlı türkcəsinin də dilimizə yersiz müdaxiləsinin əleyhinədir və bu mövqeyini "Mənim tələbəm" və "Ağıl dəryası" hekayələrində vurğulamışdır.

Qantəmir insanların nəzərini ərzaq dükanlarının önündə qurulan, ədəbi dil normalarına sığmayan yabançı sözlərlə bəzədilmiş reklamlara yönəltmiş, Azərbaycan dilini belə gülünc vəziyyətə qoyanları "Dəfatirati üzviyyə" əsərində tənqid atəşinə

tutaraq südçü dükanının üzərində *südxanası* yazılmasına öz münasibətini bildirmişdir.

Yazıçı "Qisas alındı" hekayəsində Cəfərqulunun timsalında suallara doğma ana dilində cavab verən məmuru dəstəkləyir. Məmurun Azərbaycan dilində danışması Cəfərqulunu o qədər arxayınlaşdırır ki, müvafiq dövlət qurumlarından qardaşının intiqamının alınaraq haqq-ədalətin öz yerini tapacağına inanır, nəhayət, öz problemini doğma dildə naçalnikə başa salacağına sevinir.

"Mənim tələbəm" hekayəsində tələbənin yazısını osmanlı türkcəsinin sözlərindən və qrammatik formalarından təmizləyən müəllimin düzəlişləri vasitəsi ilə sanki müəllif də dilimizi təmizləmək, milli keyfiyyətlərini önə vermək istəyir. *Ağıl dəryası* hekayəsinin qəhrəmanı müəllifin satirik tənqid obyektidir. Yazıçının bu obrazla bağlı tənqid hədəfində həm də onun Azərbaycan ədəbi dili ilə bağlı görüşləri dayanır. Belə ki *Ağıl dəryası* Quba ləhcəsinə qarşı ədəbi dil norması kimi -yor osmanlı türkcəsinin qrammatik formasını, yaxud rus kəlməsini – *subbotnik* sözünü qoyur. Bununla da Qantəmir Azərbaycan türkcəsinin ədəbi dil formasını qeyri-zəruri olaraq dilə gətirilmiş yad ünsürlərin iştirakı ilə təsəvvür edənlərə qarşı çıxır.

Qantəmir yaradıcılığında osmanlı dilini və ədəbiyyatını yamsılamaq məsələsinə də toxunulmuşdur:

"Əvət-əvət"li şeirlərdən zəhləm gedir, Füzuliyə canım qurban! [88, s.159].

Qantəmirin yaradıcılığında maraqlı və diqqətçəkən nüanslardan biri də bu gündə xeyli mübahisə və müzakirələrə səbəb olan dilimizin adı ilə bağlıdır. Onun əsərlərində dilimizin adı dönə-dönə *türk dili* kimi vurğulanır.

Müəllif *türk dili* deyəndə, öz doğma dilini - Azərbaycan türkcəsini nəzərdə tutmuşdur. "Ağıl dəryası" hekayəsində verilmiş "*ana dili idi*" kəlmələri də bir daha təsdiq edir ki, söhbət Azərbaycan dilindən gedir.

"Mənim tələbəm" hekayəsində də obrazın imtahan verəcəyi dil Azərbaycan dilidir. Çünki türkcədən onu imtahana hazırlayan müəllim verdiyi tapşırığı yoxlayarkən osmanlı türkcəsində verilmiş ifadə vasitələrini Azərbaycan türkcəsi ilə əvəzləyir.

Dilimizin tarixi adının onun üzərindən "müsadirə olunduğu" bir tarixi dönəmdə Qantəmirin yaradıcılığı bu adı dilimizin üzərində xatırlatmaqla, əslində, əhəmiyyətli

bir iş görmüş olur. Çünki xalqımızın milli kimliyi rəsmi sənədlərdə yadlaşdırıldığı və kütləyə ötürüldüyü dönəmdə cəmiyyət öz tarixi adını yadırğamışdı. Yalnız mənbələr ona bu adı xatırladır və Azərbaycan cəmiyyəti öz dilinin əsl və tarixi adını müəyyən izahlar olmadan başa düşmürdü. Məsələn, Tofiq Hacıyev yetmişinci illərdə apardığı tədqiqatlarında yazırdı: *"XX əsrin əvvəllərinin təbiri ilə türkcə sözü azərbaycanca anlayışını verir. İndiki türkcə məqamında isə osmanlı dili, osmanlıca sözləri işlənir. Bizim işlətdiyimiz türkcə müasir baxımdan nəzərə alınmalıdır - osmanlıca mənasında"* [60, s.23].

Qantəmirin "Şarlatan" hekayəsinin süjeti isə bütövlükdə dilçilik məsələsi – *şarlatan* sözünün mənşəyinin tapılması üzərində qurulub. Əlbəttə, əsərin daşıdığı məqsəd bu elmi məsələnin həlli deyil. Ancaq elmi tədqiqatların keyfiyyəti məsələsi də əsərin tənqid obyektinə daxildir. Elmi tədqiqatların nəticələrini, həyata faydalı problemlərini aydınlaşdıran obrazın dediklərinə istinadən onu tənqid atəşinə tutan, mənasız vaxt itkisinə, cəmiyyətə yalnız zərərli, lazımsız tədqiqlərə gülən yazıçının kinayəsi fikrimizcə, yalnız Belçika alimi Her Bexterin *Avstraliyada atlı qarışqaların həyatı* əsəri ilə bağlı deyildir. Eyni zamanda, obrazın elmi mənbələrdən sitat gətirərək *şarlatan* sözünü *şal atan* şəklində izahı müəllifin təsadüflər üzərində qurulan qeyri-ciddi, qeyri-elmi dilçilik tədqiqatlarına istehzasıdır.

Hekayədə həmçinin etimoloji tədqiqatlarda sözlərin dil mənşəyinin müəyyənləşməsində subyektiv, məsuliyyətsiz, müəyyən maraqlara xidmət edən "elmi" yanaşmalar tənqid edilir. Belə ki qonağının *şarlatan* sözünün türk və ya rus sözü olması sualının cavabında ev sahibi söyləyir:

Şarlatan sözünü mən ta uşaqlıqdan bilirəm, amma bunun türk sözümü, yoxsa rus sözümü olduğunu yəqin bilməyirdim. Çox gümanım ona gəlirdi ki, bu söz rus sözüdür. Lakin bu gümanımı qonağımdan qəsdən gizlədim. Türk dilinə çox ətraflı və hamıdan artıq bələd olduğumu göstərmək istədim. Kim kimədir və kim gəlib hansı dəlil ilə sübut edəcəkdir ki, sənin bu dediklərin düzgün deyil? [88, s.284].

Qantəmirin yaradıcılığında diqqətə çəkilən məsələlərdən biri də dilimizin gözəlliyini, ahəngini pozan ərəb və fars kəlmələridir. "Dəfatirati-üzviyyə" hekayəsində obraz deyir: *Söz arasında mənə ərəb kəlməsi, farsi lüğəti rast gələndə*

elə bilirəm, çörək yeyəndə dişimin altında xırdaca daş parçası qalıb xırçıldayır [88, s.198].

Əlbəttə, Qantəmir dilimizin zənginləşməsində xüsusi rol oynamış ərəb və fars dilinin əleyhinə deyildi. O, müəyyən məfhumu ifadə edə biləcək, Azərbaycan dilinə aid termin ola-ola ərəb və fars istilahlarından istifadə edərək dilimizi qəlizləşdirməyin əleyhinə idi. İntelligent hekayəsinin qəhrəmanı haqqında danışan müəllif qeyd edir:

Türkcə savadı az idi. Müdhiş kəlməsini mədhəş, sərvət sözünü srut oxuyur, "meə mafih"sözünə dili yatmayırdı [88, 182].

Göründüyü kimi, söhbət türk dilindən getdiyi halda ərəb və fars sözlərinə istinad olunmuşdur. Ərəb dilinin türk dilinə xas olmayan qəlizliyi ana dilinin öyrənilməsi işini çətinləşdirir, insanı doğma dilindən ayrı salır. Xalqımız uzun əsrlər yalnız ərəb kəlmələrinin, qrammatik formalarının deyil, ərəb əlifbasının da qəlizliyindən əziyyət çəkmiş, bu qəliz əlifba ona doğma dildə yazıb-oxumasına mane olmuşdur. Böyük mütəfəkkir Mirzə Fətəli Axundzadənin əlifbanın dəyişilməsi uğrunda mübarizəsi XX əsrin iyirminci illərində reallaşmış, indiyə qədər də müəyyən mübahisələrə səbəb olmuşdur. Bir tərəfdən yanaşanda nailiyyət, başqa bir tərəfdən yanaşanda isə qınaq obyekti olan bu hadisə dövri dil məsələsi kimi Qantəmir nəsrinin bədii müstəvisinə də çıxmışdır. *Mirzə Aves* hekayəsində deyilir:

Ərəb əlifbası büsbütün ortalıqdan götürülüb, yerinə latın deyilən bir cür hərf düzürlər ki, adam bilmir, bu müsəlman yazısıdır, yoxsa cuhud və ya erməni və ya ingilis yazısıdır [88, s.242].

Obrazın bu sözləri xalqımızın tarixində minillik bir yaddaşa malik əlifbanın dəyişdirilməsinə cəmiyyətin baxış rakursunu qoyur. Həmişə milli yox, dini kimliyini önə verib özünü müsəlman adlandıran bu cəmiyyət yazı qrafikasını da müsəlmanca axtarır.

Məlumdur ki, xalis türk sözləri dilimizdən tarixən əcnəbi kəlmələr tərəfindən sıxışdırılıb çıxarılmışdır. Dilimizi öz milli mənşəyindən və türk dillərindən uzaq salan bu hal Qantəmir yaradıcılığında da vurğulanmışdır.

Ağıl dəryası hekayəsində müəllif satirik qəhrəmanın xəyallarında dilimizin dövrü problemlərini vermişdir. Bu fikir onu təsdiq edir ki, Qantəmir Azərbaycan

ədəbi dilinin müasir lüğət fondunun xalis türk sözlərinin və ləhcələrin əsasında yaradılmasının tərəfdarı idi. Yəni yazıçıya görə bunlar dili yad təsirlərdən, özgələşməkdən qorumağın vasitələri idi. Ağıl dəryasının bu xəyalları bir də onu göstərir ki, Qantəmir ədəbi dilin yaranmasında əsas işin bədii ədəbiyyat üzərinə düşdüyünü dərk edir. Ona görə də onun qəhrəmanı şeir dili ifadəsini ədəbi dil ifadəsinə paralel olaraq işlətmişdir.

Qantəmir yaradıcılığa elə bir dövrdə başlamışdı ki, bu zaman Azərbaycanda dilçilik elmi özünün yaranıb formalaşma dönəmini yaşayırdı. Bu elmin terminoloji bazası hələ müəyyənləşmədiyindən Qantəmir vulqar sözləri *ayıblı sözlər* adlandırır:

Nə başınızı ağrıdım, tələbəmin yazısını düzəltdim, içində bəzi ayıblı sözlər vardı, onları lap yerli-dibli atdım [88, s.187].

Povestində isə yazıçı dil üçün çox vacib bir məsələyə-nitqin mədəniliyi məsələsinə toxunmuşdur. Zeynəb xanımın köhnəlmiş sözlərdən istifadə etmədiyini, səlist bir nitqə malik olduğunu ön plana çəkir.

Yazıçı doğru olaraq göstərir ki, nitqdə şablona çevrilmiş ifadələr dinləyici üçün yorucudur və belə sözlərdən, adətən, səlis nitqi olmayanlar və yaxud məna və məzmunsuz danışıqlarını pərdələmək istəyənlər istifadə edirlər.

Göründüyü kimi, Qantəmir dövri dil proseslərinə fəal müdaxiləsi və doğru münasibəti ilə seçilən ədiblərimizdəndir. O, bəzən mətnaltı, bəzən də mətnarası konteksdə bu problemləri şərh etmiş, bu şərhlər elmi-analitik dəyərinə görə yox, dövrün dil prosesləri haqqında daşıdıqları bilgilər ilə daha qiymətlidir.

Onun bir yazıçı kimi bu prosesdə iştirakı və ona verdiyi töhfələr məsələsini biz tədqiqatımızın sonrakı bölümlərində də araşdıracağıq.

1.2.Qantəmirin nəsr dilində alınma sözlər

Məlumdur ki, dünyada heç bir saf dil yoxdur, dilə başqa dillərdən sözlərin daxil olması və çıxması prosesi daim davam edir. Bu prosesə təsir edən amillər müxtəlifdir. Dilin başqa dillə söz mübadiləsi mədəni, siyasi əlaqələr, coğrafi ərazi, dilin beynəlxalq arenada yeri kimi amillərin təsiri altında baş verir. Məsələn, ingilis

dilinin beynəlxalq dil statusuna malik olması dillərarası söz mübadiləsi prosesində onun əsas ixracatçı vəzifəsində çıxış etməsinə səbəb olmuşdur. Yaxud da Azərbaycan türkcəsinin türk dilləri içərisində osmanlı türkcəsi ilə daha yaxın və ya ortaq leksikona malik olması, həm də eyni dil qrupuna aid olması birbaşa coğrafi ərazi amili ilə bağlıdır. Ancaq onu da deyək ki, bu amil heç də həmişə aktiv hərəkətə malik deyildir, digər amillərlə müqayisədə dilin başqa dildən söz alması prosesində daha zəif iştirak edir. Məsələn, Azərbaycan türkcəsi gürcü, erməni dilləri ilə qonşuluq əlaqəsi, avar, ləzgi, kürd, talış dilləri ilə isə ümumiyyətlə, eyni coğrafi ərazini paylaşmasına baxmayaraq, onlarla söz mübadiləsi zəifdir.

Azərbaycan türkcəsində alınma leksika üçün əsas mənbəni, demək olar ki, coğrafi ərazi amilinin rol almadığı ərəb və rus dilləri təşkil edir. Azərbaycan dilində alınma sözlər bazasının bu dillərin leksikonu əsasında formalaşması siyasi, sosial-ictimai və mədəni əlaqələrlə bağlıdır. Ərəb mənşəli leksikanın aktiv mövqeyini Azərbaycanın ərəb xilafətinin əyalətlərindən birinə çevrilməsi kimi siyasi, xalqımızın islamlaşdırılması kimi sosial-ictimai, ədəbiyyatımızın uzun əsrlər ərəb və fars ədəbiyyatının təsirində və bu dillərdə yaranması kimi mədəni amillər şərtləndirmişdir. O cümlədən də XIX əsrdən Azərbaycanın şimal hissəsinin rus imperiyasının inzibati vahidinə çevrilməsi, müəyyən mədəni təsisatların rus cəmiyyətinin təsiri ilə formalaşması dilimizə bu dildən, həm də bu dil vasitəsilə Avropa dillərindən sözlərin keçməsi üçün münbit zəmin yaratmışdır. Tədqiqatlarda da qeyd edildiyi kimi, *"ərəblər türkdilli xalqları assimilyasiya edib onları ərəbləşdirməyə nail olmasalar da, bu xalqların, o cümlədən, Azərbaycan dilinə ərəb dilinin çoxlu elementləri daxil olmuşdur"* [6, s.5].

Qantəmir yaradıcılığının dil xüsusiyyətlərini öyrənərkən elmi tədqiqat üçün çox maraqlı məqamlardan biri də alınmalardır. Çünki onun əsərlərinin yarandığı dövr - XX əsrin 20-30-cu illəri elə bir zaman kəsiyinə düşür ki, dilimizin lüğət tərkibində əsaslı dəyişikliklər gedirdi. Bu dövrdə Azərbaycan türkcəsinə alınmaların daxil olmasının gücləndiyi və bəzən də təbiiliyinin pozulması prosesi gedirdi. Həm də bu prosesin özəlliyi yalnız onun sürətində, qeyri-təbii məqamlarında deyildi. Dilimiz bu zaman kəsiyində sanki öz lüğət tərkibini alınmalar vasitəsi ilə zənginləşdirmənin

yolayrıcına çıxmışdı. Belə ki Azərbaycan türkcəsi alınmalara olan ehtiyacının rus, yoxsa ərəb və fars sözləri ilə təmin olunması məsələsinin həlli qarşısında qalmışdı. Bundan əlavə, ümumtürk dilini qorumaq cəhdləri, osmanlı ləhcəsində olan sözlərin ədəbi dildə işlənməsi tendensiyaları dilimizin lüğət tərkibinin müəyyənləşməsinin həmin dövrdə çoxtərəfli yanaşmaların və müxtəlif amillərin təsiri altında getdiyini göstərirdi.

Bu məsələnin həllində bədii ədəbiyyatın rolu böyük idi. Ona görə də həmin dövrün bədii mətnlərini alınma sözlərin öyrənilməsi baxımdan araşdırılması maraq doğurur. İkinci, bu mətnlər həmin prosesin canlı salnaməsi olduğundan onun öyrənilməsi üçün ən yaxşı mənbədir. Qeyri-bədii mənbələrdə həmin canlılıq yoxdur. Belə ki onlar yalnız müəllif dili üzərində qurulduğundan bu canlılığı təmin edə bilmir. Bədii mətnlərdə isə müəllif və obraz dilinin iştirakı dilin başqa dillərlə mübadilədə təbii axarlı istiqamətini daha yaxşı izləməyə imkan verir. Xüsusilə də, realist-satirik əsərlər obraz dilinin tipikliyi, fərdiliyi prinsipinə əsaslandıqlarından dil prosesinin canlı bədii əksini yaradır. Bu baxımdan, Qantəmir yaradıcılığı daha etibarlı mənbədir. Çünki onun əsərlərində nəinki obraz dili, həm də müəllif dilinin demokratizmi ümumxalq dilinin artıq dilimizdə neçə yüzillik işlənmə təcrübəsi olan ərəbizmlərə, ictimai-siyasi şəraitin dilə keçidini şərtləndirdiyi rus və Avropa kəlmələrinə və genetik bağlılığa malik olduğu osmanlı türkcəsinin sözlərinə necə reaksiya verdiyini əyaniləşdirir.

Qantəmir yaradıcılığında alınmaları linqvistik təhlil müstəvisinə çıxarmazdan əvvəl bir şeyi qeyd etmək lazımdır ki, dildə alınmalar işlənmə xüsusiyyətlərinə görə özünü üç cür göstərir:

1) Dildə vətəndaşlıq hüququ, ümumişləklik qazanan alınmalar;

2) Dildə yadlığını qoruyub saxlayan, ümumişləkliyə və anlaşıqlığa malik olmayan alınmalar;

3) Dilə zərurətdən kənar daxil olan, dilin leksikonunda olmayan, işlənməsi dildə leksik normanın pozulması ilə müşayiət olunan alınmalar.

Biz alınmaların Qantəmir yaradıcılığında tədqiqini, əsasən, ikinci və üçüncü qrup sözlər üzərində quracağıq.

Aydındır ki, ərəbizmlərin dilimizdə işlənmə təcrübəsi çoxəsrli və genişdir. Ona görə də onların dilimizdə yadlığı əksər sözlərdə hiss olunmur. Hətta bəzi məqamlarda bu sözlər dilimizin fonetik qanunlarına uyğunlaşaraq öz səs kompleksində belə dəyişikliklər etmişdir. Məsələn, öz mənbə dilində *şəhr* formasında işlənən söz Azərbaycan türkcəsində mövcud olan hecalardakı sait samit növbələşməsi prinsipinə uyğun olaraq *şəhər* formasını almışdır. Səlim Cəfərovun fikrinə görə ərəb və fars sözlərinin əksəriyyəti yeni mühitə düşən zaman həmin dilin fonetik qaydaları əsasında özünün xüsusi əlamətlərini itirir və həmin dilin milli sözlərindən fərqlənməyən hala keçir.

Dilimizə istər səs kompleksinə, istərsə də semantikasına görə qaynayıb-qarışan ərəb və fars mənşəli sözlər tədqiqatımızın maraq mərkəzində durmadığından biz Qantəmir dilində gəlməliyini qoruyan və izaha ehtiyacı olan alınmalar üzərində dayanacağıq.

Tədqiqatımızı bu tip alınmalar üzərində davam etdirməzdən əvvəl bir məsələni də aydınlaşdırmaq ehtiyacı vardır. Oxucu üçün lüğətsiz, izahsız anlaşıqlı olmayan alınmalar Qantəmir dilinin demokratizminə zidd deyilmi, yaxud bununla necə bir araya sığır? İlk əvvəl qeyd edək ki, bu sözlər yazıçının dilinin xəlqiliyinə xələl gətirəcək dərəcədə intensiv surətdə işlənməmiş, ikincisi, bəzən cümlənin konteksində öz anlaşıqlığını təmin etmiş, üçüncüsü isə, onlar bəzən müəllifə öz qəlizliyinə görə lazım olmuş, yəni ki, müəyyən üslubi məqsədlər xatirinə işlənmiş, dördüncüsü, bəzi sözlər bugün üçün anlaşıqsız, zamanında isə kifayət qədər anlaşıqlı olmuşdur. Axırıncı məqamla bağlı Qantəmir dilində işlənmiş sözə diqqət edək:

Qiraətxana təmiz deyildi [88, s.82].

Qiraətxana sözü müasir dilimizdə *oxu zalı* birləşməsi ilə əvəz olunub öz işləkliyini itirsə də, keçən əsrin iyirminci illərində bu semantikanın ifadəsi üçün ümumişlək söz idi.

Cümlə konteksində öz anlaşıqlığını təmin edən ərəbizmin işləndiyi məqama nəzər yetirək:

Ondan gördüyü müamilə və nəzakəti əri Məşədi Fərəcdə də görməmişdi [88, s.342].

Müamilə sözü ərəb dilində bir neçə məna ifadə edir və müasir dilimizdə isə *faizlə pul borc vermə* mənasında anlaşılır. Yuxarıdakı cümlənin konteksi isə bu günün oxucusuna onun bu mənada işlənmədiyini deyir. Onunla cümlədə həmcinslik təşkil edən *nəzakət* sözünə əsasən bu sözün *rəftar* mənasında işləndiyini aydınlaşdırmaq olur.

Yuxarıda qeyd etdiyimiz kimi, Qantəmirin dilində qəliz ərəb və fars sözlərinin işlənmə məqamlarından biri də onların üslubi imkanlarından istifadədir. Yazıçı "Vəsiyyət" hekayəsində Avropanı özünə qarşı qoyan Şərq insanının tipik obrazını yaratmaq üçün bu vasitədən istifadə etmişdir:

-Düzü, indiki həkimlər heç zad bilmirlər. Ola idi həzrət Loğman, iki günəcən Hacını dikəldib ayaq üstə qoyardı. Şirazda Mirzə Mehdi Alı qoca bir həkim vardı. İnanın, biləyinə baş barmağını basanda bilərdi ki, dərdi nədir. Allah işinə fərəc versin, o deyərdi ki, Avropa həkimləri ələfiyyatdan bixəbərdirlər. Cövhəriyyatla müalicə edirlər və hələon ki cövhəriyyat ələfiyyatdan itiqraz olunur. Dər hər surət ələfiyyat əsildir və nəhayət, həkimi-mütləq o özüdür... [88, s.226].

Obrazın nitqində işlənən ərəbizmlər istər dövrün, istərsə də bu günün oxucusu üçün anlaşılmazdır. Müəllif oxucusuna əslində bu sözlərin ifadə etdiyi mənanı çatdırmaq yox, onların qəlizliyinin yaratdığı təəssüratı ötürmək istəmişdir. Diqqət edək ki, obrazın ilk cümlələri xalq dili üslubunda qurulub, oxucu üçün anlaşıqlıdır. Ancaq o, Şiraz həkiminin tərifinə keçəndə dil xeyli qəlizləşir, ərəb və fars leksikonu ilə zənginləşir. Bununla obraz Şiraz həkimin sanbalını və onun dediklərinin qiymətini artırmaq məqsədi güdmüşdür. Çünki uzun əsrlər Azərbaycan cəmiyyətində ərəb və fars sözləri ağlın rəmzinə çevrilmişdi. Odur ki, müəllif bu sözlər vasitəsi ilə öz qəhrəmanının məqsədini izləyir.

Ərəb və fars sözlərindən üslubi vasitə kimi istifadəyə "Ağıl dəryası" hekayəsində də rast gəlirik. Özü üçün şairlik karyerasını xəyal edən obraz kitabının adını məhz ərəb sözündə və ladında təsəvvür edir: *Rayihati-bədiiyə*. Yaxud şeirinin ünvanına deyilən tərifin məzmununu ərəb və fars sözü ilə xəyal edir. Məsələn:

Keçən gün ... məcmuəsində çıxan şeiriniz ənfəni-asardandır [88, s.133].

Obrazın bu xəyal və təsəvvürləri ilə yazıçı kütləvi işləkliyə malik olmayan ərəb və fars sözlərini şairliyin əsas məziyyəti kimi qəbul edənləri tənqid etmişdir.

Qantəmir yaradıcılığında ərəb və fars sözlərinin işlənməsinin digər üslubi məqamı dini mövzularla bağlıdır. Hacı Lələ hekayəsində ölünün dəfni ilə bağlı məsələni müzakirə edən obrazın nitqində ərəb və fars kəlmələrini işlədir:

-Ölüyə hər halda "təhniyyət" vacibdir... Əgər meyidi namaz qılmamış qəbrə qoysalar, eybi yoxdur, qəbrin üstündə namaz qılmaq cayiz olar, əgər "təhniyyət" yaddan çıxmışsa, hər halda qəbri açıb meyidi çölə çıxarmalıyıq ki, "təhniyyət" olunsun [88, s.224].

Bilirik ki, Qantəmirin nəsr dili xəlqi dildir. Buna baxmayaraq, çox az hallarda olsa da, ərəb və fars sözlərinin işlənməsi hesabına xəlqiliyin pozulması faktına rast gəlirik:

Bu da istefhamkar nəzərlə onu süzdü [88, s.326].

Klassik ədəbiyyatımızda işlənmə təcrübəsi olmayan, anlaşıqlığı kifayət qədər çətinlik yaradan, mətn konteksində özünü izah edə bilməyən bu sözün əcnəbi dillərin Azərbaycan türkcəsinə gətirdiyi ağırlıqdan qurtulmaq tendensiyasının yaşandığı bir dövrdə Qantəmirin dilində işlənməsini necə başa düşmək olar?

Məlumdur ki, keçən əsrin əvvəllərində ərəb və fars sözlərinin işlənməsi böyük mübahisələr və müzakirələr mənbəyi olmuşdur. Yusif Vəzir Çəmənzəminlinin fikrinə görə yazıçılığın məqsədi bir sıra alınma sözləri nəsr dilində işlətməklə bilik satmaq deyil. Yazıçı elə sadə bir dildə yazmalıdır ki, onu oxuyan anlasın.

Ancaq Qantəmir dilində çətin anlaşılan ərəb və fars sözlərinin işlənməsi yazıçının bilik satmaq ədası ola bilməzdi. Çünki onun bütün yaradıcılığının dil-üslub xətti bunun əksini söyləyir. Ərəb və fars sözlərinin yaratdığı ağırlığın xarakterik olmadığı realist-satirik ədəbiyyatda, xüsusən də Qantəmir kimi demokratik dil tərzinə malik yazıçının dilində çətin anlaşılan ərəbizmin işlənməsi onu göstərir ki, XX əsrin 20-30-cu illərində hələ də ədəbi dilimiz üçün ərəb və fars sözlərinin qəlizliyi geridə buraxılmış hadisə deyildi.

Ümumiyyətlə, Qantəmirin yaradıcılığına əsasən bu qənaətə gəlmək olur ki, bu dövrdə ədəbi dilin demokratikləşməsi və milliləşməsi prosesinin getməsinə

baxmayaraq, bədii üslubda hələ də ərəb və fars sözlərinin ifadə gözəlliyi təsəvvürü davam etməkdə idi. Çünki onun yaradıclığında ara-sıra olsa da, klassik ədəbiyyatımız üçün xarakterik olan ərəb və fars kəlmələrinin işləndiyini görürük:

Heç bir şəri məsələ yoxdur ki, onun qulağı eşitməmiş olsun [88, s.219].

Filhəqiqə o bir neçə gün fəlsəfə ilə məşğul oldu [88, s.128].

Zira Sürəyyanı mən çox sevirəm, həftədə bir dəfə onu görməsəm, bağrım çatlar [88, s.329].

Usta Kərimin "bir yaxşı qızı" olduğunu öyrəndikdən sonra elçi intixabını taciranə düşünmüş və onun qonşusu bağban Haşımı göndərmişdi [88, s.328].

Ancaq Qantəmirin dili onu da göstərir ki, bu sözlərin müasir ədəbiyyatda xəlqiləşməsi prosesi gedirdi. Belə ki onlar öz morfoloji quruluşlarında ərəb dilinin fleksiyasından imtina edir, Azərbaycan dilinin aqlütinasiyasına meyil edirdi. Məsələn, klassik ədəbiyyatımızda *zəbandrazi* formasında işlənən söz Qantəmirin dilində -*i* morfoloji əlaməti ilə yox, milli mənşəli -*lıq* isim düzəldən şəkilçi ilə işlənir:

Biz bunların yanından keçəndə zəbandırazlığa başladılar [88, s.167].

Tofiq Hacıyev yazırdı: *"XX əsrin əvvəllərində Azərbaycan dilinin aqlütinativ morfologiyası ərəb fleksiyasını mütləq şəkildə rədd edir və yeganə morfoloji sistemə çevrilir. Bu, ədəbi dilin yenidən xalq dili zəminində qurulması prosesi ilə əlaqədardır"* [60, s.144].

Qantəmirin yaradıcılığında ərəbizmlər öz mövqeyini daha çox izafət birləşmələrinin işlənməsində göstərirdi. Düzdür, bu dövrdə dilimizdə izafət birləşmələrinin morfolojiləşməsi prosesi gedirdi. Ancaq onlar yenə də sintaktik konstruksiya kimi dildə öz işləkliyini qoruyub saxlayırdı.

Adamın həştadi-püşti yandırılan günləridir [88, s.200].

Demək olar ki, mərkəzi həmşəri palanı olan bu dairə bir daireyi əcibənümadır [88, s.274].

Qantəmirin dilində elə ərəbizmlər də vardır ki, onlar işləkliyini nə milliləşmənin, nə də yeniləşmənin gətirdiyi leksikaya yox, məhz ərəb və fars dilindən olan leksikaya güzəştə gedir. Məsələn:

Əmələ həyatından, köylü məişətindən, fabrikdən, zavoddan bəhs edəcək [88, s.133].

Həmin dövrdə onunla paralel işlənən, eyni semantikanı ifadə edən ərəb və fars mənşəli *fəhlə* sözü dilin əsas lüğət fonduna keçdiyi halda, *əmələ* sözü öz işləkliyini itirmişdir.

Qantəmirin yaradıcılığı elə bir zaman kəsiyinə düşür ki, onun arxasında bədii dili ərəbizmlər üzərində qurmaq, yaxud bəzəmək kimi az qala min illik təcrübə, önündə isə dilin milliləşmək və rus və Avropa dillərinə açılmaq kimi perspektivləri vardı. Tofiq Hacıyev rus dilinin Azərbaycan türkcəsində perspektivinin hələ XIX əsrdən başladığını göstərərək həmin dövrdən ərəb və fars sözlərinin dilimizə keçidinin səngidiyini, əvəzində rus dilindən və onun vasitəçiliyi ilə digər dillərdən sözlər keçməyə başladığını qeyd edirdi.

Dilimizin milliləşmə perspektivi haqqında isə Qəzənfər Kazımov yazırdı ki, yeni yaranan dövlət quruluşu bədii söz sənətini bu dövrün sosializm quruculuğunu dəstəkləməyə istiqamətləndirə bildiyi kimi, doğma ana dilinə nəzarəti də itirməmiş, dilimizin saflaşması, inkişaf etməsi, zənginləşməsi üçün bir sıra tədbirlər həyata keçirmişdir.

Həmin dövrdə dilimizdə milliləşmək alınmaların əsas bazası olan ərəb və fars sözlərinin milli sözlərlə əvəzlənməsi prosesində özünü göstərirdi. Amma təbii ki, bədii dildə əsrlərdir işlənmə təcrübəsinə malik olan ərəb və fars mənşəli sözlər asanlıqla öz yerini milli qarşılığına təslim edərək dilimizi tərk etmirdi. Hətta Qantəmir kimi xəlqi dilə malik sənətkarın yaradıcılığında belə biz sözün milli yox, ərəb və fars variantının işləndiyini görürük:

Sənələrlə insanın beynində kök salmış bir fikir duz-çörək məsələsi qabağında əriyir, məhv olur [88, s.94].

Göründüyü kimi, ədib fikrin ifadəsində milli mənşəli *il* sözünə deyil, ərəb mənşəli *sənə* sözündən istifadə etmişdir.

Keçən əsrin iyirminci, otuzuncu illərində rus və Avropa sözləri dilimizə yalnız yeni anlayışların ifadəsi kimi yox, həm də ərəb və fars sözlərinin qarşılığı kimi daxil

olurdu. Bu tendensiyanın mövcudluğunu Qantəmirin dilində işlənmiş ərəb və fars sözləri də təsdiq edir. Aşağıdakı cümlələrə diqqət edək:

Hacətxanada çubuq çəkirdim,- cavabını verdi [88, s.32].

Məni hər halda bir firqəçi kimi tanıyırlar [88, s.32].

Keçən əsrin iyirminci illərində ədəbi dil bazamızda olan *hacətxana* sözü rus dilindən gəlmiş *tualet*, yenə ərəb və fars dilinə aid olan *firqə* sözü isə rus dilindən keçmiş partiya sözü ilə əvəzlənmişdir.

Ədəbi dilimizin leksik normasının müəyyənləşdiyi, yaxud dəyişdiyi bir dönəmdə bu prosesin əksi, yəni rus sözlərinin ərəb və fars sözlərini əvəzləməsi də müşahidə edilirdi. Bu prosesin varlığını Qantəmir əsərlərinin leksikası sübut edir. Azərbaycan cəmiyyətinə mədəni tərəqqi ilə əlaqədar daxil olmuş elə anlayışlar var ki, onlar ilk dövrlərdə öz ifadəsini rus dilində tapsa da, dilimizdə bu şəkildə sabitləşə bilməmiş, ərəb və fars qarşılığı ilə əvəzlənmişdir.

Afərin deyərəm o lektora ki, buna "kafidir" deməsin [88, s.220]

Dilimizin sonrakı inkişaf dönəmlərində anlayışın ifadəsində *lektor* leksemini ərəb mənşəli *məruzəçi* sözü əvəz etmişdir.

"Kolxozstan" əsərində Qara Hüseynin evində qapı arxasında sorğu-suala tutulan obraz deyir:

- *Aç bu xarabanın qapısını... Burada silist qurma* [88, s.33].

Silist sözü rus dilində *sledovaniye* sözünün fonetik qabığını dəyişmiş formasıdır. Rus sözlərinin dilimizə keçdiyi ilkin mərhələlərdə öz səs kompleksindən uzaqlaşması hallarını yalnız *sledovaniye - silist* sözü yox, Qantəmirin dilində işlənmiş çox sözlər təsdiq edir. Bu cür kəskin dəyişmələrin səbəbi Azərbaycan dili ilə rus dilinin fonetikası arasında olan fərqlərdir. Belə ki rus dilində sözlərin səs tərkibinin ağırlığı məsələn, samitlərin çoxluğu Azərbaycan dilində isə sözlərin səs tərkibinin sait-samit əvəzlənməsi və ahəng qanunu üzərində qurulması rus sözlərinin tələffüzünü kütlə üçün çətinləşdirmiş, ona görə də ümumxalq dilində onların daha asan forması yaradılmışdır.

Rus idarəetməsinin Azərbaycan cəmiyyətinə gətirdiyi *istintaq* anlayışı xalq danışıq dilində rus mənşəli *silist* sözü ilə ifadə olunsa da, bu söz ədəbi dilimizdə özünə yer edə bilməmiş, ərəb sözü olan *istintaq* sözü ilə əvəzlənmişdir.

Ancaq onu da qeyd edək ki, bu dövrdə ərəb və fars dillərinin yeni anlayışların ifadəsi üçün bazaya çevrilməsi xarakterik deyildir. Tofiq Hacıyev də ərəb və fars dillərinin bu prosesdə iştirakını qiymətləndirərkən yazır:

"XX əsrin əvvəllərində bu mənbə, sözün əsil mənasında, ölü vəziyyətində idi. Doğrudur, bu mənbə bəzi üslublar üçün hələ də fəal sayılırdı. Lakin ədəbi dilin lüğət tərkibinin zənginləşməsini təmin edən üslublar üçün həmin mənbə yox qəbilində idi. Yeni dövrdə bu mənbəyə münasibət oradan alınmış lazımsız, geniş xalq kütləsi tərəfindən başa düşülməyən sözlərdən dili təmizləməkdir" [60, s.135].

Normalaşmanın hələ başa çatmadığı bir dövrdə dildə ərəbizmlərlə rusizmlərin paralel işlənməsi də müşahidə olunurdu. Uzun işlənmə təcrübəsinə malik ərəb və fars sözlərinin rus sözləri ilə əvəzlənməsi dərhal baş verə bilən proses ola bilməzdi. Onların paralel işlənməsi faktı Qantəmir yaradıcılığında da təsdiqlənir:

Parteyni desən, kişi parteyni idi [88, s.232].

Firqəçi və məsul rayon işçisi olan oğlunun məclisə çıxa bilən intelligent qadını olmalı idi [88, s.342].

Qantəmirin nəsri öz mövzusunu daha çox mədəni tərəqqi və yeni quruculuq işlərindən aldığından onun əsərlərinin leksikonu rus və Avropa sözləri ilə zəngindir. Nizami Xudiyev XX əsrin 20-ci illərində rus dilindən götürülmüş sözlərin əksər hissəsinin həmin dövrün əsas hadisələrini özündə cəmləşdirən ictimai-siyasi mənalı sözlər, elmi-texniki tərəqqiyə dair beynəlmiləl dil vahidləri olduğunu doğru olaraq qeyd edirdi.

Qantəmirin dilində rusizmlər həm dilin lüğət fondunun yeni vahidləri kimi, həm də öz əcnəbiliyini qoruyaraq bədii, satirik vasitə kimi işlənmişdir. Yazıçının özlərini yeni sivilizasiyanın insanı kimi hər kəsin gözünə soxmaq istəyən qəhrəmanları üçün rus dili ən yaxşı vasitə idi. "İntelligent" hekayəsinin qəhrəmanı xitabət kürsüsündən camaata müraciətini ənənəvi tərzlə - "həzərat" sözü ilə başlasa da, nitqini kütlə üçün anlaşılmaz rus kəlmələri ilə davam etdirir. Qəhrəmanın nitqində

abyasnit, smısl, persidatel sözlərini verən müəllif uzun əsrlər ərəbləşmənin hücumlarına məruz qalan Azərbaycan türkcəsinin yeni bir təhlükə - ruslaşma ilə qarşılaşdığına işarə edir. Maraqlıdır ki, bu təhlükə yalnız obrazın dilində deyil, müəllifin dilində də elə həmin əsərdəcə müşahidə olunur. Məsələn:

O, paltonu "inspektor narodni uçilişşe" olmaq istədiyi zamanlarda tikdirmişdi [88, s.183].

O, N qəzasında "narodni sudya" oldu [88, s.183].

Bu tip rus kəlmələrinin hətta müəllif dilində işlənməsi, yaxud işlənmək məcburiyyətində qalması bir vaxtlar əruz vəzninin Azərbaycan dilini mütləq ərəbləşdirməyə məruz qoymasının müasir variantı idi. Tofiq Hacıyev yazırdı: *"...rus dili morfoloji göstəricilərinin, söz birləşmələrinin Azərbaycan dilinə qəbulu normal vəziyyət deyildi. Belə qeyri-normal mənimsəmə keçən əsrin ikinci yarısında da nəzərə çarpırdı"* [58, s.141].

Rus sözlərinin əksəriyyəti Qantəmirin nəsrində obrazların nitqində işlənib, onların tipikləşdirilməsi məqsədi daşıyır. Həm də yazıçının yaratdığı surətlərin dili rus və Avropa sözlərinin ümumxalq dili tərəfindən necə mənimsənildiyini göstərir. Qantəmir nəsrinə istinadən bu qənaətə gəlmək olur ki, bu sözlər həmin dövrdə ümumxalq dilində güclü fonetik dəyişikliyə məruz qalaraq danışıq dilinə keçirdi. Bu dəyişikliklər içərisində daha çox sözün əvvəlinə saitin artırılması fonetik hadisəsi müşahidə olunur:

Xanım "urus matışkası" sözünü eşidib bildi ki, özündən danışırlar [88, s.20].

Çarəsiz qalıb istəkanı iki şahıdan on dörd şahılıq su içmişəm [88, s.21].

Bunların hamısını gedib uşkulada oxuyub dayna [88, s.214].

Bacı, səkkiz qəpik izdaç yoxdur [88, s.268].

Rusizmlər həmin dövrdə ümumxalq danışıq dilində milli morfoloji əlamətləri qəbul edərək söz yaradıcılığı prosesində fəal iştirak edir.

Sözünü sevirəm o müdirin ki, anketi peçatlamasın [88, s.220].

Xüsusilə də, bu prosesdə *-çı* sənət anlayışlı isim düzəldən şəkilçilərin aktiv mövqedə olduğunu görürük.

Fotoqrafçının verdiyi çuxanı geyib xəncəri də taxmışlar [88, s.267].

Tramvayçıda taxsır-zad yoxdur [88, s.269].

Ancaq onu da qeyd edək ki, bu forma danışıq dilində işlənsə də, ədəbi dilə keçə bilməmişdir. *-çı* şəkilçisi ərəb və fars sözlərinə qoşularaq ədəbi dilimizdə isim yaratdığı halda (məsələn, tədqiqatçı, təbliğatçı, ixtiraçı), onun danışıq dilində rus sözləri ilə işlənmə praktikası ədəbi dildə öz təsdiqini tapa bilməmişdir.

Hətta rusizmlərin sintaktik üsulla söz yaradıcılığı prosesində də iştirak etdiyini görürük. Onlar köməkçi feillərə yanaşaraq mürəkkəb feillər əmələ gətirir:

Xalam məni göndərdi ki, "ona oçer tutmuşam", durmasın, gəlsin [88, s.275]

Dilimizdə ərəb və fars mənşəli sözlərin *etmək, olmaq, tutmaq* kimi köməkçi sözlərə yanaşaraq mürəkkəb feil yaratmaq ənənəsi var. Ancaq rusizmlərin bu yolla söz yaradıcılığı prosesində iştirak etməsi danışıq dilində baş versə də, ədəbi dildə özünə yer tapa bilmədi. Elə yuxarıdakı cümlədəki feil ədəbi dildə *oçer* sözünü rədd edərək ərəb mənşəli *növbə* sözü ilə işlənir.

Bu dövrdə elə rus kəlmələri də vardır ki, onlar danışıq dilində ərəb və fars sözlərinə paralel olaraq işlənir.

Bunların hamısını gedib uşkulada oxuyub dayna [88, s.214].

Həmin dönəmdə *uşkula* sözünün danışıq dilində məktəb sözünə paralel işlənməsi xalq təfəkküründə onların ifadə etdikləri anlayışın müxtəliflik kimi qəbul edilməsi ilə bağlıdır. Tofiq Hacıyev də öz tədqiqatında yazır ki, *"...ilk baxışda bizə elə gəlir ki, uşkola//şkola//şkol sözü məktəb sözünün müqabilində tamam artıqdır. Halbuki mətbuatda bu sözlərin mənası tamam diferensiasiya olunur; məsələn, məktəb deyərkən köhnə tipli dərs-təlim ocağı nəzərdə tutulduğu halda, şkola sözü yeni tipli, rus-Azərbaycan tədris müəssisələri (müasir mənada məktəb) bildirilir"* [60, s.139].

Akademikin gəldiyi bu qənaəti Qantəmirin Zeynəb Tükəzbənova hekayəsindən nümunə gətirdiyimiz yuxarıdakı cümlə də təsdiq edir. Klubda kənd qadınları qarşısında nitq söyləyən Zeynəbin danışığına heyran olan arvadlar bunun səbəbini onun uşkulada oxumasında görərkən, əlbəttə, uşkulanın köhnə tipli məktəb olmadığını, daha yüksək səviyyədə bir şey olduğunu düşünürlər.

Bir nüansa diqqət edək ki, dilimiz üçün uzun bir tarix boyunca mənbə olan ərəb və fars sözləri danışıq dilinə ədəbi dil vasitəsi ilə keçmiş, ədəbi dildə öz yerini

möhkəmləndirə bilməyən söz danışıq dilində işlənməmişdir. Ancaq rus dilindən danışıq dilimizə sözlər yalnız ədəbi dil vasitəsi ilə yox, danışıq dilindən keçmiş və hətta bəzən işləkliyinə görə ədəbi dil paralelinə də qalib gəlmişdir. Qantəmirin nəsrində də biz ancaq danışıq dili leksikamızda işlənən, ədəbi dilimizin lüğət fonduna daxil olmayan rusizmləri müşahidə edirik.

Pajalısta! Əgər mütaliə edirsən, biz nərdi oynamayaq [88, s.83].

Spiçka gətirmək üçün ərinin yanına girdi [88, s.332].

Qantəmir yaradıcılığı həm də göstərir ki, bu dövrdə rus dilli leksika xalq danışıq dilinə oturuşur, rusizmlər danışıq ifadələri şəklində dilimizdə, dil-təfəkkür yaddaşımızda özünə yer edirdi. Məsələn:

Kakraz bu saat biz o məsələdən danışırıq [88, s.306].

Bakı yeri... Özüm nabələd, pervi raz gəlmişəm [88, s.21].

Məlumdur ki, rus və Avropa dillərinin birgə mənbə kimi göstərilməsinə səbəb Avropa dillərindən sözlərin dilimizə rus dili vasitəsi ilə keçməsidir. Ancaq onu da qeyd edək ki, mədəni tərəqqi anlayışı Azərbaycan cəmiyyətinə sovet təbliğatının dediyi kimi, heç də yalnız rus cəmiyyətinin təsiri ilə keçməmiş, türk-osmanlı cəmiyyətinin də bu işdə böyük rolu olmuşdur. Azərbaycanlı ziyalıların orada təhsil alması, yaxud da Azərbaycan elitasının türk-osmanlı cəmiyyətində gedən ictimai-siyasi, mədəni prosesləri diqqətlə izləməsi, təbii ki, ondan təsirlənməyə gətirib çıxarırdı. Ona görə də dilimizə bəzi Avropa sözləri həm də türk dili vasitəsi ilə daxil olurdu.

Qantəmirin 1934-cü ildə yazdığı "Firuzə" hekayəsində teatr sözü məhz türk variantında işlənir.

O, irəli teatroda bacısını mənimlə tanış etdi [88, s.298].

Parlamana üzv olmaqdan sonra evlənməkdən başqa arzusu yox idi [88, s.285].

Qantəmirin dilində *parlamana*, müasir Azərbaycan dilində isə *parlament* kimi işlənən bu söz Avropa mənşəli olub, onun ifadə etdiyi anlam milli təfəkkürümüzə keçən əsrin əvvəllərində daxil olmuşdur. Həmin dövrün ədəbi dilində bu sözün iki versiyada: *parlamana və parlament* kimi işlənməsinə rast gəlirik. Məmməd Əmin Rəsulzadə 1910-cu ildə bu sözü rus və Avropa tələffüzünə uyğun şəkildə işlətmişdir.

Parlament rəisinin zəngi də kömək etmişdi [88, s.49].

Qantəmirin dili üzərində apardığımız müşahidələr bizi bu qənaətə gətirir ki, Azərbaycanda artıq rus imperalizminin qəti qələbə çaldığı bir dönəmdə - XX əsrin otuzuncu illərində belə dilimiz bəzi sözlərin türk, yoxsa rus təsiri ilə tələffüzünün seçimi qarşısında idi. Məlumdur ki, Qantəmir Hüseyn Cavid, Əli bəy Hüseynzadə və başqa ziyalılarımız kimi Türkiyədə təhsil almamış, yaxud öz dil-üslubunda osmanlı ləhcəsinə meyil etməmişdir. Yəni ki Qantəmir kimi realist-satirik və xalq danışıq dilinə meyil edən yazıçının dilində Avropa dillərindən gələn sözün osmanlı ləhcəsində işlənməsi bu dönəmdə dilimizdə bu tendensiyanın kiminsə fərdi dil-yaradıcılıq üslubu ilə bağlı olmadığını dilin təbii axarının hadisəsi olduğunu göstərir. Ancaq bu tip sözlərin dilimizdə türk variantının işləkliyini itirib, rus variantının sabitləşməsi, təbii ki, həmin dövrdə Azərbaycan cəmiyyətinin bütün sahələrinin, o cümlədən də dilin rus təzyiqinin və təsirinin altında olması ilə əlaqədar idi.

Qantəmir yaradıcılığı göstərir ki, türk-osmalı dili bu dönəmdə ədəbi dilimizdə yalnız ötürücü mənbə kimi deyil, həm də ilkin mənbə kimi çıxış edir. Düzdür, bu dili Azərbaycan türkcəsi üçün əcnəbi mənbə hesab etmək doğru deyil. Amma təbii ki, türk dilinin differensiyaya uğraması dönəmindən başlayaraq XX əsrə qədər osmanlı və Azərbaycan türkcələrində leksik fərqlər müəyyənləşmişdi.

Qantəmirin dilində işlənən leksikaya istinadən deyə bilərik ki, bu dönəmdə osmanlı türkcəsindən alınan sözlər çox zaman ədəbi dilimizdə əcnəbi yox, milli sözlərə paralel işlənir. Nümunələrə diqqət edək:

Erkək və qadın həyatında mühüm fərqlər, dəyişikliklər olduğunu hiss edirdi [88, s.217].

Şimdi bir tənhalığa çəkilmək, öz-özünə düşünmək, bir qərar vermək istəyirdi [88, s.139].

Para yoxdurmu? [88, s.141].

Mən bir çox təcrübələr və müşahidələrdən sonra bu əqidəyə gəlmişəm ki, arvadlara nisbətən biz ərkəklər tənbəl oluruq [88, s.275].

Ata-ananın bircəsi olduğuna görə, bu vaxta qədər qabağında dinən olmayıb, evdə də böylədir [88, s.282].

Məlumdur ki, Azərbaycan türkcəsində *erkək* sözünün *kişi*, *şimdi* sözünün *indi*, *köylü* sözünün *kəndli*, *para* sözünün *pul*, *böylə* sözünün isə *belə* kimi milli mənşəli qarşılıqları vardı. Yazıçının əsərlərində köylü (kəndli) ismi, bulmaq (tapmaq) feilinin də işləndiyi cümlələrə rast gəlirik.

Onu da qeyd edək ki, Qantəmir yaradıcılığında osmanlı-türk leksikasının işlənməsi bəzən ara-sıra yox, davamlı xarakter alır. Məsələn, "Kiçik Volodya" hekayəsində uşaq anlayışı davamlı olaraq *cocuq* kəlməsi ilə, pul anlayışı isə *para* sözü ilə ifadə olunmuşdur.

Tədqiqatlarda türk-osmanlı dilinə məxsus sözlərin keçən əsrin əvvəllərində dilimizdə işlənməsi ideoloji hadisə kimi izah olunmuşdur.

Bu, (türkiyə türkcəsinin təsiri-müəllif) əsrin əvvəllərində Azərbaycan ədəbi dilində mühüm rol oynamış, izlər qoymuş tarixi bir proses idi. Türk dilinə meyil artıq qarşılıqlı əlaqəli inkişaf meylindən deyil, ümumtürk ədəbi dil ideyası ilə bağlı idi [113, s.85].

Ölkəmizdə sovetləşmənin getdiyi keçən əsrin iyirmi, otuzuncu illərində yaranmış Qantəmir nəsrində türk-osmanlı sözlərinin çox rahat şəkildə işlənməsi isə deyir ki, bu, yalnız müəyyən ideologiya ilə bağlı hadisə ola bilməzdi. Əslində bu hadisə həm də dilin genetik yaddaşı, dil-təfəkkür kodu ilə əlaqəli idi.

Nizami Xudiyev doğru olaraq yazır ki, uzun tarixi yol keçmiş, hər hansı bir dildə artıq normaya çevrilən ünsürləri məcburən digər dilə köçürmək mümkün olan bir şey deyil. Bu səbəbdən inqilabdan sonrakı dövrlərdə bu cür dil vahidlərinin işlədilməsi getdikcə zəifləyərək sıradan çıxır.

Qantəmir yaradıcılığı bu faktı təsdiqləyir ki, dildə artıq uzun əsrlər boyu gedən leksik-semantik diferensiallaşmanın yaratdığı fərqləri aradan qaldırıb dil birliyi yaratmaq cəhdinə hətta realist-satiriklər də qoşulmuş və bu, inqilabdan sonra da davam etmişdir.

F.Ağazadə 1926-cı ildə əski türk dilindən müasir dilə sözlərin gətirilməsinin lazım olduğu məqamı belə izah edərək yazır ki, elə alınma sözlər mövcuddur ki, onları milliləşdirmək mümkün deyil. Mümkün olsa belə, bu dil vahidlərinə qarşı türk xalqında heç bir sevgi oyanmır. Bu cür sözlərin milliləşməsi mənasız olduğu üçün,

başqa vasitələrdən istifadə olunmalıdır. Yəni milliləşməyi bacarmayan alınma sözlərin qədim türk variantını tapıb işlətməliyik.

M.Lazarev isə türk dilində ərəbizmlərin işlənməsi ilə bağlı belə söyləyir: *"Doğrudur, heç bir dil yoxdur ki, özgə dildən söz götürməmiş olmaya, amma nə o həddə ki, türklər ərəb və farsdan götürüb işlədirlər. Doğrudur, ərəb və fars dillərindən türk dilinə çox sözlər qədim əyyamdan daxil olub. Şimdiki halda öylə müstəhikən olmuşlar ki, onları türk dilindən çıxarıb rədd etmək namümkündür. Misal, can, kitab, səbr, fikir, islat və bunlar kimi çoxusunu olur saymaq"* [95, s.14-15].

Qantəmirin dili göstərir ki, əski türkcədə olan və türk-osmanlı dilində qorunub saxlanılan bəzi sözlər həmin dönəmdə əcnəbi sözlərə qarşı işlədilirdi.

Qantəmirin əsərlərində işlədilən ümumtürk mənşəli *arkadaş* sözünün fars mənşəli *dost* sözünə qalib gələ bilməməsinin səbəbi həm *dost* sözünün dilimizdə uzun işlənmə tarixi, həm dilin bütün sahələrində: ədəbi, danışıq, ümumxalq dilində qərarlaşması ilə bağlıdırsa, həm də fikrimizcə, bunda həmin dövrdə türk adına başladılan qırmızı terror da təsirsiz deyildir. Sovet ideoloqları çalışırdılar ki, Azərbaycan dili ilə türk dili arasında bir uçurum yaratsınlar.

Qantəmirin dili bədii ədəbiyyatda ərəbizimlərin işlənmə ənənəsinin keçən əsrin iyirminci-otuzuncu illərində öz mövqeyini dilin milliləşməsi və xəlqiləşməsi prosesinə qəti sürətdə təslim etdiyini göstərirdi. Artıq ərəb və fars dili passiv, rus dili isə aktiv mənbəyə çevrilməyə başlayırdı.

1.3. Qantəmirin nəsr dilində dialektizmlər

XX yüzilliyin əvvəlləri Azərbaycan ədəbi dilinin inkişafında normaların müəyyənləşməsi ilə xarakterizə olunan yeni mərhələ başlayır. Dilçilikdə bu məsələ ilə bağlı bir çox tədqiqatlar aparılmış, ədəbi dilin inkişafında müxtəlif mərhələlər fərqləndirilmişdir. Nizami Xudiyev "Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafı (sovet dövrü)" tədqiqatında əsrin əvvəllində ədəbi dilin formalaşma mərhələlərini, dəyişən meyilləri geniş şəkildə təhlil edərək XX əsrin 20-ci illərini ən mürəkkəb bir dövr kimi xarakterizə etmişdir. Bu mərhələnin ən mühüm hadisəsi dildəki ərəb və

fars ibarələrinin, osmanlı türkcəsinə aid sözlərin tədricən milli sözlərlə əvəzlənməsi idi.

Dilçilər tərəfindən birmənalı olaraq qarşılanmasa da, dildəki bu təmizlənmə siyasəti daha çox dialekt sözlərinin ədəbi dilə gətirilməsi faktı ilə reallaşır. Dil sistemi zəncirinin əsas halqalarından olan dialektlər dilin leksikasının daxili imkanları hesabına zənginləşməsinin əsas mənbələrindəndir. Keçən əsrin əvvəllərində də ədəbi dillə xalq danışıq dilinin ünsiyyətinin artması nəticəsində dialektlərin bir mənbə kimi rolu aktivləşmişdi.

"XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili ilə Azərbaycan dilinin lüğət fondu arasında maksimum yaxınlıq yaranmışdır. Hətta ümumxalq danışıq leksikası ədəbi dilə o dərəcədə nüfuz etmişdi ki, bu zaman ədəbi dildə dialektizm qatı ayırmaq mümkün deyildi. Bütün dialekt zonalarından ümumanlaşma səviyyəsinə qalxa bilən, ictimai-sinfi, iqtisadi, mədəni şəraitlə əlaqədar xalqın təfəkkür tərzini ifadə materialı ilə təmin etmək, kollektivin hissi və əqli qavrayışını dolğunlaşdırmaq imkanına yarayan bütün sözlər ədəbi dilə gətirilirdi. Yalnız etik və estetik normaları korlayan lüğətə (biabırçı sözlər) etinasızlıq göstərilirdi" [60, s.81].

Ədəbi dildə gedən bu prosesləri dövrün bədii materiallarına istinadən müşahidə etmək və elmi-nəzəri analizini vermək mümkündür. Çünki dialekt sözlər ədəbi dilə daha çox bədii əsərlər vasitəsilə keçir. Dialektizmlərin bədii üslubda istifadəsi ilə əlaqədar olaraq V.V.Vinoqradov yazır ki, yazıçılar müəyyən təbəqənin dialektini oxucuya çatdırmaq üçün dialektlərə tez-tez müraciət etməli olurlar. Müxtəlif sosial qruplaşmanın dialekt xüsusiyyətlərini yazarların bir qismi tacirlərin, bir qismi isə çinovniklərin, ruhanilərin dilində göstərir.

V.V.Vinoqradovdan fərqli olaraq dialektlərin ədəbi dili heç də zənginləşdirmədiyi fikrini irəli sürən tədqiqatçılar da var. Məsələn, A.İ.Yefimova görə dialektizmlər ədəbi dilin lüğət fondunu zənginləşdirmir, onlar, sadəcə olaraq, müəyyən situasiyalarda müvafiq obrazların danışıq leksikasını tənzimləməyə xidmət göstərir.

Lakin aydın məsələdir ki, həm Azərbaycan, həm də digər dillərin lüğət fondu təkcə ədəbi dildə işlənən sözlərdən ibarət deyil, dilin şivə və dialektlərində zəngin söz ehtiyatının olması inkaredilməzdir.

Məhz bu səbəbdən də XX əsrin əvvəllərində, xüsusən də 20-30-cu illərdə xalq danışıq dilinə yaxşı bələd olan yazıçılar, müxtəlif üslubi məqsədlərlə xalqın keçmişini, tarixini özündə əks etdirən dialekt və şivə leksikasını əsərlərinə gətirirdilər. Bədii üslubun sərhədlərinin açıq olması dialektizmlərin bədii əsərdə rahatlıqla yer tapmasına imkan verir. B.Çobanzadə, Ə.Dəmirçizadə, S.Cəfərov, A.Axundov, R.Məhərrəmova, A.Qurbanov, M.Cahangirov, M.Məmmədov, Q.Kazımov kimi dilçilərimiz dialektizmlərin bədii dildə işlədilməsinin üslubi rolunu, dilimizin zənginləşdirilməsindəki əhəmiyyətini söyləmişlər.

Qantəmirin yaradıcılığı dialektlərimizin öyrənilməsi üçün zəngin mənbədir. Onun əsərləri dilimizin yüz il əvvəlki etnoqrafik mənzərəsini əyani dil materialları əsasında yaradır. Bu barədə müxtəlif dilçilərin fikirləri bir-birini tamamlayır.

"Yazıçının dilinin və üslubunun formalaşması, adətən, onun əsərlərinin meydana çıxdığı dövrün dil-üslub ənənələri arxasında baş verir. Həmin dövrün leksik-etnoqrafik dialektizmləri bu üsluba öz təsirini göstərir" [133, s.128].

Dialektizmlərin öyrənilməsi həm də dil tarixinin öyrənilməsi işinin bir hissəsidir. Elmi mənbələrdə bu fikir dönə-dönə öz təsdiqini tapmışdır.

V.Vinoqradovun sözləri ilə desək, müəyyən tarixi-dialektoloji tədqiqatlar aparılmadan müxtəlif dilçilik bölmələrinin - fonetika, leksikologiya və qrammatikanın rus ədəbi dilinə məxsus tarixi problemlərini əsaslı formada izahını vermək olmaz.

Bilirik ki, bu situasiya Azərbaycan dilinə də aiddir. Belə ki dilimizin bir sıra tarixi dialekt və şivələrini öyrənmədən dilçilik problemlərinin izahı qeyri-mümkündür. Dialekt leksikası əski dövrlərin tarixi dəlillərini saxlamaqla bərabər, həm də dilin keçdiyi keşməkeşli inkişaf istiqamətinin tədqiqi üçün də qiymətli mənbə sayıla bilər.

Buradan aydın olur ki, dilimizdə işlənən dialektlərin öyrənilməsi dilimizin tarixi ilə sıx əlaqədardır, bir sıra dil proseslərinin həllində mühüm rol oynayır.

Qantəmirin yaradıcılığı da dialektizm müstəvisində dil tariximizin öyrənilməsi üçün material verən mənbələrdəndir.

Dialektizmlərin üslubi əhəmiyyəti adətən realist və satirik əsərlərdə daha çox üzə çıxır. Ona görə Qantəmir nəsrində onlar dilin fəal leksik qatını təşkil edir. Əsasən, satirik hekayələr müəllifi kimi tanınan Qantəmir dialektizmlərə həm qəhrəmanlarının dilində, həm də öz təhkiyəsində geniş müraciət etmişdir. Təbii ki, canlılığı artırmaq, özünü də bu tiplərdən biri kimi göstərmək cəhdləri də bu məsələdə mühüm rol oynayırdı.

Xalq dilinin zənginliyindən bəhrələnən istənilən yazıçı doğulub boya başa çatdığı ərazinin dil vahidlərindən, yəni dialekt və şivələrdən əsərlərində istifadə etməklə ədəbi dilimizi zənginləşdirməyə nail olmuşdur. Bu da obrazın daha canlı təzahürü, onun dilinin fərdiləşdirilməsi üçün mühüm addımlardandır.

Diqqəti cəlb edən bir məsələ müəllifin dilində işlənən bir çox dialektizmlərin geniş coğrafi arealda işlənməsi ilə bağlıdır. Ədəbi dilin leksik normalarından kənar olsa da, bədii ədəbiyyat üçün xarakterik götürülən bir çox söz və ifadələr nominativ funksiya daşıyır. Müəyyən dövrdə dialekt kimi qəbul edilən bir çox söz və ifadələrə bədii əsərlərin dilində kifayət qədər təsadüf edilməsi onların zaman keçdikcə ümumişlək sözlərə çevrilməsi ilə nəticələnir. Məsələn:

Armıdı balnisanın <u>eşiyindən</u> dəribdir [88, s.311].

Bu cümlələrdəki *eşik sözü* şərti dialektizm adlandırılır. Vaxtilə dar çərçivədə işlənsə də, zaman keçdikcə hamı tərəfindən anlaşıldığı üçün bədii dilə, oradan da lüğət fonduna keçmişdir.

Eşik sözü təkcə Qantəmir dilində deyil, əksər yazıçıların dilində işlənməkdədir. Bu söz Naxçıvan dialektində, Oğuz, Tərtər, Zaqatala, Qərbi Azərbaycan, Böyük Qarakilsə və Çəmbərək şivələrində "həyət" mənasında işlənir. Müasir Azərbaycan ədəbi dilində *binanın və s. xarici* mənası ilə yanaşı, *eşik, həyət, çöl, dişarı, kənar, açıq yer* mənasını bildirən *bayır* sözü də işlədilir. Müasir ədəbi dilimizdə *eşik* sözü *bayır* sözü ilə sinonim cərgə yaradır.

Qantəmirin dilində feili dialektizmlərə də kifayət qədər təsadüf edilir:

Bəzi dövlətlilərin xanımları Aybikəyə <u>qahmar çıxırdı</u> [88, s.319].

Doğrudan da, sizin şəhər xanımları dolmanı lap xırda qayırır [88, s.31].

Bəlkə, öz molud gününə hörmətən bacısı oğluna danışmaq imkanını verərək kiridi [88, s.305].

Qahmar - Qazax, Salyan, Şəmkir, Tovuz dialektlərində və Ağbaba şivəsində tərəfdar, arxa, kömək anlamında geniş işlənir. Daha çox feili birləşmənin komponenti kimi çıxış edən qahmar sözü Azərbaycan dilinin izahlı lüğətində məhəlli üslubi işarəsi ilə göstərilmiş, *qahmarçı, qahmarçılıq* düzəltmə sözləri vasitəsi ilə də izah edilmişdir.

Ağdam, Borçalı, Cəbrayıl, Şəki, Salyan, Şəmkir, Tərtər, Tovuz, Ucar kimi bir çox şivələrdə geniş istifadə dairəsinə malik olan *kirimək* sözü Qantəmirin satirik hekayələrində bir neçə yerdə işlənmişdir. Dialekt və şivələrdə *kirimək* sözü iki fərqli mənada işlənir:

1. *susmaq, sakit olmaq;* 2. *kəsmək, dayanmaq* [18, s.255].

Halbuki, Azərbaycan dilinin dialektoloji lüğətinin 1964-cü il nəşrində *kirimək* sözünün Gəncə dialektində və Ağdam şivəsində təkcə susmaq mənasında işləndiyi qeyd olunmuşdur. Ədəbi dilimizdə isə bu söz *səsini kəsmək, susmaq, dinməmək* və *rahatlamaq, ovunmaq, sakitləşmək* kimi müxtəlif mənalarda işlənməkdədir. Məsələn:

"*Şirin sözlərinin çox müştaqiyam,*
Danışmayıb kiriməyin nədəndir?
(M.P.Vaqif)

İzahlı lüğətdə kirimək sözü ilə homogen olan *kirimişcə, kiritmək* sözləri də verilmişdir [18, s.71].

Qantəmirin hekayələrində müxtəlif dialektlərdə fərqli anlam kəsb edən bəzi dialektizmlərə də təsadüf etmək mümkündür.

Əgər yançılar sakit dursaydı, ehtimal ki, bu söz burada qurtarıb gedərdi. Nəsihət vermək istəyən elə barışdırıcılar işə müdaxilə edərkən, heç də təmiz ürəkli yanaşmazlar [88, s.279].

Dialektoloji lüğətə nəzər yetirsək, *yançı* sözünü müxtəlif mənalarda işləndiyini görərik. Bərdə, Kürdəmir, Quba, Borçalı, Xocavənd, Qazax, Qarakilsə, Tovuz kimi əksər dialektlərdə köməkçi mənasında işlənən *yançı* sözü Qax, Zaqatalada sağdış,

soldış mənasında, Qazax dialektində isə çoxdanışan mənasında işlənməkdədir. Yazıçının dilindən seçdiyimiz nümunədə də bu söz Quba, Oğuz dialektində işləndiyi kimi *kənar adam, məsələyə aidiyyatı olmayan adam* mənasında işlənmişdir.

Yançı III (Quba, Oğuz) - kənar adam (İkisi qarpışır, yançı gəlir ayırtdaşdırır) [18, s.539]. Ağbaba şivəsində qoyunların artım vaxtı çobana kömək edən işçiyə də yançı deyilir.

Kolxozstan povestində Qara Hüseynin dilində işlədilən *dambuğ* sözü də olduqca maraq doğurur. Yazıçı bu dialekt sözün mənasını dolayı yolla, elə obrazın dili ilə də açır. Sadığın "Dambuq nədir, a başına dönüm?" – sualını Qara Hüseyn belə cavablandırır:

- *Qırqovulu təmizləyib qoyursan üç gün qalır duzda... sonra içini nar və soğanla doldurursan... yarım girvənkə çağlı da şit kərə basırsan içinə... Möhkəm tikirsən onun qarnını...iki ayağından asırsan ocağın qabağında...Sonra götürüb qoyursan plovun yanına* [88, s.73].

Məmmədağa Şirəliyev Azərbaycan dilinin dialektoloji lüğətində dambığın Şamaxı dialektinə məxsus olduğunu yazaraq *yanında qızardılmış toyuq olan plov* anlamını verdiyini qeyd edir.

Yuxarıda kiçik mətndə verilmiş *çağlı* da dialekt sözdür. Azərbaycan dilinin dialektoloji lüğətində Salyan dialektinə aid söz kimi *qədər* anlamında izah edilmişdir.

Qantəmirin nəsr dilində işlədilən *palan* sözü də maraq doğuran dialektlərdəndir:

-*Ay oğul, həmşəri palanına çatanda mənə xəbər ver* [88, s.268].

-*A qardaş, sən də həmşəri palanına qoyun əti almağa gedirsən?* [88, s.268].

Azərbaycan dilinin izahlı lüğətində *palan* bir neçə mənada: minik heyvanlarının belinə qoyulan içi saman və küləşlə doldurulmuş sadə yəhər; qədimdə hambalların kürəyinə qoyulan yastıq; plan sözünün xalq danışıq dilində istifadə edilən təhrifə uğramış forması olan şəhərin müəyyən hissəsi, məhəllə, küçə [20, s.567] anlamında verilsə də, burada *palan* Bakı, Salyan ləhcəsində küçə mənasında işlədilmişdir.

Şotır sözü də Qantəmirin nəsr dilində işlənmiş maraqlı dialektlərdəndir.

Oğlum Zəhrabəyimin danalarını güdürdü, özüm də yun daramaqdan, paltar yumaqdan barmaqlarımın ucu şotır olmuşdu [88, s.321].

Şotur sözü Ağdam, Bərdə, Şərur, Şuşa dialektlərində dırnaqda əmələ gələn xəstəlik adıdır. Uşaq oyun nəğmələrində - sanamalarda da bu sözə rast gəlirik:

İynə, iynə
Ucu düymə
Bal ballıca,
Ballı keçi,
Şam ağacı,
Şatır keçi
Qoz ağacı
Qotur keçi
Hoppan, hoppan
Yırtıl, yırtıl
Su iç qurtul.

Buradan görünür ki, Qantəmir şifahi xalq ədəbiyyatı nümunələrində işlədilən dialektizmlərdən də yerli-yerində bəhrələnməyi bacarmışdır. Bu söz Qantəmirin nəsr dilində *şotır*, sanamada *şatır*, Azərbaycan dilinin dialektoloji lüğətində *şotur* kimi verilmişdir. Bu da fonetik dəyişmələrlə bağlıdır.

Tramvay yelli gedirmiş [88, s.270] - cümləsindəki *yelli* sözünün də Azərbaycan dilinin dialektoloji lüğətində üç fərqli məna daşıdığı göstərilir. Naxçıvan, Şərur, Tovuz dialektlərində daha çox məcazi mənada işlənən bu söz acıqlı, hirsli mənasını verir. *Yelli* sözü Şəkidə yel xəstəliyinə tutulmuş adamları ifadə edir. Lüğətdə sözün üçüncü mənası isə daha geniş işlənmə arealına malikdir. Bakı, Cəbrayıl, Füzuli, Gədəbəy, Kürdəmir, Laçın, Sabirabad, Salyan dialekt və şivələrində bu söz *cəld, tez* mənasında işlənir [18, s.547]. Yuxarıdakı cümlədə də *yelli getmək* iti, sürətli getmək anlamını verir.

Geniş dairədə işlənən sözlərlə yanaşı, yalnız konkret bölgələr üçün xarakterik söz və ifadələr də Qantəmirin dilində kifayət qədər işlənməkdədir. Əsərlərindən seçdiyimiz nümunələrdə *çağlı, təkimləməx, soqqur* kimi dar areala malik dialekt sözlərinə də təsadüf etdik.

Bir az atları təkimləyiniz...gedək çataq...gün güdədir [88, s.55].

Əsasən, Tovuz dialektində işlənən *təkimləməx - mahmızlamaq* mənası daşıyır.

Bir soqqur yabını vermisiniz mənə... [88, s.55].

Zaqatala şivəsində *arıq (at)* anlamı daşıyan *soqqur* sözü, Bakı dialektində *soqqırı çıxmaq* feili birləşməsi şəklində işlənib *arıqlamaq, sümükləri görünmək* mənası daşıyır.

Qantəmirin dialekt leksikasına daxil olan maraqlı sözlərdən biri də *xışdəkələmək* sözüdür.

Gülsüm xanım Sürəyyanın ipək köynəyini xışdəkələyirdi [88, s.332].

Quruluşca düzəltmə olan bu söz xişdəx' sözündən morfoloji yolla düzəlmişdir. "Xişdəx'-Qax, Qarakilsə, Qazax, Şuşa dialektlərində *köbə mənası verir"* [18, s.226]. *Qeyri məhsuldar şəkilçilərdən biri kimi adlardan feil düzəldən –ala,-ələ şəkilçisinin köməyi ilə xışdəx' sözündən - xışdəxləmək yaranmış, daha sonra -xışdəkləmək formasına düşmüşdür. Nümunədə işlənən -ala,-ələ şəkilçisi tarixən işlək olsa da, müasir dilimizdə qeyri-məhsuldar şəkilçi kimi qəbul edilir. "-ala//- ələ. Bu –a və -la feildüzədici şəkilçinin birləşməsindən əmələ gəlmişdir. Bu, prosesin sürəkliliyini bildirən feillər düzəldir: qovalamaq, səpələmək, eşələmək və s."* [18, s.101].

Qantəmirin dialekt leksikası dialektlərdə də sintaktik üsulla söz yaradıcılığının aktiv olduğunu göstərir. Yazıçının yaradıcılığında bu üsulla yaranmış leksik vahidlərə kifayət qədər rast gəlmək mümkündür. Məsələn:

Xanım Əminə yumru-yosmalaq və lap uzaq başı on altı yaşında təzəcə gəlindir [88, s.276].

Yaxınmənalı sözlər əsasında yaranan *yumru-yosmalaq* birləşməsində bir komponenet ədəbi dilə, digəri isə dialektə məxsusdur. Y*osma* tarixi ədəbi dilimizdə müəyyən zaman kəsiyində istifadə edilsə də, getdikcə ədəbi dildən çıxaraq dialektlərdə izini *tosmalaq* formasında saxlamışdır. Buradakı *yosmalaq* sözü Füzuli, Ucar şivələrində *gödəkboylu* mənasını verir. Sözün kökünü təşkil edən *yosma* sözü isə Azərbaycan dilinin dialektoloji lüğətində *alçaq daxma* mənasını versə də, Azərbaycan dilinin izahlı lüğətində *zərif, işvəli, incə* anlamı daşıyır, həm də bədii ədəbiyyatımızda da daha çox şairlərin dilində işlənmişdir. Məsələn:

İpəklər içində xumarlandıqca
Yosma gözəllərə dastanlar deyin.
S.Vurğun

Azərbaycan dilinin izahlı lüğətidə *yosmaraq* sözü də bəstəboylu, kiçik, alçaq mənasında izah edilmişdir. Müstəqil və köməkçi feillərin birləşməsindən, eləcə də komponentlərdən birinin dialekt leksikasından götürülməsi ilə yaranmış birləşmələr idiomatik ifadə şəklində semantikləşir, obrazlılığını gücləndirir, emosionallığı artırır.

Çox düşündüm, çox vara-vurd elədim [88, s.158].

Kəndin bütün arvadları iki tirə olmuşdu [88, s.319].

Ağdam, Bərdə dialektlərində işlədilən *vara-vurd* birləşməsi *götür qoy etmək, fikrən ölçüb biçmək* anlamı kəsb etməkdədir.

İki tirə olmaq ifadəsində mürəkkəb feilin yaranmasında əsas tərəf kimi çıxış edən *tirə* sözü isə geniş coğrafi areala malikdir. Ancaq bu söz ayrı-ayrı ərazilərdə müxtəlif mənalarda işlənir. Əksər rayonlarda *nəsil, tayfa* mənasında işlənən tirə sözü, Şəki dialektində *lək*, Cəbrayıl, Culfa, Kürdəmir, Mingəçevir, Salyan şivələrində *tir*, Qubadlı ləhcəsində isə *tərəfdar, həmfikir* anlamında işlənir. Qantəmirin dilində isə *iki tirə olmaq* ifadəsinin fikir ayrılığı nəticəsində *iki hissəyə parçalanmaq* mənasında işləndiyi aydın görünür.

Tarixən ədəbi dilimizdə işlək olmuş və *1.bərk, uca; 2.möhkəm, ağır bərk; 3.simic, xəsis, bərk* mənalarını verən *qayım* sözü XX əsrin əvvəllərində işləkliyini qoruyub saxlamışdır. Bu söz *olmaq* köməkçi sözü ilə birləşərək *artmaq, çoxalmaq* mənasını verən *qayım olmaq* mürəkkəb feilini yaratmışdır.

Qayınanaya qarşı kin və qərəz hissləri qayım olurdu [88, s.337].

Qantəmirin dialekt leksikasında elə nümunələr var ki, onların izahına elmi dialektoloji mənbələrdə rast gəlmirik.

Gecədən çox keçirdi. Söhbətlər daha da artır və nevləşirdi. Hətta bir aralıq Zəhra xala ilə Telli xanımın söhbəti çəp düşdü [88, s.314].

Bunlar hələ də qapının içində dayanıb pirtdəşirdilər [83, s.262].

Bu qışqırıq, bu fəgan istirahət gecəsinin bitməsinə görə ürəklərindən qopan matəm giryələrimi? [88, s.45].

Bu cümlələrdə qeyd olunmuş sözlərə nə dialektoloji, nə izahlı, nə də ərəb və fars sözləri lüğətində təsadüf olunur. Müəllifin xalq danışıq dilinin müxtəlif areallarından bədii mətnə gətirdiyi bu sözlərin semantikası yalnız onların tekstoloji

şərhində aydınlaşır. Bu şərh zamanı *nevləşmək* sözü müxtəlif növ söhbətlərin bir-birini əvəz etməsi mənasını verir. Xalq danışıq dilində *öv* səs birləşməsinin *ev* formasında işlənməsi təcrübəsi vardı. Bu təcrübəyə əsasən demək olar ki, *nevləşmək* sözünün kökü *növ* kəlməsinin fonetik dəyişikliyə uğramış formasıdır. Tekstoloji tədqiq zamanı *nevləşmək* sözünün müxtəlif növ söhbətlərin bir-birini əvəz etməsi mənasında işlənməsi güman edilir. Fikrimizcə, bu söz fonetik dəyişikliyə uğrayaraq *növ*dən *nev* şəklinə düşmüşdür.

Pirtdəşirdilər sözünün isə ümumiyyətlə, ədəbi dillə əlaqəsi görünmür. Bu söz dialektoloji lüğətlərdə öz əksini tapmasa da, diqqət yetirsək, görərik ki, mətndə özü-özünə *mübahisə etmək* mənasını verir.

Giryələrimi sözünün isə tekstoloji şərhində *ah-nalə* semantikası aşkarlanır.

Tarixi-linqvistik tədqiqatlar üçün maraq doğuran sözlərdən biri də *aralıq* sözüdür.

Bir aralıq geri döndü, əlini yuxarı qaldırdı [88, s.280].

Maraqlı faktdır ki, bu sözə Azərbaycan dilinin izahlı və dialektoloji lüğətlərində fərqli anlamlarda rast gəlinir: Qazax və Şəmkir dialektlərində *1. Hər tərəfi su ilə əhatələnən quru yer; 2. mərz, iki zəminin, iki evin arası;* Çənbərək şivəsində isə kənddə adamların yığışıb söhbət etdikləri *xüsusi yer* anlamını daşıyır. Azərbaycan dilinin izahlı lüğətində *aralıq* sözü iki şey arasındakı boşluq, boş yer kimi izah olunmuşdur. Qantəmirin dilində *aralıq* sözü bu anlamlardan heç birini vermir. Sözü tekstoloji səviyyədə tədqiq etdikdə onun bir sözü ilə birləşərək bir an mənasını ifadə etdiyini görürük.

İncəvara anası da evdə yox idi [88, s.190].

İncəvara kəlməsi qərb qrupu dialekt və şivələrində geniş işlənir və ədəbi dilimizdə *yaxşı ki* modal sözünün ifadə etdiyi semantikanı bildirir.

At var, mal var, faraşdan durub farağatlamaq lazımdır [88, s.46].

Tovuz, Nuxa, Laçın dialektlərində *faraşdan* sözü *erkən* mənasında işlənir.

Qantəmirin əsərlərində leksik dialektizmlərlə yanaşı morfoloji dialektizmlərə də rast gəlirik.

O qədər əsəbiləndi [88, s.266].

Əsəbiləşmək sözündə sifətdən feil düzəldən -*ləş*[2] şəkilçisinin -*lən* formasında tələffüzü Şirvan dialektinə xasdır.

Qantəmirin dialekt leksikasının tədqiqindən bu qənaətə gəlmək olur ki, yazıçının dilində elə sözlər işlənmişdir ki, indiyə qədərki dialektoloji tədqiqatlardan və lüğətlərdən kənarda qalmışdır. Bu səbəbdən onun dialekt leksikasını öyrənmək Azərbaycan dilinin leksik ifadə imkanlarını açmaq baxımından maraq doğurur.

Dialektizmlərin bədii əsərdə işlənməsi onların kütləvi anlaşıqlıq qazanmasına, bəzən ədəbi dil faktına çevrilməsinə gətirib çıxardığı kimi, surətlərin səciyyələndirilməsində mühüm əhəmiyyət kəsb edir. Qantəmir yaradıcılığında yalnız obrazların nitqində deyil, müəllif təhkiyəsində də şivə sözlərindən istifadə edilsə də, bu onun əsərlərinin dilini ağırlaşdırmamış, anlaşıqlığına xələl gətirməmişdir. Belə ki müəyyən situasiyanın poetik ifadəsini verən bu mətnlərdə dialektizmlər ədəbi dil faktları içərisində öz semantikasını oxucuya izah edə bilir.

Qantəmir tərəfindən işlədilmiş - *qahmar* (Qazax, Salyan, Şəmkir, Tovuz dialektlərində tərəfdar), *xəşdəkələmək* (Qax, Qazax, Şuşa dialektlərində səpələmək, eşələmək), *vara-vurd etmək* (Ağdam, Bərdə dialektlərində götür-qoy etmək, fikrən ölçüb-biçmək), *soqqur* (Zaqatala şivəsində-arıq), palan (Bakı, Salyan ləhcələrində küçə), *yançı* (Quba, Oğuz dialektlərində kənar adam), *şotur* (Ağdam, Bərdə, Şərur, Şura dialektlərində dırnaqda əmələ gələn xəstəlik), *çağlı* (Salyan dialektində qədər), *təkimləməx* (Tovuz dialektində mahmızlamaq) və s. kimi dialektizmlər yazıçının xalq danışıq dilinə yetərincə bələd olduğunu göstərir.

XX əsrin 20-30-cu illər bədii ədəbiyyatında işlənən bu kimi söz və ifadələrin öyrənilməsi dialekt leksikasının dilin daxili imkanları hesabına zənginləşməsində əsas mənbə olduğunu sübut edir, dialekt leksikası ilə ədəbi dil arasındakı qarşılıqlı əlaqənin inkişafında əhəmiyyət daşıyır.

1.4. Qantəmir yaradıcılığında arxaizmlər

Məlumdur ki, dilin inkişaf prosesini izləmək və bu prosesin qanunauyğunluqlarını öyrənmək baxımından bədii mətnlər ən etibarlı və yararlı

mənbədir. Dil vahidlərini bədii üslubda müxtəlif yön və istiqamətlərdə izləmək mümkündür. Xüsusilə də dilin leksik qatının öyrənilməsi üçün bədii ədəbiyyat zəngin material verir. Azərbaycan dilçiliyi üçün belə mənbələrdən biri də XX əsrin 20-30-cu illərində yazıb-yaratmış Qantəmir yaradıcılığıdır. Ədibin, əslində, o qədər də böyük həcmə malik olmayan bədii irsi dil faktlarının öyrənilməsi üçün zəngin material verir. Qantəmir yaradıcılığı tarixi dövrləşmə baxımından elə bir zaman kəsiyinə təsadüf edir ki, cəmiyyət yeni ictimai-iqtisadi formasiyaya daxil olmuşdu. Yeni ictimai-siyasi quruluşun gəlişi bütün sferalarda olduğu kimi, dildə də dəyişiklik və yenilənmələrlə müşahidə olunurdu. Bu dönəmdə yeni quruluşun gətirdiyi yeni anlayışların ifadəsi üçün Azərbaycan türkcəsinin leksikasına yeni sözlər daxil olduğu kimi, yeni quruluşun köhnəltdiyi anlayışları ifadə edən sözlər də dildən çıxır, daha doğrusu, dilin arxaik qatına oturur, dilin lüğət fondunda fəal leksikadan qeyri-fəal leksikaya keçirdi. Arxaik sözlər canlı danışıq dilində istifadə edilməsə də, dilimizdən tamamilə silinmir, tarixi leksik təbəqənin dil vahidləri kimi özünəməxsusluğunu qoruyub saxlayırdı.

Ş.Yunusova arxaik leksikanın dildə yeri haqqında yazır: *"Bir qrup arxaizmlər nə müasir ədəbi dildə, nə folklorda, nə dialekt və şivələrdə, nə də qohum dillərdə, demək olar ki, heç bir iz qoymadan unudulmuşdur. Belə arxaizmlərin mövcudluğu yalnız qədim yazılı abidələrdə işlənməsi ilə təsdiq olunur. II qrup arxaizmlər milli ədəbi dildə mövcud olmasa da, digər türk dillərində öz varlığını qoruyub saxlaya bilmişdir. Belə arxaizmlər ümumtürk deyil, areal xarakterli arxaizmlərdir. III qrup arxaizmlər ədəbi dil üçün leksik müstəqilliyini itirsələr də, qoşa sözlərin və ya törəmə sözlərin tərkibində bəzi ifadələrdə qalmaqdadır. IV qrup arxaizmlər mənanın köhnəlməsi və ya dəyişməsi nəticəsində arxaikləşərək semantik arxaizmə çevrilmişdir. Nəhayət, V qrup arxaizmlər dialekt səviyyəli olub, ədəbi dildə işləklikdən qalsa da, dialektlərdə yaşamağa davam edir. Belə arxaizmləri dialektizmlər cərgəsində axtarıb tapmaq xüsusi linqvistik araşdırma tələb edir"* [124, s.9].

Azərbaycan türkcəsinin arxaik qatının yaxın keçmişdə - XX əsrin əvvəllərində araşdırılması üçün Qantəmir yaradıcılığı material verən mənbədir. Məlumdur ki,

Qantəmir nəsr janrında yazıb-yaratmışdır. Nəsr isə digər janrlarla müqayisədə daha əhatəli lüğət tərkibinə malikdir və burada söz daha çox informativ mənada işlənir. Arxaik sözlər isə əsasən, mətn daxilində informativ funksiyanı yerinə yetirdiyindən nəsr əsərlərində daha çox işləklik qazanır.

Dilin ümumi inkişaf prosesində arxaikləşmiş leksika Qantəmir yaradıcılığında özünü iki istiqamətdə göstərir: bu əsərlərin yarandığı dövr üçün arxaik leksika və müasir dilimiz üçün arxaik leksika. *"Arxaizmlər arxaikləşmə dərəcəsinə görə də bir-birindən fərqlənir. Məlumdur ki, arxaikləşmə dərəcəsi dilin müasir vəziyyətinə əsasən müəyyənləşir"* [124, s.9]. Yazıçının nəsrində müasir dil səviyyəsində arxaik hesab olunan sözləri bir neçə qrupa bölmək olar.

Birinci qrup köhnəlmiş sözlər Qantəmirin yaradıcılığına dövrün tarixi anlayışlarını bildirmək üçün daxil olmuşdur. Məsələn:

İcrari kamitet də, necə ki, köhnə <u>yüzbaşı</u> kəndlərdə və köhnə <u>pristav</u> uçaskolarında vəzifədə sayılmaq... [88, s.181].

H... bəy mənimlə görüşdü, evinə qonaq apardı, bir gecədə <u>qubernatorun</u> müavini onlarda qonaq idi, məni də tanış etdi [88, s.107].

Bu cümlələrdə işlənmiş, *qubernator, yüzbaşı, pristav* sözləri çar üsuli-idarəsində vəzifə adları olduğundan sovet idarəçiliyində öz funksionallıqlarını itirmiş və ona görə də Qantəmir yaradıcılığına tarixizm kimi daxil olmuşdur.

Onu da qeyd edək ki, Qantəmir dilimizin arxaik bazasına yalnız müəyyən tarixi anlayışların bədii mətnə gəlməsi şərtləri daxilində müraciət etməmişdir. Onun dilində qədim türk dilinə daxil olan, XX əsrdə isə artıq öz işləkliyini itirən sözlərə də rast gəlirik.

Sizin fikriniz Ordubad <u>ərənlərinə</u> getməsin [88, s.307].

Müasir dilimizdən baxanda arxaik görünən ölçü leksikasını Qantəmir nəsrində hələ dilin aktiv bazasında görürük.

Hər il <u>tağar-tağar</u> buğdası, <u>xalvar-xalvar</u> düyüsü, <u>küp-küp</u> yağı olurdu [88, s.228].

Peşimansan azarlının gətirdiyi iki <u>girvəngə</u> yağı qəbul edəsən [88, s.312].

...Dünən bir çetvər Qarabağ pendiri alıb yemişəm, zalım oğlu iki çetvər duz qatmışdı ki, pendir ağır gəlsin [88, s.21].

Xalvar 25 puda, yəni dörd yüz kiloqrama bərabərdir. Məişətimizdə işlədilən, əsli xərvar olan xalvar sözünün əslində mənası "bir uzunqulaq yükü" deməkdir. (*xər* fars sözü olub uzunqulaq mənasını verir).

Tağar ağzı geniş, böyük torpaq küp deməkdir. Hazırda tağar ölçü vahidi arxaik leksikaya keçsə də, tarixi mənbələrə əsasən demək olar ki, Azərbaycanda orta əsrlərdə tez-tez işlədilmişdir. Bu ölçü vahidi əsasən dənli bitkilərin çəkisini göstərmək üçün istifadə olunmuşdur.

Küp duru maddələri saxlamaq üçün çox işlədilən bir qab formasıdır.

Girvənkə dörd yüz qrama bərabər çəki ölçü vahididir. Tarixən girvənkə sözü əsasən ərzaqları ölçmək üçün istifadə edilmişdir.

Çetvər isə yüz qramlıq çəki vahididir. Xalq dilində belə bir ifadəyə də rast gəlinir: Bir çetvər dilini qoyub, bir batman başını niyə tərpədirsən? Yəni mənası yüngül çəkili dillə danışmaq əvəzinə, dildən ağır çəkili başı tərpətməklə cavab vermək deməkdir. Belə ki *batman* girvənkədən böyük çəki vahididir.

Yazıçının nəsrində ikinci qrup leksika, əsasən, sosializm ictimai-iqtisadi formasiyanın başlanması ilə dilə daxil olmuş, onun bitməsi ilə isə dildən çıxmış sözlərdir. Onu da qeyd edək ki, dilimizin lüğət tərkibinin bu qeyri-fəal fondu Qantəmir yaradıcılığında fəal şəkildədir. Məsələn, ədibin “Kolxozstan” povestində bu tip sözlər yetərincədir.

Kolxozun üstündə bizim kəndin var-yoxunu satıb yığasan, yenə bura su çıxarmaq mümkün deyil [88, s.56].

Kolxoz sözü XX əsrin iyirminci illərində kəndlərdə dövlət sahibkarlığı ilə yaradılmış kollektiv təsərrüfatı bildirən söz kimi Azərbaycan dilinə daxil olur, əsrin ortalarına doğru dildə işləklik qazanır, əsrin sonlarında isə sovet hökumətinin dağılması ilə əlaqədar olaraq dildə işləkliyini itirir. Ədibin yaradıcılığında bu tipoloji bölgüyə uyğun gələn sözlər mənşə etibari ilə alınmadır. Məsələn,

Bolşeviklər gələndən sonra hər şey dəyişdi, xalam da, Məşədi Nəcəf də, Zeynəb də dəyişdi [88, s.212].

Kolxoz, bolşevik sözləri rus mənşəlidir.

Qantəmir yaradıcılığı elə bir dövrə təsadüf edir ki, bu dövrdə dilimizdə milliləşmə ilə yanaşı həm də qərbləşmə prosesi gedirdi. *"Uzun müddət ərəb və fars dillərinin təsirinə məruz qalan Azərbaycan dili XIX əsrdən başlayaraq rus dilinin ciddi əhatəsinə düşür"* [1, s.15]. Bu əhatə XX əsrdə daha da güclənmişdi. Bu prosesdə ərəb və fars mənşəli sözlərin rus və Avropa mənşəli sözlərlə əvəzlənməsi tendensiyası özünü göstərirdi. Məsələn, ədəbi dildə işlənən *darülfünun, mühərrir* kimi sözlər *universitet, jurnalist* kimi beynəlmiləl sözlərlə əvəzlənirdi. Həmin prosesin getdiyi zaman kəsiyində dayanan Qantəmirin nəsrində bu tip sözlərin ərəb-fars variantı işlənmişdir.

Şura sədrinə və Zeynəbə üzünü tutaraq dedi [88, s.93].

Məşədi Fərəcin oğlu Ağa Rəhimin iki arvadı olduğuna görə firqədə qalması düzgün olmayırdı [88, s.235].

Məlumdur ki, ədəbi dilimizdə *şura və firqə* sözləri *sovet və partiya* sözləri ilə əvəzlənmişdir. Bu əvəzlənmənin səbəbi dilçilik ədəbiyyatında belə izah olunur:

"Haqqında bəhs olunan, adı çəkilən əşya və ya hadisə müasir həyatda mövcuddur, lakin o özünün əvvəlki adı deyil, başqa bir adla (söz ilə) ifadə olunur. Belə bir prosesin getməsinə başlıca olaraq iki səbəb vardır. Birinci səbəb beynəlmiləl sözlərin daha çox məqsədəuyğun olması, yayılmasıdır. Məlumdur ki, sovet, partiya, proletariat kimi sözlərin dünya miqyasında işlənmə dairəsi daha genişdir. Bu sözlər beynəlmiləl xarater daşıyır. Buna görə də əvvəllər bu məfhumları ifadə edən şura, firqə, füqərayi-kasibə sözləri arxaikləşmişdir. İkinci səbəb məzmunun, mənanın daha da tam və dəqiq ifadə edilməsidir. Üçüncü səbəb vaxtı ilə bir sıra əcnəbi sözlərin ehtiyac olmadan, lüzumsuz yerə dilimizə daxil edilməsidir" [6, s.228].

Qantəmir nəsrində işlək olan, bu gün isə dilimizin arxaik bazasına oturan leksika yalnız siyasi, inzibati terminologiyadan ibarət deyil. Dövrün ümumişlək dil bazasında olan leksik vahidlərə də rast gəlirik. Məsələn, yazıçının dilində *xəstə* sözünün arxaik variantı olan *azarlı* sözü işləkdir.

-*Bacıoğlu, azarlı olan evin qapısını açmaq yaxşı deyil* [88, s.224].

Məlumdur ki, müasir Azərbaycan türkcəsində digər nitq hissələrindən fərqli olaraq feillər milli mənşəyinə görə üstünlük təşkil edir. Bu nitq hissəsinin özündə də arxaikləşmə prosesi zaman-zaman getmişdir. *"Dilin müasir vəziyyətində feilin semantik strukturu, qrammatik quruluşunun orijinallığı, ünsiyyətin təşkilindəki rolu və s. əlamətləri tarixi leksikada da müşahidə olunduğuna görə hal-hərəkət məzmunlu sözlər arxaikləşməyə məhdud sayda məruz qalmışdır"* [130, s.143].

Qantəmirin yaradıcılığında da, demək olar ki, dilimizin arxaik bazasına məxsus hal-hərəkət bildirən sözlər, əsasən, alınma sözlərdir. Məsələn,

Bir ayrı ixtiyar Vasilinin fikrini <u>təsvib etdi</u> [88, s.139].

Təsvib etmək feilinə XX əsr nəsrində Y.V.Çəmənzəminlinin, Ə.Əbülhəsənin, M.İbrahimovun yaradıcılığında da rast gəlinir. Müasir Azərbaycan türkcəsində isə bu feilin daşıdığı leksik məna milli mənşəli *bəyənmək* sözü ilə və yaxud *təsdiq etmək* mürəkkəb feili ilə ifadə olunur.

Müsyö Qamel ingilis konsulxanasında özünə <u>təxsis edilən</u> otaqda istirahətə çəkildi [88, s.115].

Təxsis etmək feili isə müasir dilimizdə milli mənşəli *ayırmaq* feili ilə əvəzlənmişdir.

Onun bu müəmmalı təklifinə ilk əvvəl Sadıq <u>icabət etdi</u> [88, s.93].

Qantəmirin dilində işlənmiş bu feil yuxarıda göstərdiyimiz *təxsis etmək, təsvib etmək* feillərindən fərqli olaraq Azərbaycan dilində işlək olmamışdır. Belə ki *icabət etmək* feili ədəbi dilimizdə işlək olmuş arxaik feillərdən fərqli olaraq, Azərbaycan dilinin izahlı lüğətində öz əksini tapmamışdır. Bu feilə yalnız "Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti"ndə rast gəlirik. Bu lüğətdə *icabət etmək* feilinin daşıdığı semantik mənanın beş cür izahı verilmişdir: *1) cavab vermə; 2) icra etmə, yerinə yetirmə; 3) razılıq vermə, razı olma; 4) itaət etmə, tabe olma; 5) məmnuniyyətlə qəbul etmə* [13, s.293].

Qantəmirin dilində rastlaşdığımız arxaik feillər quruluşca mürəkkəbdir və bu feillər ərəb və fars mənşəli sözlərlə türk mənşəli *etmək* sözünün birləşməsindən yaranmışdır. Mürəkkəb feilin yaranışında bu model müasir Azərbaycan türkcəsi üçün

də xarakterikdir. Müasir leksikamıza daxil olan təşkil etmək, təsvir etmək, tələb etmək və s. kimi feillərin komponentlərindən birincisi alınmadır.

"Dilçilik ədəbiyyatında çox vaxt arxaikləşməyə sırf leksik bir kateqoriya kimi yanaşırlar. Əslində, arxaikləşmə çox geniş bir dil hadisəsi olub, dilin bütün laylarını – fonetika, leksika, semasiologiya, frazeologiya, qrammatik quruluş və sairi əhatə edə bilir" [124, s.35]. Daha sonra müəllif qeyd edir ki, görünür, bu hal arxaikləşmənin ən çox dilin leksikasında özünü göstərməsi ilə bağlıdır.

Tədqiqatçı gəldiyi qənaətdə haqlıdır. Bildiyimiz kimi, ədəbi dil fonetik, leksik və qrammatik normalara malikdir. Bu normalar içərisində ən tez tarixi dəyişikliyə məruz qalanı leksik normadır. Dilin fonetik və qrammatik sistemlərində isə bu proses nisbətən zəif şəkildə gedir. Qantəmir yaradıcılığını müasir dövrdən bu proses üçün qısa bir zaman ayırdığından bu məqamlarda arxaikləşmə hadisəsinə çox az rast gəlinir.

Qrammatik arxaikləşmə yazıçının dilində, əsasən, izafət birləşmələrində özünü göstərir. Bu birləşmələr müasir Azərbaycan dilinin qrammatik normaları üçün köhnəlmiş faktlardır. Məlumdur ki, izafət tərkibi ərəb və fars dillərinin sintaktik qanunauyğunluqları əsasında yaranır. Bu dillərə mənsub leksik vahidlərdən fərqli olaraq, o, Azərbaycan türkcəsində həmişə yazılı ədəbi dildə işlənmiş, şifahi dilə keçə bilməmiş, yəni dilimizdə tam vətəndaşlıq hüququ qazanmamışdır.

Yazıçının nəsrində elə izafət tərkiblərinə rast gəlirik ki, onlar dilimizdə nisbətən sabitləşmiş birləşmələrdir. Daha doğrusu, leksikləşmiş ifadələrdir.

Çərxi-fələyin qəza və devranı bir aralıq onu Bakıya atdı [88, s.234].

Nə qədər timsal və zərbi-məsəl eşitsəniz, uşaqlarınıza deyin dəftərlərinə yazsınlar, sonra baha qiymətə satarlar [88, s.227].

Qantəmir yaradıcılığında izafət tərkibləri, adətən, çox işlənən birləşmələrdən ibarətdir. Onlar sərbəst formada müəllif nitqinin məhsulu kimi bədii mətnə daxil olmuşlar.

Oxucu qadınlar bundan özlərinə hisseyi-təhqir çıxarmasınlar [88, s.273].

Onu da qeyd edək ki, izafət tərkibi hələ XX əsrin ortalarına qədər dilin passiv lüğət fonduna keçməmişdi, amma dildə öz işləkliyini müəyyən dərəcədə qoruyub saxlayırdı.

XX əsrin otuzuncu illərində - milliləşmənin dilimizdə güclü şəkildə getdiyi bir zamanda hətta bu prosesin ən fəal iştirakçısı Səməd Vurğun yaradıcılığında belə izafət tərkibləri işlənmişdir. Onun "Vaqif" dramında belə bir nümunəyə nəzər salaq:

Ey şahım, Ey <u>fəxri-vətən!</u>

Sizin yolunuzu gözləyirik biz [123, s.91].

Burada işlənmiş *fəxri-vətən* izafət tərkibi *vətənin fəxri* üçüncü növ təyini söz birləşməsinin arxaik formasıdır.

Ümumiyyətlə, izafət birləşmələri dilimizdə fars və ərəb dilləri sintaksisinin bir növ atributu olmuşdur. XX əsrdə hələ də izafət tərkiblərindən istifadə Azərbaycan türkcəsində milliləşmə prosesini ləngidirdi. Ancaq o dönəmdə xalq danışıq dilinə keçə bilməyən bu birləşmələrin ədəbi dildə milli qarşılıqları ilə əvəzlənməsi prosesi gedirdi. Bu prosesin getdiyi zamanda paralel işlənmə halları müşahidə olunurdu ki, biz buna Qantəmir nəsrində də rast gəlirik.

<u>Şəxsi-məchul</u> çayın-çörəyin pulunu verəndən sonra Cəfərquluya bu sözü demiş və ayağa qalxmışdı [88, s.207].

<u>Məchul şəxs</u> bunun fikrini başa düşdü [88, s.206].

Son yüz ilin hadisəsi kimi qrammatik arxaikləşmələr Qantəmirin dilində müasir qrammatik formalardan o qədər də uzaq görünmür. Müasir dilimizdə inkarlıq şəkilçisinin indiki zaman şəkilçisi ilə işlənərkən öz saitini itirməsi şifahi nitq hadisəsi olmayıb ədəbi dil norması kimi qəbul olunmuşdur. Qantəmir nəsrində isə bir heca daxilində qovuşuq formasına, demək olar ki, rast gəlinmir.

Şəhərdə çörək tapılmayırdı [88, s.137].

Evlərinə gedəndə bir gecədən artıq qala bilməyirdi [88, s.216].

Bu cümlələrdə feillərin tərkibində *-mı*[4] inkarlıq şəkilçisi ilə *-ir*[4] indiki zaman şəkilçisi *-y* bitişdirici samiti vasitəsi ilə bir sözün tərkibinə qoşulmuşdur. Müasir dilimizdə bu qrammatik forma artıq öz işləkliyini itirməsi uzaq zamanın hadisəsi olmadığından bu forma müasir oxucu üçün anlaşıqsız deyildir.

Digər qrammatik arxaikləşmə isə məkan anlayışı yaradan alınma *-xana* şəkilçisi ilə eyni anlamı yaradan milli mənşəli *-lıq*[4] şəkilçisi arasında müşahidə olunur. Məsələn:

Müsyö Qamel ingilis konsulxanasında özünə təxsis edilən otaqda istirahətə çəkildi [88, s.237].

Bu cümlədə konsulluğun yerləşdiyi yer rus və Avropa mənşəli *konsul* sözünə ərəb və fars mənşəli *-xana* şəkilçisi artırılmaqla düzəlib. Bu qrammatik formaya Cəlil Məmmədquluzadənin yaradıcılığında da rast gəlinir.

İran konsulxanasından şikayət və axırında imza qoyulub [88, s.41].

Müasir Azərbaycan dilində isə bu mənanın ifadəsi üçün həmin söz daxilində fars mənşəli *-xana* şəkilçisini türk mənşəli yer, məkan bildirən *-lıq*[4] şəkilçisi əvəz etmişdir.

Müasir Azərbaycan dilində ərəb mənşəli zərf düzəldən *-ən* şəkilçisi işləkdir və adlara artırılaraq tərzi-hərəkət mənalı zərflər düzəldir. Məsələn, ruhən, daxilən, cismən, qəlbən.

Qantəmirin dilində isə -ən şəkilçili elə tərzi-hərəkət zərflərinə rast gəlinir ki, onlar müasir Azərbaycan dilində öz işləkliyini itirmişdir.

Volodya bu sözləri hərfiyyən eşitmişdi, qorxa-qorxa baba Vasiliya yaxınlaşdı [88, s.139].

İclas müvəqqətən buraxıldı [88, s.76].

Dildə ən ləng və böyük dövrləşmələrlə gedən fonetik arxaikləşmə təxminən yüz il əvvəlin dili kimi baxdığımız Qantəmir yaradıcılığında, demək olar ki, müşahidə olunmur.

Yuxarıda qeyd etdiyimiz kimi, arxaikləşmə dilin yalnız leksikası üçün xarakterik olmayıb, onun müxtəlif qatlarında gedən prosesdir. Qantəmir yaradıcılığında da biz bunu müxtəlif laylarda müşahidə edirik. Onda leksik arxaizmlərin tədqiqi bizi bu qənaətə gətirir ki, ədəbi dilin lüğət tərkibində arxaikləşmənin getməsi özünü milliləşmə və beynəlmiləlləşmə faktı kimi göstərir. Belə ki Qantəmir nəsrində leksik arxaizmləri araşdırarkən görürük ki, ədəbi dilimizdə ərəb və fars mənşəli sözlər milli, rus və Avropa mənşəli sözlərlə əvəzlənmişdir. Dilin

qrammatik və fonetik normalarında arxaikləşmənin getməsi üçün isə uzun bir zaman kəsiyi lazımdır. Odur ki, Qantəmir yaradıcılığı ilə dövrümüzü böyük bir zaman kəsiyi ayırmadığından dilin bu qatlarında arxaikləşmə onun əsərlərində özünü ya göstərmir, ya da zəif şəkildə göstərir.

Tədqiqat işinin bu fəslində əldə edilən əsas elmi nəticələr "Qantəmir ədəbi və bədii dil haqqında", "Qantəmirin nəsr dilinin dialekt leksikası", "Архаизмы в творчестве Кантемира", "Qantəmir yaradıcılığında işlənən fonetik dialektizmlər", "Qantəmirin nəsr əsərlərində dil məsələsi", "Qantəmirin nəsr dilində işlənmiş dialektizmlərin üslubi əhəmiyyəti", "Words belong to the Turkish Turkey in the prose language of Gantemir", "Qantəmirin nəsr dilində işlədilən ərəb və fars sözləri" məqalələrində öz əksini tapmışdır.

I FƏSIL. QANTƏMİRİN NƏSR DİLİNİN ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ

2.1. Qantəmir nəsrinin fonetik və morfoloji üslubi xüsusiyyətləri

Bədii mətnin üslubunun müəyyənləşməsində leksik vahidlərlə yanaşı, fonetik və morfoloji vahidlərin də rolu vardır. Fonetik və morfoloji üslubi xüsusiyyətlərin birgə öyrənilməsi onların müəyyən ortaq nöqtələrinin olması ilə bağlıdır. Belə ki istər fonetik, istərsə də morfoloji üslubi xüsusiyyətlər özünü fonetik hadisələr şəklində büruzə verir. Bu hadisələr sözdə yerindən asılı olaraq, üslubi xüsusiyyətlərini müəyyənləşdirir. Onlar söz köklərində fonetik-üslubi, şəkilçilərdə isə morfoloji-üslubi xüsusiyyət kimi özünü göstərir. A.Cəlilov yazır: *"Dilin fonetik və morfoloji quruluşunda gedən dəyişmələr bir-biri ilə sıx bağlı olduğuna görə bu iki qatın vahidləri əlaqəli şəkildə inkişaf edir*" [22, s.288].

Onu da qeyd edək ki, Azərbaycan dilində yaranan bədii əsərlərin poetik sistemində mətnin fonopoetikası əhəmiyyətli rol oynayır. Ona görə ki, *"Dilimiz öz fonetik imkanlarına görə bədii dil üçün ən yararlı dillərdəndir. Sait səslərin çoxluğu, eynicinsli səslərin bir-birini izləməsi zəminində yaranmış səs uyumu (ahəng qanunu) hadisəsinin və digər fonetik hadisələrin (uyuşma, fərqləşmə, səs düşümü, səs artımı və s.) varlığı, vurğu və intonasiya zənginliyi bu dildə gözəl bədii dil nümunələri yaratmağa imkan verir"* [38, s.122].

XX əsrin əvvəllərində Azərbaycan ədəbi dilinin fonetik normalarından danışarkən S.Sadıqova yazır: *"Ərəb əlifbasının qrafik imla ənənəsi də fonetik proseslərdə özünü göstərirdi. Fonetik səviyyəli dəyişmələrdə iki amil əsas rol oynayır: 1. Əlifba sistemi; 2. Dialekt və ümumdanışıq təsiri"* [113, s.123].

Qantəmir yaradıcılığı elə bir tarixi dövrə təsadüf edir ki, bu dövrdə dilimizin yazı sistemində ərəb qrafikasının minillik ənənəsi öz yerini latın qrafikasına verirdi. Yazı sistemində bu qrafik dəyişiklik, təbii ki, müəyyən fonetik hadisələrlə müşayiət olunurdu. Nəinki ərəb qrafikasının, ümumiyyətlə, ərəb şeir sənətinin ladlarının yazılı ədəbi dilimizə müdaxiləsi nəticəsində dilimizin orfoepik və opfoqrafik normaları arasında fərq nisbəti böyümüşdür. Latın qrafikası dilimizin səs sisteminin yazıda öz

əksini tapması üçün daha çox şans verirdi. Ancaq o da doğrudur ki, *"Dünyada elə bir yazı sistemi yoxdur ki, tətbiq edildiyi dilin bütün fonetik xüsusiyyətlərini özündə əks etdirə bilsin"* [98, s.12].

Məlumdur ki, Azərbaycan dilinin fonetikasında ən mühüm hadisə ahəng qanunudur. Ahəng qanunu sözdə eynicinsli səslərin bir-birini izləməsi hadisəsi üzərində qurulub. Bu hadisə özünü daha çox qalın və incə saitlərin ahəngində göstərir. Ərəb qrafikası dilimizdə sözlərin sait səs tərkibini yazıda bütün xüsusiyyətləri ilə əks etdirə bilmir. Məhz bu amilin təsiri nəticəsində yazılı dildə özünü göstərən fərqlər Qantəmir yaradıcılığında da müşahidə olunur. Onun dili öz demokratizminə, canlı xalq danışıq dilinin təsiri altında formalaşmasına baxmayaraq, bəzi məqamlarda söz onun əsərlərində dilimizdə qazanmış olduğu fonetik qabığında yox, ərəb dilinin qrafik formasında işlənmişdir.

Arvad tayifəsinin boğazında sirr qalmaz... [88, s.248].

Şərqi ziyarətə gələn avropalıların metodu ilə oxucuları aşinə etmək üçün bu siyahini burada qeyd edirəm [88, s.235].

Tayifə sözündə i səsartımı, *siyahi* sözündə ı >i, aşinə, *kəmal* sözlərində a >ə səsdəyişmələri müşahidə olunur. Bu sözlər dilimizdə *aşna, kamal, siyahı, tayfa* fonetik şəkillərini almışlar.

Ərəb qrafikasının və dilinin təsiri ilə baş verən fonetik dəyişmələr, əsasən, müəllif təhkiyəsində müşahidə olunursa, dialekt və ümumdanışıq dilinin təsiri ilə baş verən dəyişmələrə obrazların dilində rast gəlirik. Yazıçı onlardan obrazların nitqini tipikləşdirmək üçün istifadə etmişdir.

Onu da qeyd edək ki, Qantəmirin nəsri üçün ikinci hal daha xarakterikdir.

Ümumdanışıq təsiri ilə səsdəyişmələr müxtəlif məqamlarda müşahidə olunur.

1. Ərəb və fars mənşəli sözlərdə dilimizin ahənginin təsiri ilə qalın saitin incə saitlə əvəzlənməsi baş verir və nəticədə sözdə saitlərin ahəngi yaranır.

"...Guya bura müştərək bir baqqal dükənidir" [88, s.89].

Dükan fonetik formasına malik olan sözün ilk saitinin təsiri ilə sözdə dilönü saitlərin ahəngi yaranmışdır.

2. Rus və Avropa dillərindən alınmış sözlərin müxtəlifcinsli sait tərkibində dilin vəziyyətinə görə ahəng yaranır. Mənbə dildə *naçalnik* formasında olan söz öz səs qabığını dəyişərək şivələrimizdə *nəçərnik* formasına düşür.

Oğlum axırda oxuyub nəçərnik olacaq [88, s.177].

Bu tipli cümlələrə əsasən belə qənaətə gəlmək olur ki, xalq danışıq dili həmin sözləri daha çox incə saitlərin tələffüz ahənginə uyğunlaşdırır.

Sözün səs tərkibində saitlərin daha yaxın tələffüz formasını almaq hallarına milli sözlərdə də rast gəlinir. Bildiyimiz kimi, Azərbaycan türkcəsində ahəngin ən güclü olduğu məqam dilin vəziyyətinə görə saitlərin tələffüzüdür. Qantəmir obrazlarının dilində elə məqamlara rast gəlirik ki, sözün sait tərkibi yalnız dilin yox, həm də dodağın vəziyyətinə uyğun şəkil alır.

Xurcunun o biri gözündəki alma və bir qədər də payız armıdıdır [88, s.311].

Üzümü sabınlayıb ülgücü bir dəfə çəkdi [88, s.187].

Bu cümlələrdə *armıdıdır* və *sabınlayıb* sözlərində ı>u əvəzlənməsində saitlər dil və dodaq ahəngində uyğunlaşmışdır. Azərbaycan dilinin bir çox dialekt və şivələrində göstərilən səs əvəzlənmələri vardır.

Qantəmir obrazlarının nitqində xalq danışıq dilinin təsiri ilə dilimizin əsas qanununun - ahəng qanununun pozulması halları da müşahidə olunur:

-Əyağını götür, təbrizli Mirzə Heydəri çağır bir bura zəhmət çəksin [83, s.244].

Əyağ sözünün tərkibində a>ə əvəzlənməsi baş vermişdir və nəticədə dilimizdə ahəng qanununun ən güclü olduğu məqam dilin vəziyyətinə görə saitlərin ahəngi pozulmuşdur.

Ümumxalq danışıq dilində rast gəlinən *ö-e* əvəzlənməsi ədibin əsərlərindəki obrazların nitqi üçün də xarakterikdir:

İşlərin baş-ayaq olmasını, devranın tərsinə dönməsini yaxşı görürəm [88, s.287].

Evladının, özünün və bütün müsəlman qardaşlarının xoşbaxtlığına səbəb olan hökumətimi əldə saxlamalı? [88, s.322].

Ümumxalq dilinin təsiri ilə fonetik dəyişmələr özünü samit səslərdə də göstərir. Məsələn, g>y əvəzlənməsi:

Əyər dəyirman sahibinin qəsdi olsaydı, dəyirman işlədə bilən onlarca adam yetişdirərlərdi.. [88, s.90].

Bu cümlədəki *əyər* sözündə g-y əvəzlənməsi (əgər-əyər) nəzərə çarpır. Şərq qrupu dialekt və şivələrində bu əvəzlənməyə daha çox rast gəlinir: *düyü//dügü, iyirmi//igirmi, iynə//ignə* və s.

Qantəmir nəsrinin fonetik üslubi xüsusiyyətlərində yalnız ümumxalq danışıq dilinin deyil, həm də loru danışıq dilinin izləri vardır.

Bu saat deyim: adı Mirzə Ələkbər, şəhərdəki (...) nümrəli dükənin müdir müavini, özü də, iyirminci ildən firqəçi! [88, s.35].

Loru danışıq şəkli, xüsusilə, rus və Avropa mənşəli sözlərdə özünü göstərir.

Armıdı balnisanın eşiyindən dəribdir... [88, s.311].

Pajalısta!. Əgər mütaliə edirsən, biz nərdi oynamayaq! [88, s.83].

Hamısı qalsın kənarda, dur Fitilbörknən Moskvanı vur bir-birinə... [88, s.229].

Olsun qolxozistan !..[88, s.92].

Mirzə, bağışla, vaxtsız gəlib Nikolay qazağı kimi başıma bəla olubsunuz... [83, s.38].

Başına dönüm, gömürnata ərizə ver [88, s.205].

...Qartof tökmürsən, tökürsən şabalıd, belə dadlı olur ki... [88, s.278].

Rus və Avropa sözlərinin bu cür kəskin fonetik dəyişmələrlə tələffüzü Qantəmir nəsrində, əsasən, bisavad, cahil obrazların dilində işlənir və komik effekt yaradır.

Əvvəlki fəsildə də qeyd etdiyimiz kimi, Qantəmir nəsrində zəngin şivə xüsusiyyətlərinə rast gəlinir. Bu xüsusiyyətlər, eyni zamanda, özünü dilin fonetik qabığında da göstərir:

Allah bu iki yarı bir-birinə qavışdırsın [88, s.42].

Qapısında bircə inəyi olseydi, dünyada dərdi olmazdı [88, s.323].

... Tapdığın başı yarılmaseydi də, Aybikə xala ilə Zəhrabəyim xanımın arası tez-gec pozulacaqdı [88, s.319].

Qantəmirin nəsr dilinin canlılığını yaradan məqamlardan biri də morfoloji-üslubi vasitələrdir. Onun nəsr dilinin fərqlənməsində əsas rolu xalq danışıq dilinə məxsus morfoloji xüsusiyyətlər təşkil edir. Məlumdur ki, xalq danışıq dilinin canlılığını yaradan başlıca məqam şəkilçilərin ixtisarıdır. Qantəmir nəsrində biz yazıçının bu məqamlardan məharətlə istifadə etdiyini görürük. Şəkilçilərin ixtisarı onun nəsrində fikrin elliptik ifadəsinə səbəb olur. Məsələn:

Bütün nəbatatı tədqiq etməli [88, s.131].

Onların ruhuna uyğun yazılar yazmalı [88, s.131].

Kənd yeridir, kim-kimə? [88, s.96].

Göründüyü kimi, obraz nitqindən olan bu cümlələrdə müəllif üslubi məqsədlə xəbərlik şəkilçilərini ixtisar etmişdir.

Məlumdur ki, Qantəmir yaradıcılığı dilimizin elə bir inkişaf dönəminə təsadüf edir ki, Azərbaycan dilinin morfoloji sistemində variantlılıq, qeyri-sabitlik halları özünü göstərirdi. Danışıq dilinin morfoloji xüsusiyyətləri ədəbi normalarla paralel şəkildə işləkliyə malik idi. Onun nəsr dilində də bu xüsusiyyətlərə rast gəlinir. Bu xüsusiyyətlər yazıçının nəsrində özünü, adətən, morfoloji pleonazm və morfoloji qənaət hadisələri şəklində göstərir.

Danışıq dilində nitqin çevikliyini, hərəkətliliyini yaradan morfoloji qənaət hadisəsi əksər məqamlarda ədəbi dildə oturuşmuş, normaya çevrilmiş dil aktıdır. Ancaq morfoloji pleonazm isə qeyri-səlist qrammatik forma olduğundan və loru danışıq yaratdığından ədəbi dil üçün xarakterik deyil.

Bunu öyrənmək üçün ayağımı saxladım [88, s.248].

Ədəbi dildə *ayaq saxlamaq* frazeoloji ifadəsində şəxs kateqoriyası özünü feildəki şəxs sonluğunda göstərir. Ancaq gətirdiyimiz nümunədə bu kateqoriya birləşmənin birinci tərəfində - isimdə də mənsubiyyət şəkilçisi vasitəsi ilə öz ifadəsini tapmışdır. Eyni birləşmə daxilində bir kateqoriyanın iki dəfə işlənməsi heç bir qrammatik və ya semantik funksiyaya malik olmadığından qeyri-səlislik yaradır, nitqi lorulaşdırır. Nitqin bu cür loru forması Qantəmir obrazlarının xarakterinə uyğun vasitələrdəndir.

Pleonazm (*Yunanca artıqlıq deməkdir. Termin iki mənalıdır. 1. Eyni məhfumun başqa-başqa dil vahidləri ilə təkrarı, 2. Eyni tərkibli sinonim dil vahidlərinin toplusu, üslubi artıqlıq)* hadisəsinin frazeoloji birləşmə daxilində mənsubiyyət kateqoriyasında ifadəsinə "Mirzə Aves" hekayəsində də rast gəlirik.

Ayağını götür, təbrizli Mirzə Heydəri çağır bir bura zəhmət çəksin [88, s.244].

Əyağını götür birləşməsində əmr şəklində işlənən feildə şəxs sonluğunun yoxluğu onun ikinci şəxsin təkinə aid olduğunu bildirdiyi halda, birləşmənin birinci tərəfində olan isim ikinci şəxsin təkinin mənsubiyyət şəkilçisini qəbul etmişdir.

Qantəmirin əsərlərində bu qrammatik formanın periodik işlənməsi onun dövrün danışıq dili faktı olduğunu göstərir.

Yazıçının dilində müasir ədəbi dilimiz üçün işlək və ya xarakterik olmayan söz yaradıcılığı elementlərinə də rast gəlirik.

Ətrafda doqquz yaşar bir qız uşağı papiros satırdı [88, s.275].

Müasir ədəbi dilimiz üçün isimdən sifət yaradan *-ar* şəkilçisi işlək deyil, bu semantika bu sözdə özünü *-lı* şəkilçisi vasitəsi ilə ifadə edir.

Ədəbi dilimiz üçün feildən sifət yaradan *-ar* şəkilçisi işləkdir və biz onu *axar, yanar* sözlərində görürük. Qantəmirin nəsrində isə o *yatmaq* feilinə qoşularaq sifət yaratmışdır:

-Mirzə, bağışlayacaqsan, plovu axşama bişirsinlər, demişəm, hərçənd şəhər əhli yatar qarına çox da xörək yeməz, amma bu dəfə belə olsun [88, s.97].

Füzulinin qəzəllərində də həmin modelə uyğun olaraq *axar su* ifadəsi işlənir.

Qantəmir yaradıcılığında fars mənşəli sifət düzəldən *-anə* morfemi *tacir* isminə qoşularaq sifət yaratmışdır və bu söz Azərbaycan dilinin lüğət bazasında müşahidə olunmur.

Usta Kərimin "bir yaxşı qızı" olduğunu öyrəndikdən sonra, elçi intixabını da taciranə düşünmüş və onun qonşusu bağban Haşımı göndərmişdi [88, s.328].

Sintaktik-morfoloji yolla yaranmış sözlərə təsadüf edilir. Məsələn, "Sara bibi" hekayəsində *devrhadevr* sözündə özünü göstərir.

Sintaktik yolla söz yaradıcılığı prosesində qeyri-ədəbi dil formalarına da rast gəlinir.

Daha burada dolama-dolaşıq sözlərin mənası yoxdur.

Ədəbi dilimizdə *dolam-dolaşıq*, Qantəmir nəsrində isə *dolama-dolaşıq* şəklində olan sözün qarşılıqlı müqayisəsində *-a* foneminin yaratdığı fərq fonetik yox, morfoloji hadisədir. Bu mürəkkəb sözlərin birinci tərəfləri olan *dolam* və *dolama* sözləri dilimizdə müstəqil sözlər olub, təxminən eyni semantikanı ifadə edir. Bu mürəkkəb sözlərin birliyi fərqli semantika yaratmasa da, fərqli morfoloji-sintaktik forma yaratmışdır.

Qantəmirin nəsrində mürəkkəb sözün xalq danışıq dilindən gələn, müasir ədəbi dilimiz üçün xarakterik olmayan şəkillərinə də rast gəlinir.

Xanım Əminə yumru-yosmalaq və lap uzaq başı on altı yaşında təzəcə bir gəlindir [88, s.276].

Bu mürəkkəb sifətin yaranmasında iştirak edən *yosmalaq* sözü müasir ədəbi dilimizdə işlənən *yosmaraq* sözünün fonetik variantıdır. *Yumru* sözünün verdiyi *köklük*, *yosmalaq* sözünün isə verdiyi *bəstəboyluq* anlamını bir leksem daxilinə toplayan bu söz müasir ədəbi dilimizdə öz yerini tapmasa da, yazıçı üslubu üçün uğurlu qrammatik və semantik formaya malikdir.

Qantəmir nəsrinin morfoloji sisteminə diqqət etdikdə, onda tarixi morfoloji formaları da görürük. Canlı danışıq dilində *ilə* qoşması sözə y bitişdirici samitinin vasitəsi ilə şəkilçiləşərək bitişdiyi halda, Qantəmir dilində onun sözə bütöv şəkildə qoşulduğunu görürük:

*Geniş və uzun bir xiyabanın içəris**ilə** gedirdik* [88, s.94].

*Cərgə ilə əkilmiş köhnə və qoca üzüm ağaclarının aras**ilə** gedirdik* [88, s.94].

Tarixi morfologizmlər Qantəmir dilində özünü feilin əmr şəklinin II şəxs cəmində də göstərir.

-Bağışlayınız... Mən o məqsədlə demədim [88, s.89].

-Bəsdir... bəsdir... az qoyunuz... [88, s.97].

-Hə, indi irəli oturunuz, Mirzə!.. -dedi.

Feilin əmr şəklinin II şəxs cəminin *-ınız* şəkilçisi vasitəsi ilə ifadəsi klassik bədii mətnlərin dilində işlək olub, tarixilik qazanmış normadır [117, 177]. Ədəbi dilimizin tarixi norması olan bu şəkilçidən Qantəmir nəsrində qeyri-satirik üslubda

yazılmış, xalq danışıq dili elementlərinin digər əsərlərlə müqayisədə nisbətən zəif olduğu "Kolxozıstan" povestində istifadə olunmuşdur.

-çi şəkilçisinin *kənd* sözündə yaratdığı fərqli semantik-üslubi çalardan öz obrazının tipini səciyyələndirmək vasitəsi kimi istifadə etmişdir.

Mən olan meydançaya əvvəllər şəhər vağzalı tərəfindən gələn motalpapaq bir kəndçi çıxdı [88, s.264].

Qantəmir türk-osmanlı və fars dilinin imkanlarından da öz əsərlərində morfoloji-üslubi vasitə kimi istifadə etmişdir.

Gördüm Rəcəb gəliyor, hansı ki, mənim xalazadəmdir [88, s.187].

Müəllimin verdiyi tapşırığı yazan tələbənin *-yor* osmanlı, *-zadə* fars morfemlərindən istifadə etməsi onu göstərir ki, dövrün ədəbi dil müstəvisində milli və osmanlı, ərəb və fars paralelləri həm də morfoloji sistemdə mövcud idi.

Müəllimin bu cümləyə etdiyi düzəliş də göstərir ki, (*Gördüm bizim xalaoğlu Rəcəb gəlir)* müəllif bu paralelliyin osmanlı, fars variantından obrazın ədabaz xarakterini vermək üçün komik vasitə kimi istifadə etmişdir.

Qantəmir yaradıcılığı ədəbi dil və canlı danışıq dili paralelliyinin güclü şəkildə mövcud olduğu bir dönəmdə yarandığından onun morfoloji və fonetik sitemində də xalq danışıq dili elementləri güclüdür. Müəllif onlardan bəzən dilin normal aktı kimi, bəzən isə klassik ədəbi dil ənənələrinə uyğun olaraq istifadə etmişdisə də, çox zaman onlar Qantəmir dilinə müxtəlif bədii məqsədlərin həyata keçirilməsi, o cümlədən də komik effekt yaratmaq vasitəsi kimi daxil olmuşdur.

2.2. Qantəmirin nəsr dilinin leksik-üslubi xüsusiyyətləri

2.2.1. Qantəmir nəsrində ümumxalq dilinin izləri

Bədii mətn sözün üslubi xüsusiyyətlərinin ən qabarıq şəkildə aşkara çıxdığı yerdir. Dilin əsas vahidlərindən olan söz bədii üslubda daha çox informativ məzmunda işləndiyindən malik olduğu leksik-üslubi imkanları kifayət qədər büruzə verə bilir. "*Bədii dil ümumxalq dilinin ən gözəl nümunəsi onun daxili imkanlarının təcəssümüdür"* [12, s.3].

Aydındır ki, ədəbi dil sosiolinqvistik amillərin təsiri ilə müxtəlif zamanlarda müxtəlif mənzərədə olur. Odur ki Qantəmirin nəsr dilinin linqvistik təhlili onun leksikasının üslubi xüsusiyyətlərini araşdırmaq, Azərbaycan dilinin leksikoloji imkanlarını tarixi aspektdə öyrənmək və keçən yüz il ərzində gedən semantik dəyişiklikləri müşahidə etmək imkanı verir. *"Leksik üslubi-proseslər dilin varlığının əbədi yoldaşıdır. Öz dövrünün nitq axınında iştirakı olan və bu dildə danışanlar tərəfindən həmişə qavranıla bilinməməsinə baxmayaraq, o, bəşər tarixinin müəyyən mərhələlərində daha aydın görünür"* [135, s.314].

Qantəmir dilinin lüğəvi bazası yeni leksik normaların yarandığı XX əsrin iyirminci illərinin ədəbi mənzərəsi ilə yanaşı, həm də dövrünün xalq danışıq dilini əks etdirir. *"Məlum olduğu kimi, Azərbaycanın "sovetləşmə"sindən sonra Azərbaycan dilinin lüğət tərkibində müxtəlif tendensiyalar özünü göstərməyə başladı. Birinci tendensiya ondan ibarət oldu ki, xalq dilinin o zamana qədər qeyri-ədəbi sayılan leksikonu ədəbi ünsiyyətə maneəsiz nüfuz etməyə başladı"* [87, s.62].

Bu tendensiya özünü ilk olaraq bədii üslubda göstərdi. Çünki bədii üslub üslublar içində zəngin məna yükünə mənsub dil hadisəsidir desək, yanılmarıq. Bu üslub obrazlı, canlı dilə əsaslanır, ümumxalq dilinə yaxınlığına görə digər funksional üslublardan seçilir.

"Bədii dil ümumxalq dilinin ən gözəl nümunəsi, onun daxili imkanlarının təcəssümüdür" [12, s.3].

Bədii dil yalnız yarandığı dövrün ədəbi dil mənzərəsini deyil, həm də ümumxalq dilinin mənzərəsini əks etdirməyə qadirdir. Burada ədəbi dil normaları ilə ümumxalq dilinin sərbəstliyi üzvi bir vəhdətdə birləşir. Amma təbii ki bu vəhdət özbaşına baş vermir, o, yazıçının dilə yaradıcı şəkildə yanaşmasında yaranır. *"Bədii dil yazıçı üçün hazır şəkildə mövcud deyildir. O, dilin mövcud olan lüğət fondunun (əsasən, omonimlər, sinonimlər, antonimlər, köhnə və yeni sözlər, çoxmənalı, həqiqi, məcazi, ümumişlək, dialekt və s. sözlər) əsasında yaranan dilin ikinci dəfə xüsusi yaranışıdır"* [51, s.50].

Qantəmirin dilinin leksik-üslubi xüsusiyyətləri üzərində apardığımız araşdırmanı əsasən onda xalq təfəkkürünün izlərini axtarmaq istiqamətində

qurduğumuzdan yazıçının dilində o leksik vahidlər üzərində dayanacağıq ki, bu araşdırma üçün material versin.

Qantəmir dildən yaradıcı şəkildə istifadə edən ədiblərimizdəndir. Onun yaradıcılığında idiomlar, atalar sözləri, xalq danışıq dili ifadələri, evfemizmlər, omonim, sinonimlər öz zənginliyi və üslubi məqamları ilə maraq doğurur. Bu vahidlər onun üslubunda təhkiyə və dialoqlarda bədii informasiyanın əsas yükünü daşıyır. Çox məqamlarda isə sözün üslubi və poetik məzmunu leksik-nominativ mənanı üstələyir.

Həm də nəzərə almaq lazımdır ki, Qantəmir yaradıcılığı, əsasən, satirik üslubdadır və bu üslub üçün dilin canlılığı şərtdir. Xalq danışıq dili isə bədii dilin canlılığını yaradan əsas mənbələrindəndir. Satirik əsərlərdə xalq danışıq dilindən alınan söz, ifadə, təhkiyə tərzi obrazların fərdiləşməsi, tipikləşməsi, o cümlədən də xarakterin yaradılması üçün ən yaxşı vasitədir.

Onu da qeyd edək ki, satirik əsərlərdə təkcə obrazların nitqi deyil, müəllif təhkiyəsi də yalnız ədəbi dil normaları çərçivəsində deyil, həm də xalq danışıq dili bazasında qurulur. Satirik mətn xüsusiyyətlərinə uyğun olaraq Qantəmirin dilində xalq danışıq ifadələrinə və xəlqi ifadə tərzinə tez-tez rast gəlinir. Ancaq demək lazımdır ki, bu yalnız yazıçının üslubu ilə bağlı bir hal deyildi, həm də onun yaradıcılığının yarandığı dövrdə ədəbi dil normalarının sabitləşməməsi, nəzəri bazada işlənməməsi ilə əlaqədar idi. Demək, ədəbi dil və xalq danışıq dili sərhədlərinin müəyyənləşməsi ərəfəsində yazıçının dilinin canlı xalq dili üslubuna yaxınlığı tamamilə təbii bir hal idi.

Qantəmirin dili üçün demokratizm xasdır. Xalq danışıq dilinin ifadələri Qantəmirin əsərlərində dilin canlılığını, təbiiliyini yaratmışdır. Yazıçı hətta öz təhkiyəsində belə fikrin ifadəsini dilin akademik yox, xalq dili bazasında olan sözlərinə etibar edir.

Qara Hüseyn Əhmədəlini iki ağız səslədi [88, s.98].

Bu cümlədə *dəfə* yox, *ağız* numerativinin işlənməsi müəllif - oxucu ünsiyyətini gücləndirmişdir.

Obrazların nitqində də Qantəmir nitqin canlılığını yaratmaq fürsətini fövtə verməmişdir.

-*Xədicə qaragün də avtomobil ilə getmişdi. Axır başı nə oldu?* [88, s.297].

Bu cümlələrdə *qaragün* sözü və *axır başı* ifadəsi bədii mətnə xalq deyim tərzindən gəlmişdir. Birinci cümlədəki *Xədicə qaragün* inversiya olunmuş birləşmədir. Akademik normaya görə qaragün(lü) Xədicə olmalı idi. Mətndə yazıçı üslubi çalar yaratmaq üçün təyin edənlə təyin olunanın yerini dəyişmişdir. Xalq danışıq dilində də *anam yazıq, qardaşım biçarə* tipli ifadələrə rast gəlirik.

Qantəmir əsərlərinə xalq danışıq dilinin qatlarından elə ifadələr seçib gətirmişdir ki, ümumxalq dilində kütləvi işləkliyə malik deyildir. Yazıçı sanki xalq dilinin yaddaşında mürgü döyən ifadələri oyadıb yenidən hərəkətə gətirir.

Şəhər adamı nazik olar [88, s.255].

Bu cümlədəki *nazik olmaq* ifadəsi ədəbi dil faktı olmasa da, dialekt leksikasına aid deyildir. Dialektizmlər müəyyən bir bölgə üçün xarakterik sözlər olub, ümumxalq səviyyəsində başa düşülmür. Misallardan da göründüyü kimi, bu ifadəniin semantik yükünün izahı üçün dialektoloji tədqiqatlara ehtiyac yoxdur. Belə ki bu ifadə ədəbi dilin leksik vahidlərinə istinadən qurulduğundan oxucu üçün anlaşıqlıdır.

Nazik sözü məlumdur ki, *incə, zərif* sözünün sinonimidir. Bu sinonim cərgədə ədəbi dildə insanın həssaslığını, hər şeydən tez zədələnə biləcəyini bildirmək üçün *incə, zərif* sözlərindən istifadə olunur. Yuxarıdakı cümləyə istinadən isə demək olar ki, xalq dilində *nazik* sözü insan anlayışı ilə də işlənir.

Ancaq ədibin dilində xalq danışıq dilindən gələn elə ifadələr də işlənmişdir ki, onların anlaşılması üçün müəyyən izaha ehtiyac vardır.

Çörəyimi yenicə yeyib qutarmışdımki, qonşumuz Hüseyn salamsız dərviş kimi qapını açıb içəri girdi [88, s.233].

Bu cümlədəki *salamsız dərviş kimi* ifadəsi oxucu üçün sona kimi anlaşıqlı deyildir. *Dərviş* sözü Azərbaycan dilini bilən hər kəs üçün anlaşıqlı olduğu halda, *salamsız dərviş kimi* ifadəsinin semantikası anlaşılmır. Ümumiyyətlə, hər bir dildə, o cümlədən də Azərbaycan türkəsində elə ifadələr var ki, yalnız lüğəvi izahlarda anlaşılmır, onlar etnoqrafik əsasda izah oluna bilirlər. Belə ki bu ifadələrin

semantikası daxilindəki leksik vahidlərin nominativ mənasından əlavə, xalq düşüncə tərzini, milli etnoqrafik xüsusiyyətləri məzmununa alır. Xalq danışıq ifadələrinin alt qatlarında xalq düşüncə tərzi, milli mental xüsusiyyətlər gizlənir.

Vəsiyyət əsərində müəllif dilində işlənən *dərviş kimi* ifadəsi də məhz etnoqrafik əsaslarla izah oluna bilən ifadədir. Bu ifadənin semantikasını anlamaq üçün "dərviş kimdir?" sualına cavab vermək lazımdır. İlk öncə onu deyək ki, dərviş Şərq müsəlman xalqlarına məxsus dini anlayışdır. Qədimdə bu xalqların həyatında qapı-qapı gəzərək yaxud meydanlarda adamları başına yığaraq peyğəmbərə, imamlara və Kərbəla hadisələrinə həsr olunmuş qəsidələri avazla oxuyub pul yığan adama dərviş deyirdilər [19, 72]. Həmçinin, sufizmin ideyalarını, təsəvvüf fikirlərini təkyələrdə yayan din adamlarına da dərviş deyirdilər. Azərbaycan dilində dərviş həm də onomastik vahiddir. Belə ki o, həm şəxs adı, həm də soyad kimi işlənir.

Dilimizdə bu sözə istinadən *dərvişanə*, yəni *dərviş kimi* ifadəsi də formalaşmışdır ki, *yoxsulluq, kasıblıq* mənasını ifadə edir. Məsələn, *dərvişanə süfrə* nemətlərin bol olmadığı, kasıbyana bir süfrə mənasını verir. Ancaq Qantəmirin işlətdiyi "*Çörəyimi yenicə yeyib qutarmışdım ki, qonşumuz Hüseyn salamsız dərviş kimi qapını açıb içəri girdi*" - cümləsində *salamsız dərviş kimi* ifadəsi bu mənada deyil, belə ki, *kasıbyanə içəri giriş* yanaşma əlaqəsində semantik uyğunluq yoxdur. Azərbaycan dilinin izahlı lüğətlərində də özünün başqa izahını tapmamışdır. Bu ifadə yazıçının *dərviş* sözünün semantikasına yaradıcı şəkildə yanaşmasının nəticəsi kimi də onun dilinə daxil ola bilərdi.

Yazıçının novatorluğu sözdə verilən məna yükündən birini bədii situasiyaya uyğun aktivləşdirərək, yeni məna yükünü yaratmasında biruzə verir. Dil vahidindəki mümkün, zəngin baza daxilində fərqli məna yükünün yaradılması istənilən yazıçı üçün mümkün bir hadisədir. Amma bundan geniş surətdə istifadə edilməməsi danılmaz faktdır.

Qantəmir dilinə ümumxalq dilinin zənginliklərindən gələn bu ifadəni dərvişlik anlayışınıın xüsusiyyətlərinə istinadən, tekstoloji təhlil əsasında müəyyənləşdirmək lazımdır. Məlumdur ki, dərvişlər üçün həmişə, hər yerdə qapılar açıq olmuş, onların gəlişi gözlənilmədən, təklifsiz və dəvətsiz baş vermişdir. Xalq arasında *Dərviş yabısı*

hər evin yolunu tanıyar atalar sözünün formalaşması da dərvişin yolunu hər qapıdan sala bilməsi ilə bağlı olmuşdur. Fikrimizcə, Qantəmirin dilində də *dərviş kimi* ifadəsi dərvişlik anlayışının bu xüsusiyyətinə əsasən, gözlənilməz və dəvətsiz gəlişi bildirmək üçün işlədilmişdir.

Nəzərə alsaq ki, müasir dilçilik koqnitiv paradiqmaya keçir və koqnitiv dilçilik dildə milli mentalitetin və milli təfəkkürün izlərini axtarır, onda Qantəmir dilinin dillə təfəkkürün dialektik bağlılığı istiqamətində öyrənmək araşdırmamızın aktuallığını bir daha təsdiqləyər.

Dildə milli təfəkkürümüzün izlərini müəyyənləşdirmək üçün müəllif dilində işlənmiş belə bir cümləyə diqqət edək:

Bəy Sara xanımı çox əziz saxlayırdı, içəri həyətə <u>başıpapaqlı</u> keçə bilməzdi [88, s.229].

Məlumdur ki, dilimizin leksik qatında işlənən dil vahidlərinin əksəriyyətini xalqın tarixi keçmişini, adət-ənənələrini öyrənmədən başa düşmək mümkün deyil.

Milli təhtəlşüurumuzun alt qatında *papaq* arxetipi var. Milli təfəkkürdə bu arxetip namus koqnitiv əlamətləri üzərində konseptləşmişdir. *Başıpapaqlı* sözünün semantik strukturu bu konseptə istinadən qurulmuşdur. Azərbaycan ictimai normalarına əsasən tarixən papaq geyim olaraq yalnız kişilərə aid olmuşdur. Bu sözün kökaltı həllində *kişi* sözü dayanır. Mənanın bu cür dolayısı ilə ifadəsi evfemizm adlanır. *"Evfemistik sözlər vasitəsilə mənanın anlaşılması birbaşa deyil, dolayı yolla başa gəlir. Dinləyən şəxs söhbətin nə barədə getdiyini dərhal, həmin an başa düşmür, yalnız sonradan məsələ aydınlaşır, danışan şəxsin nə demək istədiyi dinləyənə çatır"* [106, s.219].

Mətn konteksində də bu cümləyə baxanda görürük ki, təhkiyəçi ərinin Sara xanımı kişi gözündən necə mühafizə etdiyini nəql edir və məqsədli olaraq öz təhkiyəsinə *kişi* sözünü yox, başıpapaqlı sözünü daxil edir. Sanki Murad bəyin kişi gözünə qoyduğu qadağanı təhkiyəçi *kişi* sözünə qoyduğu qadağa ilə davam etdirir və bununla da təsirli təhkiyə əldə edir. Onu da qeyd edək ki, kişi başıpapaqlı əvəzlənməsi həm də müəllifin Sara xanım haqqında mümkün qədər nəzakətli danışmaq tərzi ilə əlaqədardır. Belə ki yenə mətn kontekstinə baxanda görürük ki,

Sara xanıma camaatın göstərdiyi böyük hörmətdən danışır və öz təhkiyəsi içinə də bu hörməti almaq üçün daha nəzakətli tərz seçir.

Ümumiyyətlə, milli düşüncəmizdə *baş* arxetipi vardır və o, insanın şəxsiyyəti, mənəviyyatının simvolu kimi leksik vahidlərə daxil olur. *Başıpapaqlı* ifadəsində də kişiliyin simvolu məhz başla əlaqələnir. *Zeynəb Tükəzbənova* hekayəsində də biz baş arxetipinin yenə mənəviyyat məsələsi kimi dildə öz əksini tapdığını görürük.

Qız yetişib, əqlə-kamala dolub, daha bunu belə <u>başıaçıq</u> saxlamaq yaramaz. Bir halal südəmmiş tapıb başdan eyləməlidir [88, s.216].

Başıaçıq sözü xalq danışıq dilindən gəlir. *"Xalq nitqi sadə və qüdrətlidir, ona görə ki, o, özündə bir çox nəslin əqli işlərinin səmərəsini, fəlsəfəsini və xalqın tarixini ehtiva edir"* [139, s.7]. *Başıpapaqlı* sözü kimi *başıaçıq* sözü də xalqımızın tarixi məişəti, həyat fəlsəfəsi ilə əlaqədardır. Diqqət edək ki, hər iki söz başın örtüyü anlamına söykənir. Birinci söz kişilərə aid olduğu halda, ikinci söz qadınlarla bağlıdır. Kişinin baş örtüyündə papağın olmağı mütləqdirsə, qadının başörtüyü isə kişi kimi dəyərləndirilir. Qantəmirin qəhrəmanı Məşədi Nəcəf ərsiz qızı haqqında *başıaçıq* sözünü işlədir və onun düşüncəsinə görə ərsiz qadın örtüksüzdür.

Məlumdur ki, bədii üslub daha obrazlı danışıq ifadələri seçir və bu seçimdə xalq danışıq dili əsas bazalardan biri rolunu oynayır. *"Danışıq dilində də bəzi bədii elementlərin işləndiyi müşahidə olunur. Xüsusilə, xalq deyimlərinin tətbiqi özü ilə bərabər, xalq danışıq dilinin üslubu üçün normativləşmiş əlamətləri də özündə ehtiva edir"* [8, s.99].

Payız qabağı onun evində <u>motal motala söykənirdi</u> [88, s.228] - cümləsində fikrin obrazlı ifadəsi var və bu obrazlılıq xalq dilindən gəlir.

Motal motala söykənirdi ifadəsini başa düşmək üçün motal sözünün semantikasını aydınlaşdırmaq lazımdır. *Motal* etnoqrafik leksikaya aid olub şor, pendir saxlamağa görə hazırlanmış qoyun və ya keçi dərisidir. Bu gün də danışıq-məişət leksikamızda *motal pendiri* ifadəsi var, bu, qoyun və ya keçi dərisində saxlanmış pendir növünü ifadə edir. *Motal pendiri* həm də olduqca bahalı bir pendir olduğuna istinad edəndə *motal motala söykənirdi* ifadəsinin daşıdığı semantika

aydınlaşır. Məlum olur ki, Qantəmir *motal motala söykənirdi* ifadəsini işlətməklə bu evin payızda varlanmasını, yəni nemətlərin bolluğunu ifadə etmək istəmişdir.

Görkəmli dilçi alim Əbdüləzəl Dəmirçizadə Mirzə Fətəli Axundzadənin əsərlərinin dilini araşdırarkən yazır: *"Qadınlar xalq danışığının, xalq ifadələrinin, ümumən xalq ədəbiyyatının ən zəngin xəzinələridir. Çox zaman kişilər arasında unudulmuş olan, işlənilməyən bir çox məsəl, idiom və ifadələr qadınlar arasında yaşayır. Bir çox etnoqrafların, bir çox linqvist tədqiqatçıların müşahidəsinə əsaslanaraq demək olar ki, qadınlar xalq danışığı və xalq ədəbiyyatı zənginliklərinin ən yaxşı mühafizləri olmuşlardır"* [44, s.33]. Əbdüləzəl Dəmirçizadənin bu mülahizəsini Qantəmirin *Kənd klubu* əsərində qadınlar arasında gedən dialoq da təsdiqləyir.

-Ağrım Anaqızın ağzına... Onun da basa-kəs dövrü keçdi. Onun ağzilə oturub-duran yoxdur.

-Rəcəbin qızı hamının qabığını çıxardıb.

Kasıb oldu nə oldu... paxıl deyiləm... Allah bağışlasın... qabında bir şey varmı...

Bu iki arvadın sözünə qulaq asan cavan bir gəlin deyirdi:

-Atasının ocağına su calayan bir Telli oldu... İndi anası bir başına vurur, bir də dizinə!

-Vallah yalandır... billah yalandır... anası özü qoşdu göndərdi...el üzünə özünü elə göstərir...

Bir ayrı qadın dedi:

- Ata, ana nə eyləsin... qız ki, gedirəm dedi, onu saxlamaq olmaz... Telli olmasın, bir ayrısı olsun... bu ona yazdı, o buna yazdı... hənək-hənək, axırı dəyənək [88, s.83-84].

Göründüyü kimi, bir neçə qadının arasında baş verən bu söhbətdə hər bir obrazın dilində xalq ifadələri işlənir. Həm də biz bu ifadələrə, demək olar ki, hər cümlədə rast gəlirik.

Bu mətndə işlənən idiomatik ifadələrə tədqiqatımızın gedişində yer ayıracağıq, indi isə ədəbi dildə işlənməyən, xalq leksikonuna aid olan ifadələr üzərində dayanaq.

El üzünə ifadəsinin leksik mənası *üzünə* sözünün daşıdığı mənada gizlənib. Bu sözün törəmə mənasında abır, həya məzmunu var: Məsələn, adamda üz gərək, yəni ki, adamda abır-həya gərək.

Demək, el *üzünə* ifadəsi bu cümlədə elin abır-həyasına mənasında işlənmişdir.

Ağrım Anaqızın ağzına... Onun ağzilə oturub-duran yoxdur cümləsində semantik yükün əsas daşıyıcıları xalq danışıq üslubuna məxsus *ağrım ağzına* və *ağzı ilə oturub-durmaq* ifadələridir. *Ağrı* sözünün məna yükünə istinadən yaranan *ağrım ağzına* ifadəsi qarğış, nifrət bildirir. Birinci şəxsin təkinin mənsubiyyət şəkilçisini qəbul edən ağrı sözü vasitəsi ilə subyekt öz ağrı-acısını obyektə doğru yönəldir.

Ağzı ilə oturub-durmaq birləşməsi isə *sözü ilə oturub-durmaq* frazeoloji birləşməsinin danışıq variantıdır. Söz və ağız anlayışlarının fiziki yaxınlığı onların semantik yaxınlığına zəmin vermiş və bu sözlər asanlıqla ifadə daxilində bir-birini əvəzləmişdir.

Qantəmirin nəsr dilində xalq dilində ədəbi dilin sinonim variantı olan birləşmələr də işlənmişdir.

Fələk gələ, bir addım da qabağa keçmərəm [88, s.34].

Yazıçının xalq danışıq dilindən aldığı *fələk gələ* birləşməsi Azərbaycan dilinin izahlı lüğətində öz əksini tapmamışdır. Onun ifadə etdiyi mənanı birləşmənin semantik mərkəzində dayanan *fələk* sözünə istinadən mətn daxilində başa düşməyə çalışaq.

Fələk 1. göy, səma, asiman, 2. tale, qismət, bəxt [21, s.273] uğur mənalarını ifadə edən ərəb mənşəli söz olub, klassik ədəbiyyatımızın poetik leksikasına daxil olan sözlərdəndir. Klassik poeziyamızda bu söz lirik mənin bədbin əhvali-ruhiyyəsini və ahü-zarını ifadə vasitəsi kimi bədii mətnə daxil olub.

Fələk ayırdı məni cövr ilə cananımdan

Həzər etməzmi <u>əcaba ahü-fəğanımdan</u> [57, s.48].

Poetik düşüncədən fərqli olaraq, xalq təfəkküründə *fələk* sözü qətiyyət, dönməzlik məzmunu ifadə etmək üçün işlədilir. *Fələk gələ* ifadəsi ədəbi dilimizdə işlənən, *qətiyyən, heç vəchlə, əsla* mənalarını verən *fələk göydən yerə ensə də* birləşməsinin sinonimidir. Akademik Tofiq Hacıyev doğru olaraq yazır ki, *"...yazıçı*

söz - rəngləri xalqın canlı dilindən götürür; onun nitqində sinonim sözlərin cərgəsi ədəbi dildəkindən daha tutumludur" [63, s.3]. Məlumdur ki, sinonimlər leksik mənanın izahı üçün ən yaxşı vasitələrdən biridir. *Fələk gələ* və *fələk göydən yerə ensə də* birləşmələrinin sinonim olduğunu qəbul ediriksə, onda *fələk gələ* birləşməsinin də *qətiyyən, heç vəchlə, əsla* mənasına malik olduğu təsdiq olunur. Mətnin konteksti də *fələk gələ* birləşməsinin bu mənasını təsdiqləyir. Bu ifadələrə *fələk* güc, qüdrət rəmzi kimi daxil olub. Fələyin gücü subyektin qətiyyətinə qarşı qoyulub.

Qantəmirin bədii təsvirlərdə xalq düşüncə və ifadə tərzini əks etdirən bənzətmələrdən də istifadə edilmişdir.

Qonşudakı Lidiya xanım təzə, gənc və marmalat kimi bir qız idi [88, s.342].

Marmalat sözü *marmelad* sözünün xalq tələffüz formasıdır. *Marmelad* meyvə püresindən hazırlanmış xüsusi şirniyyat növüdür. Ədəbi-bədii dilimizdə qadın gözəlliyinin təsviri üçün, adətən, təbiətlə bənzətmələr yaradılır. Şirnilərlə bənzətmə qurmaq isə, məsələn, *konfet kimi* ifadəsi xalq danışıq tərzinə məxsusdur. Xalq danışıq tərzinə məxsus *marmalat kimi* ifadəsinin obrazların dilində yox, müəllif təhkiyəsində işlənməsi Qantəmirin ədəbi-bədii dil materialında xəlqiliyə güclü meyil etdiyini göstərir. *"Bədii dildə xəlqilik xalq dilinin ən böyük nailiyyətinin bədii əsərdə təcəssüm etdirilməsidir"* [12, s.56].

Danışıq-məişət leksikası da xalq dilinin zənginliyini və linqvistik xüsusiyyətlərini əks etdirən mənbələrdən biridir. Qantəmirin əsərlərində bu leksikadan yetərincə istifadə onun dilinin demokratizmini gücləndirmişdir. Bu leksika bəzən onun əsərlərinə loru danışıq dili elementi şəklində də daxil olmuşdur. *Mənim tələbəm* hekayəsində qəhrəmanın nitqi xalq danışıq dilinə xas lan loruluğa qədər enmişdir.

Pivə gətirən qızın qolu dibə qədər açıq idi [88, s.188].

Bu cümlədə *dibə* sözü obrazın nitqini lorulaşdırmışdır. Bu söz yalnız qəhrəmanın nitqini lorulaşdırmır, həm də onun düşüncə tərzinin kobudluğunu ifadə edir. Müəllif əhli-kef həyat tərzi sürən qəhrəmanının yonulmamış ruhunun, qadına qarşı acgöz münasibətinin bədii ifadəsini yaratmaq üçün onun nitqində bu məqamda *dibə* sözünü işlətmişdir.

Yazıçının dilində rast gəldiyimiz vulqar sözlər də bu leksikanın təzahür formalarından biridir. Ədəbi dil faktı olmayan, dilin danışıq-məişət leksikasına daxil olan vulqar sözlər kobud və ya söyüş xarakterli sözlərdir. Bu sözlər ədəbi dilin etik normalarına, bədii dilin isə estetik tələblərinə uyğun gəlməsə də, onların ədəbi-bədii dildə işlənməsi normadır. Görkəmli dilçi Afad Qurbanov doğru olaraq qeyd edir ki, bədii əsərlərin dilində vulqarizmlərin əsas üslubi vəzifələri obrazın danışığını tipikləşdirməyə, onun iç üzünü göstərməyə, onun müəyyən xüsusiyyətlərini aydınlaşdırmağa kömək etməkdir. Belə tip söz və ifadələr zərurət nəticəsində işləndiyi məlumdur. Onu da qeyd etmək lazımdır ki, vulqar sözlərin bədii ədəbiyyata gətirilməsinə olduqca ehtiyatlı yanaşılmalıdır. Bədii söz sənətində istənilən vulqar sözü işlətmək olmaz. Onların yerli-yersiz istifadəsi əsərin bədii üslubuna xələl gətirir.

Əbdüləzəl Dəmirçizadə isə ümumiyyətlə, vulqar sözlərin dili zibilləyən vasitə kimi bədii mətnlərdə belə işlənməsinə qarşı olmuşdur [44, 26]. Təbii ki dilçilərin bu mövqeyi vulqar sözlərin ədəbi dildə tamhüquqlu söz kimi işləklik qazana bilməsi təhlükəsi ilə bağlı olmuşdur. Çünki doğrudan da, *"bədii üslub normadan kənarda duran leksikaya müraciət etməklə o dilin ədəbi dil tərəfindən qismən assimilyasiyasına səbəb olur*" [12, s. 90]. Qantəmirin dilində bədii üslubun vulqar sözlərin ədəbi dildə işlənməsinə verdiyi imkandan sui-istifadə yoxdur. Onun əsərlərində kobud və ya söyüş xarakterli sözlərin işlənməsinə aşırı həddə üslubi tələb olmadığı yerdə rast gəlmirik. Yazıçının nəsr dilində vulqar sözlərin işlənməsinin bəzi məqamlarını müşahidə edək:

-*Ay... eşşək!.. Yuxu görürdüm.*

-*Sənin atan qaban Səfdərdir* [88, s.47].

Bah... zalım köpək oğlu!.. [88, s.16].

Atam gorbagorun iki oğlu olub [88, s.196].

Göründüyü kimi, Qantəmir obrazın dilində, əsasən, heyvan anlayışı ilə ifadə edilən söyüş xarakterli vulqarizmlərdən istifadə etmişdir. Azərbaycan xalqının şüuruna köpək murdar, eşşək qanmaz, qaban isə yekəpərlik, vəhşilik koqnitiv əlamətləri ilə daxil olmuşdur. *Görbagor* sözü Azərbaycan dilinin danışıq leksikasında ölmüş adamı söymək üçün işlədilən vulqar sözdür. Həm diri, həm də ölmüş insana

xitabən deyilmiş vulqarizmlərdə onun xarakteri, düşüncəsinə işarəedici məzmun varsa, ölü haqqında işlənmiş *gorbagor* vulqarizminin mənası qəbir anlayışı ilə bağlanır.

Qantəmir nəsrində obrazları tipikləşdirmə vasitələrindən biri də vulqar sözlərdir. *"Qarğışlara və söyüşə bütün dil vahidləri və bütün janrlar üçün xarakterik olan xüsusi münasibət var: yalnız qarğış və söyüş deyil, bəyənmə, tərif ifadə edən söz də lirik, epik, dramatik əsərlərə xidmət etdiyi kimi, komik əsərlərə də xidmət edir"* [143, s.9].

Yazıçı bu tip sözlərdən əsasən "Kolxozstan" povestində istifadə etmişdir.

-*Qəribə heyvan adamsan* [88, s.38].

-*Çünki eşşəksən... şəhər əhli olmaqla deyil, adamın dərisi nazik olmalıdır* [88, s.40].

-*Nə vaxtsız banlayırsan?!* [88, s.46].

-*O şeytan oğlu burada nə qələt eləyir?*

Sadıq bunu eşidib içəridən ona cavab olaraq:

-*Şeytan sənin atandır... Köpək oğlu, köpək...* [88, s. 48].

Onu da qeyd edək ki, yazıçının ədəbi-bədii dildə vulqar sözlərdən istifadə etməsi hələ dövrünün ədəbi mühitində mübahisə doğurmuş, tənqid olunmuşdur. Ə.Hidayətin "naturalizm", "söyüş kolleksiyası", S.Hüseynin "ədəbsiz sözlər" deyə qılıncladığı Qantəmir dilinin bu xüsusiyyətlərini Bədirxan Əhmədov "Azərbaycan satirasının inkişaf problemləri" tədqiqatında satirikin dili üçün xarakterik hal kimi qiymətləndirmişdir [49, s.193]. E.B.Safonova yazır: *"Bədii əsərləri oxucuda ikrah hissi oyadan, yetişməkdə olan nəslin zövqünü korlayan vulqarizmlərlə zibilləmək olmaz. Bu məsələ nəzəri ortaya qoyulmamışdır, lakin bizim sənətkarlarımız həmişə bu cür yanaşmanı dəstəkləmişlər*" [143, s.98].

Ümumiyyətlə, Qantəmirin nəsr dilində vulqar sözlərin işlənməsi onları ədəbi dilə gətirmək və oxucular arasında təbliğ cəhdi kimi görünmür. Bunlar tipik şəraitdə işlənən tipik ifadələrdir. *"Vulqarizmlər bədii əsərlərə də keçir və bu təbiidir. Yazıçılar vulqarizmlərə ona görə müraciət edirlər ki, obrazın xasiyyətini, onun ictimai həyatda və məişətdəki mövqeyini hərtərəfli təsvir edə bilsinlər. Həmçinin*

vulqarizmlər obrazın ətrafdakılarla əlaqələrini, müxtəlif hadisələrə reaksiyasını təbii və real şəkildə əks etdirməyə yardım edir. Yazıçılar vulqar söz və ifadələrdən istifadə mədəniyyətinə görə fərqlənirlər. Onların bədii əsərlərin dilində vulqarizmlərdən istifadəyə münasibəti eyni deyil" [143, s.474-478].

Qantəmir nəsrində də vulqarizmlər obrazın daxili kimliyini açmaq, düşüncə tərzini göstərmək vasitəsi kimi bədii mətnə daxil olmuşdur. Məlumdur ki, dillə təfəkkür arasında dialektik bağlılıq vardır və hər kəsin nitqi onun təfəkkürünü əks etdirən ən yaxşı vasitədir. *"Hər kəs öz səciyyəvi nitqinə malikdir, hərənin öz danışıq xüsusiyyətləri var. Hərə öz duyğusunu və fikirlərini özü bildiyi kimi ifadə edir, bununla adamlar yerdə qalan bütün şeylərə görə olduğundan daha çox bir-birindən fərqlənirlər. Bunu tapmaq, tutmaq və məhz nitqin bu xüsusiyyətləri ilə təsvir olunan fiquranı mükafatlandırmaq lazımdır – o zaman siz hisslərin və fikrin xüsusiyyətlərini lazımi dolğunluqla aça bilər, yəni xarakterlər yaradarsınız..."* [125, s.132].

Artıq qeyd etdiyimiz kimi, Qantəmirin yaradıcılığı dilimizin leksik bazasının tarixi aspektdə öyrənilməsi üçün material verən mənbədir. Yazıçının dilində elə sözlər də işlənmişdir ki, onlar müasir dilimizdə semantik derivasiyaya uğrayaraq yeni məna qazanmışlar. Məsələn:

On beş dəqiqədən bəri müəllim və tələbələrin söhbətinə qulaq asan və dinməz-söyləməz tramvayda oturan <u>cındır</u> bir fəhlə sözə qarışdı və özü də müəllimə tərəf çıxdı [88, s.151].

Bu cümlədəki *cındır* sözü müasir dilimizdə oxucu tərəfindən bu konteksdə vulqar söz, yəni ki, fəhlənin şəxsiyyətini təhqir kimi başa düşülərdi. Qantəmirin dilində isə o, fəhlənin üst-başının vəziyyətini təsvir edir. Bunu sonrakı abzaslarda müəllifin dilindən verilmiş aşağıdakı cümlə də təsdiq edir.

Onun tələbəsi üstü-başı hisli bir fəhlə qədər də deyildi [88, s.151].

Demək, dilimizin yüzillik inkişafı mərhələsində *cındır* sözü insanın zahiri keyfiyyətlərinin ifadəsindən daxili keyfiyyətlərinin ifadəsinə doğru yeni leksik çalar qazanmışdır.

Qantəmir əsərlərinin leksikası nəinki ədəbi dilin, həm də ümumxalq dilimizin tarixi yaddaşıdır.

Srağa gün gəlib sözümü dilcavabı dedim, dediniz ki, get ərizə yazdır gətir [88, s.195].

Diqqətlə oxuduqdan sonra ərizənin qulağına qırmızı mürəkkəblə yazdı, verdi əlimə [88, s.194].

Bu cümlələrdə işlənmiş *ərizənin qulağı, dilcavabı* sözləri müasir dilimizdə işlənən *ərizənin kənarı* və *şifahi* sözlərinin qarşılığı kimi XX əsrin əvvəllərində xalq ünsiyyətində işlənmişdir. Qantəmirin "Düzəlmədi" hekayəsində bu sözlər obrazın loru danışığını və elmsiz tipini yaradır. *Dilcavabı* sözü yazı-pozu işlərindən yaxşı baş açmayan birinin *şifahi* sözünün semantikasını ifadə etmək üçün seçdiyi ən uyğun və sadə variantdır.

Qulaq sözü dilimzdə çoxmənalı sözdür, məsələn, *papağın qulağı* birləşməsində törəmə mənasıda işlənir. *Ərizənin qulağı* birləşməsində isə o, öz yerini *kənarı* sözünə vermişdir. XX sərin əvvəllərində yazı-pozu işlərindən o qədər də başı çıxmayan xalqın danışıq dilində işlətdiyi *ərizənin qulağı* ifadəsini müasir dövrümüzdə artıq xalq dilində də ədəbi dil faktı olan *ərizənin kənarı* birləşməsi əvəz etmişdir.

–Elə şeirlər, elə şeirlər yazır ki... nə bilim yadımda deyil... o irəli nə yazmışdı... hə... dayan görüm, "bağçalar viran olsun sənsiz... [88, s.298].

Xalq deyim tərzində qurulmuş obrazın bu nitqində *irəli* sözü zaman anlamını bildirir. İstər müasir ədəbi dilimizdə, istərsə də xalq danışıq dilimizdə bu söz yalnız yer anlayışını ifadə edir. Demək, Qantəmir yaradıcılığına əsasən, bu qənaətə gəlmək olur ki, *irəli* zərfi tarixən *o* sözü ilə birlikdə xalq dilində zaman zərfi kimi də işlənmişdir.

Qantəmir nəsrinin yaranması elə bir tarixi dövrə təsadüf etmişdir ki, bu dönəmdə ədəbi dil normalarında, o cümlədən də leksik normada sabitləşmə prosesi hələ tam başa çatmamışdı. Bəzi leksik vahidlərin işlənmə məqamları dəqiq şəkildə öz yerini müəyyənləşdirməmişdi. Məsələn, biz Qantəmir yaradıcılığında *geniş* sözünün təyinedici söz kimi *nəfəs* sözünə yanaşdığını görürük.

Geniş bir nəfəs aldım [88, s.224].

Müasir dilimizdə bu semantikanın ifadəsində təyinedici vəzifədə *rahat* sözü işlənir.

Sadəlik, yığcamlıq Qantəmirin nəsr dilinin əsasını təşkil edir. Əsərlərində yüzlərlə şifahi xalq nümunələrini işlədərkən xalqla öz dilində ünsiyyət qurmaq, əməksevər insanların asanlıqla başa düşəcəyi anlaşıqlı bir dildə yazmaq onun başlıca məqsədi idi. Özündən əvvəlki bədii ədəbiyyat nümunələrini nəzərdən keçirən yazıçı belə nəticəyə gəlmişdir ki, doğma ana dilimizi yalnız bu üsulla – xalq danışıq dilinin əsrarəngiz dil vahidləri əsasında zənginləşdirmək olar.

2.2.2. Qantəmirin nəsr dilinin frazeologiyası

Qantəmir yaradıcılığını müasir dildən ayıran yüzillik bir məsafədə ümumxalq dilinin zənginliklərini öyrənmək baxımından frazeologizmlər ən zəngin material verən dil vahidləridir. *"Ədəbi-bədii əsərin frazeologiyası ümumxalq dilinin zəngin frazeoloji materialı ilə, bədii əsərin yarandığı dövrə məxsus ümumxalq ifadə vasitələri ilə bilavasitə əlaqədar olur. Buna görə də bədii əsərin frazeoloji materialının tədqiqi yazıçının ümumxalq dili frazeologiyasından necə istifadə etdiyini, ifadənin semantik imkanlarını necə nəzərə aldığını, söz və ifadələri seçib götürmə bacarığını müəyyənləşdirməyə kömək edir, xalq dilinin həmin mərhələsində sözün, ifadənin hansı semantik istiqamətdə ünsiyyətə xidmət etdiyi aşkar olur, dövr keçdikcə leksik və frazeoloji vahidlərin mənasında dəyişmələr - daralma, genişlənmə, məcazilik halları lüğət tərkibindəki ayrı-ayrı vahidlərin məna həcmini izləməyə imkan verir"* [81, s.108].

Frazeologiya xalq düşüncə tərzinin əksi və dildə milli mentallığın ifadəsini özündə ən çox ehtiva edən dil vahidləridir. Milli mentallıq frazeologiyada verballaşır və bu ifadələrin semantik sahəsində milli şüurun ekspressiyası yatır. Milli şüurun müəyyən konseptlərlə bağlı təsəvvürünü verballaşdıran bu ifadələrin bədii dildə işlənməsi mətnin yalnız canlılığını və gözəlliyini təmin etmir, həm xalq danışıq dili ilə ədəbi dilin çulğalaşmasına, həm də idiomatik ifadələrin yazılı dilin yaddaşına köçməsinə xidmət edir.

Milli düşüncənin gerçəkliklə bağlı təsəvvürləri idiomatik ifadələrdə özünü daha çox göstərir. *"Aydın məsələdir ki, söhbət dil semantikasının həqiqətlə olan*

münasibətlərindən gedirsə, ilk növbədə, leksik və frazeoloji vahidlər yada düşür. Məhz leksika milli şüurun konseptləşməsindən xəbər verir. Frazeoloji vahidlər isə dilin ikinci dərəcəli nominasiya vahidləri olaraq, işarələnənə ekspressiv münasibət bildirən vasitədir. Beləliklə də, frazeoloji vahidlər müasir dilçiliyin maraq mərkəzində yerləşir" [138, s.456].

Qantəmirin dilində biz ənənəvi ədəbi dil leksikasında görünməyən, kütləvi anlaşıqlığa malik olmayan frazeoloji vahidlərə rast gəlirik ki, bunlar həm linqvistik, həm də təfəkkür hadisəsi kimi maraq doğurur. Onu da qeyd etməliyik ki, frazeologiya geniş spektrə malik linqvistik hadisədir və özündə bir neçə leksik-sintaktik vahidləri birləşdirir. *"Biz frazeologiyanı geniş mənada nəzərdən keçiririk ki, buraya idiomlar, yəni "məxsusi frazeologizmlər", frazeoloji birləşmələr, paramiyalar (atalar sözü və məsəllər), müdrik kəlamlar və hazır nitq ifadələrini aid edirik"* [134, s.222-223].

Artıq qeyd etdiyimiz kimi, xalq danışıq dili Qantəmir leksikası üçün linqvistik baza rolunu oynamışdır. Onun dilini xalq danışıq tərzinə yaxınlaşdıran vasitələrdən biri də idiomatik ifadələrdir.

Xüsusi üslubi vəzifəyə malik idiomatik ifadələr nitqimizi canlandıran üslubi vasitələrdəndir desək, yanılmarıq. Bədii əsərlərin dilini obrazlı şəkildə əks etdirən idiomatik ifadələr təsir qüvvəsinə görə digər dil vahidlərindən fərqlənir.

Frazeoloji vahidlər obrazların dilini fərqləndirmək, onların daxili və xarici xüsusiyyətlərini əks etdirmək üçün əlverişli bədii nümunələrdir. Bu dil vahidləri yazıçının dilini xalq dili ilə həmahəngləşdirir, sanki bədii əsərin milli ruhda canlanmasını şərtləndirir, məzmununun maraqlı qurulmasına, ideyasının daha təsirli olmasına kömək göstərir. Bu isə öz növbəsində oxucuda əsərə marağın yüksəlməsinə səbəb olur.

Qantəmirin dilində prozaik təhkiyə və mükalimələrdə bədii informasiyanın böyük yükü frazeoloji birləşmələrin üzərinə düşür. Xüsusi ekspressiyaya malik olan bu birləşmələr yazıçı dilini statik-texniki ifadəetmələrdən qurtararaq, ona emosional çalar və təbii təhkiyə gətirmişdir.

Yazıçının dilində frazeologizmlərin işlənməsində iki məqam müşahidə olunur. Birinci məqam frazeoloji birləşmələrin sırf informativ yükü ilə bağlıdır, yəni onlar

bədii mətndə yalnız informasiya daşımaq funksiyasını yerinə yetirir. Məsələn, *İclasda qoyulan qərarlar haqqında Zeynəb xanımın ağzından söz almaq mümkün deyil idi* [88, s.105] - cümləsində *ağzından söz almaq* frazeoloji birləşməsi yalnız *öyrənmək* sözünün daşıdığı semantikanı çatdırmağa xidmət edir.

Qantəmirin dilində elə frazeoloji birləşmələrə rast gəlirik ki, onlar bədii mətndə hər hansı bir sözün sinonimi kimi müəyyən bir informasiyanı vermir, həm də həmin sözün informasiya yükündə daşına bilməyəcək təəssüratı ötürür. Məsələn:

İndi anası bir başına vurur, bir də dizinə! [88, s.83].

Bu cümlədə *bir başına vurur, bir də dizinə* birləşməsi *peşman olmaq* sözünün sinonimidir. Amma bu frazeoloji birləşmənin məzmunu *peşman olmaq* sözünün mənasına bərabər deyildir. Belə ki *bir başına vurur, bir də dizinə* birləşməsi ananın yalnız peşmançılıq hislərini çatdırmır, həm də bu situasiyada onun ruhi halını rəsm edərək *peşman olmaq* sözünün yarada bilməyəcəyi bir təəssüf təəssüratını yaradır.

Ümumiyyətlə, Qantəmir dil vahidlərinin leksik-üslubi imkanlarından maksimum dərəcədə yararlanan sənətkardır. Frazeologiyanın stilistik imkanları və effekt yaratmaq gücü sözlərə nisbətən güclü olduğundan ədib öz əsərlərində onlardan geniş istifadə etmişdir. Onun yaradıcılığında frazeologiyanın zənginliyi yazıçının öz dilini ümumxalq dilinin bazasına istinadən qurması ilə əlaqədardır. *"Ümumiyyətlə, məlumdur ki, frazeologiya yalnız dil hadisəsi deyil, həm də özünəməxsus "bədii əsər", xalq təfəkkürünün estetik məhsulu, obrazlı düşüncənin nəticəsidir. Ümumiyyətlə, hansı dil-üslub təzahüründə frazeologiya çoxdursa, həmin dil-üslub təzahürü o qədər xəlqidir"* [87, s.124].

Qantəmir dilində işlənən frazeologizmlərin linqvistik tədqiqat üçün maraqlı cəhətlərindən biri də odur ki, yazıçının dilində işlək olmayan, kütləvi anlaşıqlığa malik olmayan birləşmələr işlənmişdir.

Nikolay vaxtı <u>döşü təpərli</u> böyük bir tacir idi.

Atasının <u>ocağına su calayan</u> bir Telli oldu... [88, s.83].

Doğru... rəhmətlik çox "bəd" idi. <u>Quyruğu çeynənən</u> quyruqlardan deyil [88, s.82].

Xaraba qoymaq mənasında işlənən *su calamaq* feli hətta Azərbaycan dilinin izahlı lüğətində belə öz əksini tapmamışdır.

İkinci cümlədəki *quyruğu çeynənmək* birləşməsi də elmi mənbələrdə öz izahını tapmamışdır və bu birləşmə gündəlik ünsiyyətimizin fəal bazasına daxil olmadığından onun semantikasının araşdırılmasına ehtiyac var. İlk əvvəl onu qeyd edək ki, bu birləşmə baxdığımız mətn kontekstində sona qədər öz-özünü izah etmir. Odur ki, birləşmənin izahını müəyyən linqvistik təhlillər üzərində davam etdirmək lazımdır. Məlumdur ki, semantikanın dərki üçün ən uğurlu yollardan biri sinonim cərgənin tapılmasıdır. Bunun üçün dilimizdə *quyruq* sözü ilə işlənmiş frazeoloji birləşmələrə nəzər salaq.

Bu söz dilimizdə bir çox frazeoloji birləşmələr daxilində işlənmişdir və bu birləşmələrin əksəriyyətində o, insan anlayışı ilə bağlanıb, şəxsin ətrafı ilə ünsiyyətini ayrı-ayrı situativ məqamlarda izah edir. *Quyruq bulamaq, quyruğu qapı arasında qalmaq, quyruğunu eşmək, quyruğunu düyünləmək, quyruğu paçada olmaq, quyruğu tələdə olmaq, quyruğunu tutmaq, quyruq ələ verməmək, quyruq qısmaq, quyruğunu tapdalamaq* kimi birləşmələrin dildə işlənməsinin bu cür məqamlarla bağlandığını görürük. Bu birləşmələrin semantikasına nəzər salanda görürük ki, onlarda *quyruq* sözü şəxsi ifadə etmək üçün işlənmiş, birləşmənin mənа yükü ikinci tərəfdə, yəni feildə cəmlənmişdir. Deməli, *quyruğu çeynənmək* birləşməsinin izahını *çeynəmək* sözünə istinadən qurmaq lazımdır. Bu birləşmə *çeynənmək* sözünün nominativ yox, məcazi mənası üzərində qurulmuşdur. Bu söz öz məcaziləşmiş mənasında *tapdanmaq, təzyiq altına düşmək* anlamını qazanmışdır. Demək, *çeynənmək* sözü *tapdanmaq* sözünün sinonimidir və onların daxil olduğu frazeoloji birləşmələr də sinonim cərgə kimi çıxış edir. Məsələn, *haqqını çeynəmək* birləşməsi *haqqını tapdalamaq* birləşməsinin sinonimi kimi dilimizdə işlənir. Demək, *quyruğunu çeynəmək* frazeoloji birləşməsi *quyruğunu tapdalamaq* birləşməsinin sinonimidir və kiməsə sataşmaq, öcəşmək mənasını verir.

Qantəmirin əsərlərində elə frazeoloji birləşmələrə də rast gəlinir ki, danışıq-məişət dilinə məxsusdur.

Bir <u>yanını yerə qoy</u> [88, s.193].

Bu cümlədə *oturmaq* sözünün sinonimi kimi çıxış edən *yanını yerə qoymaq* birləşməsi xalq deyim tərzinə aid olub, ədəbi dil üçün xarakterik deyil. Bu birləşmədən ədəbi dildə, adətən, bədii mətnlərdə obrazların nitqində onların canlı danışıq tərzinin yaradılması üçün istifadə edilir. Məsələn, Sabit Rəhmanın "Toy" komediyasında Şirəlinin nitqində bu birləşməyə rast gəlirik:

Şirəli. Otur, yığışırlar. Yanını yerə qoy [110, s.53].

Qantəmir nəsrində xalq danışıq dilindən gələn, bugünkü dilimizdə isə işləkliyini və anlaşıqlığını itirən frazeologiyalara rast gəlirik.

Gecə arvad mənə dedi ki, bu evi bangə saldırma, sonra ev danışığa düşər, əlimizdən çıxar [88, s.195].

*Danışığa düşmə*k birləşməsi də ədəbi dildə, həmçinin müasir xalq danışıq dilində işlənmir, onu dilimizin arxaik frazeologiyasına aid etmək olar. Yüz il əvvəl ölkəmizdə əksəriyyət savadsız, hüquq, sənəd işlərinin mahiyyət-məzmunundan xəbərsiz idi və onlar üçün bu işlər mücərrəd, mahiyyətsiz danışıqdan başqa bir şey deyildi.

Artıq qeyd etdiyimiz kimi, Qantəmirin əsərləri frazeoloji birləşmələrlə, özü də xalq danışıq dilindən gəlmə frazeoloji birləşmələrlə zəngindir və bu birləşmələrin semantik sahəsinin təhlili onların koqnitiv mahiyyətini dərk etməyə imkan yaradır.

Hərçənd saqqalıma yaraşmaz, Məşədi Heybət, sən qulaq ver [88, s.249].

Saqqal sözü milli şüurumuzda böyüklük, hörmət koqnitiv əlamətləri ilə konseptləşmişdir. *Ağsaqqal* sözü özündə yalnız yaşı yox, həm də sayılıb-seçilməni, hörməti ifadə edir. Yuxarıdakı cümlədə də *saqqala yaraşmamaq* ifadəsi ahıl yaşlarında hörmətsizlik gətirə biləcək şeyləri özünə rəva bilməyən birinin dilində işlənmişdir.

Hələ öküzün böyüyü pəyədədir [88, s.232].

Burada *öküzün böyüyü pəyədədir* frazeologiyası *hələ işin çətini qabaqdadır* anlamında işlənir. Öküzdən qədimdə arabaya qoşaraq ağır fiziki işləri görmək üçün istifadə etmişlər. Odur ki, xalq təfəkküründə öküz işin çətinliyi, ağırlığı mənasında konseptləşmişdir.

Mən başıma nə kül töküm? [88, s.195].

Onu qeyd edək ki, *kül* məfhumu daha universal səciyyə daşıyır, *başına kül tökmək* ifadəsi milli şüurumuzun koqnitiv əlamətlərinin üzərində qurulmamışdır. Bu ifadəyə rus dilində də rast gəlirik: посыпать голову пеплом. İlk dəfə İncildə istifadə olunan bu ifadə yaxın birinin ölümü zamanı kədərini bildirmək, *başa kül tökmək* kimi qədim yəhudu adəti ilə bağlıdır. Onu da qeyd edək ki, *başına kül tökmək* ifadəsinin yaranması yalnız qədim yəhudi adətinin dilimizə transformasiyası deyildir. Belə ki, Azərbaycanın şimal zonasında ölünü dəfn edən zaman onun başına kül tökmək adəti mövcud olmuşdur və fikrimizcə, yaşanan ağır, çətin bir situasiyanı bildirən *başına kül tökmək* ifadəsinin yaranmasında bu adətin də əhəmiyyətli rolu olmuşdur. *Dəvənin başına kül ələyərlər ki, ölsün.* ("Şəhriyar" dastanı)

Müasir dilimizdə sakitləşmək, soyumaq mənasını verən üstünə *soyuq su ələnmək* frazeoloji birləşməsi vardır. Qantəmirin "Ağlayan Züleyxa" hekayəsində isə bu birləşmə bu mənada, amma başqa variantda işlənmişdir.

Ortalığa isti su səpilən kimi oldu [88, s.151].

Bu birləşmə cümləyə ortalığa çökən sakitliyi ifadə etmək üçün daxil olmuşdur. Səs-küyün sakitləşməsi, yaxud ehtirasların soyuması anlamının ifadəsi üçün *isti* yox, *soyuq* sözü münasib olduğundan bu birləşmədə *isti* sözü sabitləşə bilməmiş, öz yerini *soyuq* sözünə vermişdir. Çünki başqa dil faktlarına da istinad etsək, görərik ki, *isti* sözü *su ələnmək* yaxud *səpilmək* birləşməsinin ifadə etdiyi mənadan uzaqdır. İsti əlamətini hərəkət formasında ifadə edən *qızışmaq* feili *dava qızışdı*, yaxud *söhbət qızışdı* birləşmələrində sakitləşmək mənasının əksini yaradır.

2.2.3. Sinonimlər

Sözün informativ yüklü linqvistik vahiddən poetik məzmunlu bədii detala çevrilməsi hadisəsinin müşahidə olunduğu məqamlardan biri də sinonimlərin işlənməsi ilə bağlıdır. *"Sinonimlər ümumxalq dilinin ifadə imkanlarını əks etdirən əsas milli vasitələrdir. Sinonimlərin zənginliyi dilin zənginliyinin əsas şərtlərindən biridir"* [97, s.5].

Aydındır ki, sinonimlərin bir cümlə daxilində işlənməsi, yəni eyni mənanın ayrı-ayrı sözlərlə ifadəsi mətnin verdiyi informasiyanı yeniləmir və yaxud artırmır, daha çox onun emosionallığını, təsir gücünü çoxaldır. Elmi ədəbiyyatda sinonimlərin bədii mətndə işlənməsi bədii-üslubi hadisə kimi izah olunur:

Sinonimlər kortəbii şəkildə bir-birini əvəzləmək üçün yox, bir məfhumun ayrı-ayrı məna yükünü oxucuya çatdırmaq, həmin sözün bədii təsir gücünü yüksəltmək, deyiləcək fikrin daha yaxşı izahına nail olmaq üçündür.

"Oxucuda emosional-ekspressiv hiss yaratmaq üçün sinonimlər həmcins üzvlü cümlələrdə işlədilir.... Deməli, sinonimlərin oxucuda emosional-ekspressiv hiss yaratmaqda böyük əhəmiyyəti vardır və bu məqsədlə eyni bir cümlədə bir neçə sinonim işlədilir" [107, s.187].

Ədibin "Vəsiyyət" hekayəsində Hacının vəsiyyətini qələmə alan Şeyx Mir Hadinin dilində sinonimlərin işlənmə məqamına diqqət yetirək:

Oğul, Hacı ağa bu vəsiyyətnaməsində özü üçün ehsan, xeyrat ayırmayıb, qorxuram şərən düz olmasın və... [88, s.277].

Göründüyü kimi, bu cümlədə eyni fikir - ölmüş adamın adına verilən yemək, yaxud savab məqsədi ilə verilən bir şey *ehsan və xeyrat* kimi sinonim sözlərlə ifadə olunmuşdur. Bir cümlə daxilində sinonimlərin işlənməsi bəzən ona görə baş verir ki, sözlər sinonim cərgədə birləşsələr də, məna çalarlığına görə bir-birindən fərqlənir. Məsələn, aşağıdakı misralarda sinomimlərin işlənməsində məhz belə bir məqama rast gəlirik:

Ancaq yaxşı çalış, hərif inansın,

Qoy bağrı od tutub, alışıb yansın! [123, s.217].

Od tutmaq feili *alışmaq* feilinin ifadə edə bilməyəcəyi dərəcədə yanğının gücünü, *alışmaq* feili isə yanğının baş verdiyini ifadə edir. Bu şeirdə baxdığımız sinonim cərgədən fərqli olaraq, Qantəmirin dilində işlənmiş *ehsan* və *xeyrat* sözləri elə sinonimlərdir ki, onlar məna çalarına görə bir-birindən fərqlənmir və asanlıqla bir-birini əvəz edə bilir. Məsudə İslamzadənin "1960-90-cı illərin Azərbaycan nəsr dili" adlı namizədlik dissertasiyasının avtorefaratında sinonimlərin nəsr dilində işlənmə xüsusiyyətləri haqqında deyilir: *"Sinonimlər nəsr dilində aşağıdakı üslubi*

məqsədlərlə müraciət olunur: a) Obrazlılıq sinonimlərin məna incəlikləri əsasında sıralanması ilə üzə çıxır. Bu zaman yaranan zəngin sinonimik cərgələr iki məqsədə xidmət edir. Fikrin dəqiqləşdirilməsi və yazıçının vermək istədiyi hiss-həyəcanın, emosiyanın daha da gücləndirilməsi; b) Sinonimlərə eyni söz və ifadənin təkrarlanmasının qarşısını almaq məqsədi ilə müraciət olunur" [69, s.7].

Qantəmirin dili də nəsr dilidir, odur ki, onun dilində *ehsan* və *xeyrat* sözlərinin həmcinsləşməsinin hansı məqsəddən irəli gəldiyinə diqqət edək. Hacının vəsiyyətnaməsindən mənfəətini təmin edə bilməyən, öz umacağını şəriət və savabın ayağına yazan Şeyx ehsan verilməsinin vacibliyini mənaca üst-üstə düşən *ehsan və xeyrat* sözləri vasitəsi ilə təkrarlayır. Amma bu mətndə təkrar yox, müəyyən situativ məqamın tələbi kimi görünür. Belə ki, Şeyx ehsanın verilməsinin vacibliyini vurğulamaq məqsədi ilə eyni məna-məzmunlu sözlərin təkrarından istifadə etmişdir.

Məlumdur ki, sinonimlər bütün məqamlarda bir-birini əvəzləyə bilmir. Məsələn, *gözəl, qəşəng, yaraşıqlı* sözləri sinonim olsalar da, *gözəl əsər* dediyimiz halda *qəşəng, yaraşıqlı əsər* deyə bilmirik. Əlamət bildirən bu sözlər müəyyən məna çalarları ilə bir-birindən fərqlənirlər. Ancaq əşya adı bildirən sinonim sözlər çox zaman bir-birini asanlıqla əvəzləyə bilir, ona görə ki, onlar müəyyən məna çalarlığına görə bir-birindən fərqlənmir, sinonim cərgə yaradaraq eyni əşyanı ifadə edirlər. Bu cür eyni məfhum və məzmunu ifadə edən, bir-birini asanlıqla əvəzləyə bilən sinonimlərə Qantəmir dilində də tez-tez rast gəlinir.

"O da Qara Hüseynin çörəyini kəsmişdi və halbuki o öz əqidəsi, məsləki yolunda duz-çörək məsələsini yadına belə gətirməyirdi [88, s.117].

Bu cümlələrdə işlənmiş *əqidə, məslək* sinonimlərində eyni məfhumun təkrarı onların daşıdığı fikri vurğu altına salır. Bir məqama diqqət edək ki, poetik dildə eyni anlayışın sinonimlər vasitəsi ilə deyil, eyni sözlər vasitəsi ilə təkrarından da istifadə edilir. Məsələn:

Mən dönmərəm, sən dönməzsən,

Yaşa könül, yaşa könül! [108, s.168].

Bu misralarda *yaşa könül* sözlərinin təkrarlanması bədii təkrir hesab olunur və əsərə bədii-estetik gözəllik gətirir. Demək, sinonim və bədii təkririn oxşar cəhəti

onların hər ikisində eyni anlayışın təkrar olunmasıdır, fərqli cəhət isə bu təkrarın daşıdığı məqsəddir. Bədii təkrir mətnə bədiiliyi qüvvətləndirmək vasitəsi kimi, sinonim isə fikri qüvvətləndirmək, müxtəlif çalarda təqdim etmək vasitəsi kimi daxil olur. Ədəbiyyatşünaslıq elmində sinonimdən bədii mətndə istifadənin izahında deyilir: *"Sinonimdən yazıçı ifadə etmək istədiyi mənanı, fikri daha dəqiq, daha bədii vermək üçün istifadə edir"* [102, s.194]. Fikrimizcə, bu mülahizədə bədii mətndə sinonimlərin işlənmə məqsədi incəliyinə qədər öz izahını tapmamışdır. Qantəmirin dilində sinonimlərin işlənmə məqamını incəliyərkən görürük ki, o, fikrin dəqiqliyinə yox, fikrin qüvvətlənməsinə xidmət edir.

Bu bir mövizənin müqəddəməsi, başlanğıcıdır [88, s.169].

Bu cümlədə *müqəddimə,* yaxud *başlanğıc* sözlərinin ayrılıqda işlənməsi belə fikri kifayət qədər dəqiq ifadə edir. Müəllif fikri sinonim sıralanmasında verməklə onun qüvvətli ifadəsinə nail olmuşdur.

Baxdığımız nümunələrdə *əqidə, məslək* və *ehsan, xeyrat* sözləri ərəb mənşəli olduğu halda, *müqəddəmə, başlanğıc* sinonim sıralanmasında müqəddəmə ərəb mənşəli, başlanğıc isə türk mənşəli sözdür. Həm də *müqqəddimə* sözü dilimizdə kifayət qədər işləklik qazanmadığından kütləvi anlaşıqlığa malik deyildir. *Başlamaq* feilindən yaranan milli mənşəli *başlanğıc* sözü isə sanki yazıçının dilinin qəlizləşməsinə imkan vermir, onun kütlə üçün anlaşıqlığını təmin edir.

Qantəmirin dilində bir cümlə daxilində bir neçə sinonim sıralanmasına da rast gəlirik.

Alim məclisində, üləma yığıncağında ağsaqqal dinməz, danışmaz, qulaq asar [88, s.169].

Bu cümlənin tərkibinin çox hissəsi sinonimlərdən ibarətdir. Belə ki *qulaq asmaq və ağsaqqal* sözlərini çıxmaq şərti ilə digər sözlər burada sinonim cərgə yaratmışdır. Elmi ədəbiyyatda da bir cümlədə bir neçə sinonim cərgənin işlənməsi belə izah olunur: *"Oxucuda emosional-ekspressiv hiss yaratmaq üçün sinonimlər həmcinc üzvlü cümlələrdə işlədilir.... Deməli, sinonimlərin oxucuda emosional-ekspressiv hiss yaratmaqda böyük əhəmiyyəti vardır və bu məqsədlə eyni bir cümlədə bir neçə sinonim işlədilir"* [107, s.187]. Qantəmir də sözügedən cümlədə məhz bu

vasitədən istifadə etmişdir. Həm də cümlədə sinonim cərgənin sintaktik konstruksiya – söz birləşməsi vasitəsilə yaradılması emosional-ekspressiv təsiri daha da artırmışdır. *Alim məclisində və üləma yığıncağında* ikinci növ təyini söz birləşməsi şəklində sinonim cərgə yaratmışdır. Bu birləşmə daxilində sinonim kimi görünən *alim* və *üləma* sözləri əslində sinonim cərgə təşkil etmir. *Alim, üləma* sözləri ərəb mənşəlidir və *üləma* sözü *alim* sözünün cəm formasıdır. Demək, bu sözlər eyni anlayışın müxtəlif kəmiyyət kateqoriyalarında ifadəsidir. Ancaq baxdığımız mətndə onlar sinonim kimi görünür. Belə ki, ərəb mənşəli *məclis* sözü milli mənşəli *yığıncaq* sözünün sinonimidir və bu sözlərin semantikasında bir topluluq, çoxluq anlamı var. Demək, *alim məclisində* birləşməsində *alim* sözü öz qrammatik formasına görə kəmiyyətcə təkdə olsa belə, *məclis* sözünün semantikasındakı topluluq anlamı *alim* sözü ilə *üləma* sözünü kəmiyyət və məzmunca bərabərləşdirir və bu sözlər bu cümlədə mətni-üslubi sinonim kimi görünür. Demək, *alim məclisində* birləşməsi ilə *üləma yığıncağında* birləşməsinin ifadə etdiyi məna üst-üstə düşür və onlar bu cümlədə sinonim cərgə yaradır.

Baxdığımız cümlədə *dinməz, danışmaz* sözlərinin sinonimliyi də cümlənin emosional-ekspressiv təsirini artırmışdır.

Qantəmirin dilinin leksik-üslubi imkanları üzərində apardığımız tədqiqatda bu qənaətə gəldik ki, yazıçı öz əsərlərinin dilini ədəbi dil normaları çərçivəsinə salmamış, yaxud ədəbi dil bazası ilə məhdudlaşdırmamışdır. Onun əsərlərində poetik leksikanın əsas materialı kimi danışıq-məişət leksikası çıxış edir. Qantəmir ümumxalq dilini ədəbi-bədii müstəviyə çıxarmış və bu müstəvidə bu dilin imkanlarını nümayiş etdirmişdir. Müəllif danışıq ifadələri, vulqar sözlər, sinonimlər, frazeoloji birləşmələr, antroponimlər kimi leksik vahidlərdən həm kommunikativ, həm də linqvopoetik effekt yaratmaq üçün məharətlə istifadə edə bilmişdir.

2.3.Qantəmir nəsrinin sintaktik-üslubi xüsusiyyətləri

Fikrin bədii müstəvidə məqsədli şəkildə ifadəsində sintaktik vahidlər bilavasitə iştirakçıdırlar, bədii fikrin məzmununun uyğun sintaktik konstruksiyada həlli onu öz

hədəfinə çatdırır. "*Bədii əsərin sintaksisi bədii formanın bir elementidir. Hər yazıçının daha çox xoşladığı cümlə konstruksiyaları olduğundan bədii əsərin sintaksisi yazıçının fərdi üslubunun ayrılmaz komponentidir. Bədii əsərin sintaksisi linqvistik mahiyyətdən daha çox, estetik mahiyyət kəsb edir. Sintaktik vahidlərin məzmunlu birləşməsi bütövlükdə mətni yaradır və məzmunlu forma faktı və məzmununun təşkili forma-məzmun əlamətindən hər şeydən öncə onu tələb edir ki, üsubi təhlil məzmunun tərtibi xarakterində olsun*" [121, s.92].

Bədii dil nümunələrinin nitqə çevrilməsi prosesi bədii yaradıcılıq sahəsində yazıçının fərdi üslub məsələsidir və bu, hər sənətkarda fərqli şəkildə özünü biruzə verir.

Ümumiyyətlə isə ədibin yaradıcılıq üslubunun tipikləşməsində onun dilinin sintaksisinin xüsusi əhəmiyyəti var. Həm də yazıçının nəsr dilində sintaksisinin müəyyən olmasında ona məxsus bədii yaradıcılıq üsulunun da mühüm əhəmiyyəti vardır.

Realist-satirik bədii yaradıcılıq üslubuna malik Qantəmirin nəsr dilinin sintaktik üslubu da xalq danışıq dilinə əsaslanır.

Artıq əvvəlki bölmədə də qeyd etdiyimiz kimi, Qantəmirin dili özünün xəlqi dil elementləri ilə zəngindir. Onun sintaksisi də öz xəlqiliyi ilə seçilir. Qantəmir satirik sənətkardır, satira isə mürəkkəb fikirlərin sadə bədii formasıdır. Fikrin sadə formasının alınmasında isə yalnız leksik vahidlərin sadəliyi kifayət deyildir. İfadə tərzinin sadəliyinin ən əsas şərti sintaktik konstruksiyaların tipindən keçir. Çünki ən sadə leksik vahidlərlə fikrin mürəkkəb ifadə formasını almaq mümkündür. Yaxud da, əksinə, ən mürəkkəb leksik vahidləri elə sintaktik konstruksiyalarda işlətmək olar ki, o, sadə və anlaşıqlı şəkil qazansın.

Qantəmir nəsrində fikrin xalq danışıq dilindən gələn sadə leksik vahidlərlə ifadəsi xəlqi sintaktik fiqurlarla tamamlanmışdır. Yazıçının nəsr dilində işlədilən xalq dilindən götürülmüş nümunələrin rəngarəngliyi sintaksisinin də sadəliyini şərtləndirir. Məsələn:

Beş manatı alıb qoydum cibimə. Bacım, anamın gözünü oğurlayıb, arağımı gətirdi. Çünki o bilir ki, mən vurmamış şəhərə çıxan deyiləm. Yumurta boyda bir

qırmızı pamidoru yarı bölüb üstünə bir çimdik duz səpdim. Arağı atdım, gözüm yaşardı, lap ağzımı pörtlədi. Bir tikə çörəyi tutdum burnuma, pamidoru da ötürdüm getdi [88, s.187].

Göründüyü kimi, hər cümlədə xalq danışıq kəlməsi və yaxud ifadəsi iştirak etmişdir. Təbii ki, onlar sadə quruluşlu sintaktik vahidlərdə öz ifadə formasını axtarıb tapır.

Qantəmir nəsrində müəllif dili yalnız xalq danışıq dilindən gələn sözlər hesabına yox, öz təfəkkür tərzinə görə də xəlqidir. Buna görə də hətta loru danışıq kəlmələri və ya ifadələri olmayan məqamlarda belə, Qantəmirin nəsr dilinin sintaksisi sadədir. Lakin qeyd etməliyik ki, Qantəmir yaradıcılığında dil-təfəkkür tərzinin sadəliyi bədii analizlərin primitivliyi ilə müşahidə olunmamışdır.

Qantəmirin yaradıcılığında sintaksisin xəlqiliyini göstərən digər vasitə onun mövzusu ilə əlaqədardır. V.P.Belyaninin fikrinə görə bədii əsərin dili onun ideyası və mövzusu ilə sıx əlaqədardır. Bu səbəbdən hətta mövzu belə sintaktik vahidlərin seçimində mühüm rol oynayır.

Qantəmir yaradıcılığında mövzu-problem xalq həyatından götürüldüyündən əsərlərində mürəkkəb sintaktik birləşmələrə və cümlələrə ehtiyac duyulmur. Xalq məişətində təzahür edən problemlərin zahiri sadəliyini, eyni zamanda, sintaksisin xalq dilinə yaxınlığını ifadə edir.

Ədib nəsr dilinin bədii sintaksisini olduqca sadə, ritmik bir tərzdə qurmağa nail olmuş, belə ki qısa, lakonik cümlə nümunələrini bacarıqla işlətmişdir. Bu tip nümunələrə həm müəllif, həm də obrazların nitqində rast gəlmək olar. Məsələn:

Obrazın nitqində:

-Xeyr, qardaş! Məndən başqa bir ağ çarşablı arvad da var. Evə getdi ki, qab gətirsin. Bax, qardaş! O... mənim dalımdır. Bir qoca arvad da mənim qabağımda var. O da bu urusun dalıdır. Mən ondan dalıyam [88, s.275].

Müəllif nitqində:

Demək, ağ çarşablı arvad bu imiş. Heç bəlkə buraya gəlməyibdir. Özü də evdə çörək bişirir [88, s.275].

Qantəmir yaradıcılığında xalq danışıq dilinin spesifik sintaktik xüsusiyyətlərindən biri də söz sırasının pozulmasıdır. Qantəmir hekayələrinin dilini nəzərdən keçirən Əbdüləzəl Dəmirçizadə "Gülmək və şarlatanlar" məqaləsində Qantəmirin nəsr dilində söz sırasının pozulması hallarına rast gəlindiyi, əsasən də xəbərin yerinin dəyişkən olduğu göstərilir. Yazıçının nəsr dilindəki cümlələrdən aydın olur ki, xəbər həmişə cümlənin axırında deyil, əvvəlində və ortasında da işlənə bilir. Ə.Dəmirçizadə onu da doğru olaraq vurğulayır ki, Qantəmirin nəsr dili dilimizin sintaksisini tədqiq etmək üçün zəngin material verir.

Xülasə, gələk mətləb üstünə [88, s.274].

Bu cümlədə xəbərin önə keçməsi müəllif təhkiyəsini canlı danışıq dilinə yaxınlaşdırmışdır.

Qantəmir nəsrində nağılvari bir təhkiyə tərzinə də rast gəlinir.

Adam da var, adam da. Kiminin dili var, qələmi yoxdur, kiminsə qələmi var, dili yoxdur. Və kiminin nə dili var, nə qələmi [88, s.169].

Bu cümlələr gələcək hadisələrə maraqlı, sirli bir müqəddimə verir.

Yazıçının üslubunda müşahidə olunan maraqlı məqamlardan biri də əlamətlərin təsvirinin təyin yox, ismi xəbərlə ifadəsidir.

Amma o, məharətlidir, zəkidir, gözüaçıqdır, cəld və zirəkdir [88, s.176].

Onun boyu azca uzun, şalvarı azca qalife, çənəsi azca yastı, bədəni azca arıqdır [88, s.176].

Ümumiyyətlə, onun yaradıcılığında həmcins xəbərlərə üstünlük verildiyini müşahidə edirik. Yazıçının əsərlərində həm ismi, həm də feili xəbərlərin həmcinsləşdiyini görürük.

Sən xamsan, nabələdsən, bişməmisən [88, s.176].

Kobudam, yonulmamışam, bəlkə doğrudur [88, s.159].

Nəsr dilinin imkanları çərçivəsində onun poetik gücünü artırmağa çalışan Qantəmir yaradıcılığında xəbərin bədii təkrir şəklinə rast gəlirik. "*Eyni sözlərin, ifadələrin əsərdə ustalıqla, şüurlu təkrarı təkrir adlanır. Təkrir lüzumsuz təkrardan fərqli olaraq, bədii əsəri mənaca daha da genişləndirir, onun dilini və üslubunu daha da qüvvətləndirir*" [65, s.100].

İşlər sürətlə dəyişir, Aybikə də dəyişir, onun fikri də dəyişir [88, s.322].

Adam lap ürəkdən kommunist olsun, millətbaz olsun, idealist, sofiməzhəb olsun, şeyx olsun, peyğəmbər olsun, nə olur-olsun, yenə Hacı Əliqulu ona lazım olur [88, s.220].

Nə isə qonaqların hamısı ağıllı idi, hamısının gözlərindən od yağırdı, hamısı ciddi bir mübahisəyə hazırlanıb gəlmişlər kimi görünürdü [88, s.161].

Kitab şkafı hara, arvad hara, açarı hamama aparmaq hara? [88, s.283].

Bu cümlələrdə *dəyişmək, olmaq, hamı, hara* sözlərinin təkrarı dilin bədiiliyini qüvvətləndirmişdir.

Əbdüləzəl Dəmirçizadə "Gülmək və şarlatanlar" məqaləsində Qantəmirin cümlələrinin heç də rus, fars dillərinin təsiri altında qalan yazıçıların cümlələrinə bənzəmədiyini, bu cümlələrin bugünkü canlı dilimizin doğma cümlələri olduğunu qeyd edir.

Qantəmir yaradıcılığında bədii dilin canlılığını təmin edən vasitələrdən biri də xalq danışıq dilindən gələn ara sözlərdir.

Nə başınızı ağrıdım, sudda, kooperativdə, divanxanada, ağsaqqal arasında, qoçular yanında, müəllimlər qurultayında hər yerdə kişi sözünü keçirməyə çalışırdı [88, s.187].

O birindən Hindistanımı, İranımı, Misrimi, Əfqanımı, imam əzizidir, böhtan deyə bilmərəm, ancaq mən onu deyə bilərəm ki, mərhumun atdan məqsədi ingilis millətidir [88, s.235].

Ümumiyyələ, Qantəmir nəsrinin sintaktik quruluşunun əsas və keyfiyyətli xüsusiyyətlərindən biri odur ki, hətta üçüncü şəxsin dilindən verilmiş müəllif təhkiyəsi oxucu ilə söhbət tərzindədir. *Hacı Lələ* hekayəsindən bir parçaya diqqət edək:

Hacı Əliqulu, doğrudur, bir xarici ilə əl-ələ görüşəndə gəlib evdə əlini sabunla təmizlərdi, düzdür ki, xaricinin əlinə dəyən stəkanı yeddi dəfə suya çəkməmiş ağzına vurmazdı [88, s.221].

Müəlllif fikrin ifadəsinə *doğrudur, düzdür ki* kimi ara sözlərin sintaktik vəzifəsini əlavə etməklə təhkiyənin söhbət şəklinə nail olmuşdur.

Amma bəzən təhkiyə sintaksisi öz yerini dramaturji sintaksisə verir. Yazıçı, adətən, obrazlar arasında söhbətin mübahisəli məqamlarının bədii dil həllini bu sintaksisdə qurur.

Xanım Əminə hekayəsində qadınlar arasında davanın kulminasiya həddində müəllif bədii sintaksisin nəsr formasını dramaturji forma ilə əvəzləyir, hətta qəhrəmanın hisslərini remarkada verir:

Xanım Əminə: - (Çox hiddətli). İt sənin ərindir, oğraş da...

İşçi qadın: -Sən özünsən ki, bunu ərindən çarşabınla gizlədirsən! [88, s.280].

Kolxozıstan povestində də biz bədii sintaksisin bu formasını daha çox müşahidə edirik. Əsərin İclas hissəsində Zeynəblə Əbdülxalıqın mübahisəsində bu daha aydın görünür. Məsələn:

Zeynəb xanım: - Bəzi yoldaşlar (!) (Əbdülxalığa işarədir) arteli belə başa düşmüşlər ki, guya bura müştərək bir baqqal dükənidir, hər kəs nə qədər sərmayə qoysa, o qədər və o nisbətdə qazanc almalıdır, əmək və zəhmət heç də nəzərə alınmamışdır [88, s.89].

Göründüyü kimi, Xanım Əminə hekayəsindən və Kolxozıstan povestindən misal gətirilən bu cümlələrdə fikir nəsr sintaksisinə uyğun olaraq tabeli mürəkkəb cümlə konstruksiyasında, məsələn, *Xanım Əminə dedi ki,* yaxud da *Zeynəb xanım dedi ki,* baş cümlələrindən istifadə edilərək verilməmiş, dramatik sintaksisdə olduğu kimi nitqin kimə aid olduğunu bildirən antroponimdən iki nöqtə durğu işarəsi vasitəsi ilə ifadə olunmuşdur.

Qantəmirin üslubunda sintaksisi müəyyənləşdirən əsas xüsusiyyətlərdən biri də fikrin aydın, anlaşıqlı ifadəsidir. Fikrin daha obrazlı ifadəsini almaq üçün məsəllərə müraciət edən ədib onlardakı fikrin oxucular üçün kifayət qədər anlaşıqlı olmayacağını düşünərək, məsəli və onun izahını mürəkkəb cümlə konstruksiyasından istifadə edərək vahid cümlə şəklində verir.

Yorğa Həşimin hamının boynunda haqqı var, rəhmətliyin bir əli su idi, bir əli od, hamının işinə yarayırdı [88, s.317].

Elmi ədəbiyyatlarda doğru olaraq qeyd olunur ki, "*sintaktik kateqoriyaların üslubi xüsusiyyətlərindən bəhs olunarkən onları qrammatik cəhətdən də təhlil etmək*

lazımdır. Bu zaman sintaktik vahidin üslubi-qrammatik əlamətləri birgə götürülür. Birgə izah olunan sintaktik vahidin iki vəzifəsi: üslubi və qrammatik vəzifəsi diqqətdə qalmalıdır" [69, s.11].

Qantəmirin nəsr dilinin sintakisində ismi birləşmələrin izafət tərkibləri şəklində ifadəsinə də rast gəlirik. Yazıçının yaradıcılıq dövründə bu birləşmələr ədəbi dilimizdə əsasən özünü milli formalarda ifadə edirdi. Akademik Tofiq Hacıyev bu sintaktik konstruksiyada dövrün ədəbi dil təmayülü haqqında yazır: "*Bu zaman həm bədii, həm də elmi üslubların sintaksisində aparıcı istiqamət izafət tipli söz birləşmələrinin təcrübi olaraq işlənmədən, istehsaldan çıxmasını tələb edirdi. Beləliklə, milli ədəbi dil öz sintaksisini milli zəminə çatdırır, Azərbaycan ədəbi dilində izafətin son nəbzləri vurur, dilimizin sintaktik sistemində bu hadisə öz həyatının sonunu yaşayırdı* " [60, s.166].

Son nəbzini vuran bu sintaktik konstruksiyaya yazıçı bəzən müəyyən üslubi məqsədlərlə, bəzən isə klassik dil ənənələrinin təsiri ilə müraciət etmişdir.

Heyəti-rəyasətə elə qəribə təkliflər gəlib ki, bunları oxusanız, mat qalarsınız [88, s.93].

Həzrət Adəmdən yetmiş min il əvvəl xəlq olunan bir məlaikə müsibəti-Kərbəla üçün həmişə ağlayıb və bu çaylar onun göz yaşından əmələ gəlib [88, s.169].

Heyəti-rəyasətə, müsibəti-Kərbəla izafət tərkibləri olub, Azərbaycan türkcəsində ikinci növ təyini söz birləşməsinin sintaktik quruluşuna (rəyasət heyəti, Kərbala müsibəti) uyğun gəlir.

Bir nüansa da diqqət edək ki, müasir Azərbaycan türkcəsində *heyəti-rəyasəti* anlayışı öz ifadə vasitəsini deyil, öz ifadə formasını dəyişmiş, belə ki, leksemlər qalmış, şəkilçilər isə milliləşərək ikinci növ təyini söz birləşməsini – "rəyasət heyəti" birləşməsini yaratmışdır.

Həmin dönəmdə izafət birləşmələrinin daha çox mürəkkəb adların ifadəsi üçün işləndiyini müşahidə edirik. *Heyəti-rəyasət, müsibəti-Kərbala* və *cəmiyyəti-xeyriyyə* birləşmələri həm də mürəkkəb adlardır. Mürəkkəb adlar şəklində olan izafət tərkiblər Qantəmir yaradıcılığına dini mövzularla bağlı da daxil olmuşdur. Bu mövzuda yazılmış Buğda quyusu hekayəsində qəlibləşmiş izafət birləşməsinə rast gəlirik.

Əhli-beytin susuzluğunu suzişli-suzişli nağıl etdi [88, s.174].

Ancaq Qantəmirin nəsr dilində izafət birləşmələrinə yalnız mürəkkəb ad şəklində rast gəlindiyini demək olmaz.

Həbsdən azad olundu, bir qədər sonra vicudi-paki firqədə natəmiz göründü [88, s.82].

Bu cümlədə *vicudi-paki* birləşməsi *pak vücud* birinci növ təyini söz birləşməsinin izafət konstruksiyasında ifadə olunmuş formasıdır.

Qantəmir dilində izafət birləşmələri mürəkkəb feilin tərəfləri kimi də çıxış edir:

Qadınlar məclisində qadın azadlığı haqqında məruzədə elani-eşq edən dərəcədə ləzzətli danışardı [88, s.199].

Fars dilinin bu sintaktik formasından Qantəmir nəsrində üslubi məqsədlərlə də istifadə olunmuşdur. Dəfatirati-üzviyyə hekayəsində bir qalaq saxta sənəd-sünəd düzəltməklə ictimai qüsurlarını və əyri işlərini sığortalayan qəhrəmanın xarakterinin cizgilərini *dəfatirati-üzviyyə* izafət tərkibinin anlaşılmazlığında ifadə etmişdir.

Hacı Lələ hekayəsində isə müəllif izafət birləşməsinin nitqdə məqsədyönlülüyünü əsərin mövzusuna çevirib. Məsələn:

Bəzi şəxslər də buna "Hacı ağa" deyirlər. Bu sözün özündə bir ehtiram var. Möhtərəm şəxslərə həmişə ehtiram edərlər. Bu ehtiram bəzən mübaliğə vasitəsi ilə ifadə olunur. Məsələn, "Ağayi-Hacı Əliqulu ağa." Bu sözün ləzzəti bir başqadır! Bu ləzzəti hər adam anlamaz. Qələmdani-mələhəti anlamaq üçün bəzən ədiblik kifayət etməz [88, s.220].

Hacı ağa və *Ağayi-Hacı Əliqulu ağa* birləşmələrində məzmun fərqinin "ləzzət"ini həm də onun sintaktik quruluşunun fərqi tamamlayır. Yazıçı hələ də şüurlarda fars dili ladlarına olan münasibətə istehza edir və onun bu istehzası sonrakı cümlədə *qələmdani-mələhəti* izafət tərkibində davam edir.

Qantəmir nəsrində az da olsa, sintaktik əlaqələrin qeyri-səlisliyinin yaratdığı fikir dolaşıqlığına da rast gəlirik. Mirzə Aves hekayəsində mərhum alim Salisbori de Kemberlinin Şərq haqqında fikirlərini *Eşşək qazanar, at yeyər* məsəli ilə tamamlayan ədib sonrakı cümlədə yazır:

Mərhumun atdan məqsədi ingilis millətidir [88, s.235].

At sözünün ingilis millətinə işarə olunması fikrini *mərhumun məqsədi* üçüncü növ təyini söz birləşməsinin tərəfləri arasında işlənən *at* sözünün yaratdığı idarə əlaqəsi anlada bilmir.

Hacı Lələ hekayəsində də cümlənin sintaktik forması fikrin ifadəsini düzgün şəkildə çatdıra bilmir.

Qonşumuz Hacı Fətulla vəfat edən kimi olmuşdu [88, s.222].

Bir cümlə üzvünün xəbəri daxilində iki köməkçi feilin: *etmək və olmaq* sözlərinin işlənməsi qrammatik, vəfat etmək sözünə isə onun semantikasına uyuşmayan *kimi* bənzətmə qoşmasının yanaşması leksik normanın pozulmasına səbəb olmuşdur.

Aşağıdakı cümlədə də *kimi* qoşmasının sintaktik vəzifəsi yerinə düşmür.

Bu sözdən mən bir qədər maraqlanan kimi oldum, ayağımı saxladım [88, s.221].

Burada *maraqlanan kimi* sintaktik vahidinin ifadə etdiyi şübhə məzmunu əsas sintaktik bütövün semantikasına ziddir.

Qantəmir nəsrində sual cümlələrinin də üslubi imkanlarından istifadəsi yetərincədir. Bu sintaktik priyomlar oxucunun fikrini verilən hadisəyə yönəltmək, onu daha da maraqlandırmaq üçün işlədilmişdir.

Mirzə Aves hekayəsinin əvvəlində yazıçı əsərin qəhrəmanı və gələcək hadisələrə oxucu diqqətini kilidləmək üçün sual cümləsinin maraqlandırmaq imkanlarından istifadə etmişdir:

He kayəmizin başını M.Kəşaninin xatirat dəftərindən götürmüşəm. Kəşani kimdir? Xatirat dəftərində daha nə kimi şeylər yazılmışdır? O, Bakıya nə üçün gəlmişdi? [88, s.234].

Mürəkkəb adın üslubi imkanınından yararlanmaq üçün yazıçı onu ərəb-fars sintaktik konstruksiyası şəklində ifadə etmişdir:

Bu möhtərəm şəxs "Əsseyid axund Mirzə Əbdülfərəci-Şirazi" idi [88, s.170].

Qantəmir nəsrinin sintaktik mənzərəsi üzərində aparılan araşdırmalardan bu qənaətə gəlmək olur ki, yazıçının nəsr dili sadə və çevik sintaksisə malikdir. Bu sintaksisdə dilin leksik və morfoloji əlamətləri dinamik bir hərəkət qazanır. Onun

nəsrində fikrin ifadəsi sintaktik konstruksiyaların dolanbaclarından keçmir. Xalq dilinin sintaksisinə əsaslanan Qantəmir yaradıcılığında fikir qısa, az sözlü, sadə anlaşıqlı sintaktik vahidlərlə ifadə olunur.

Tədqiqat işinin bu fəslində əldə edilən əsas elmi nəticələr "Qantəmir nəsrinin fonetik və morfoloji üslubi xüsusiyyətləri", "Qantəmir nəsrinin sintaktik-üslubi xüsusiyyətləri", "Qantəmirin nəsr dilinin xəlqiliyi və bəşəriliyi", "Qantəmirin nəsr dilində vulqarizmlərin üslubi xüsusiyyətləri", "Qantəmirin nəsr dilinin leksik-üslubi xüsusiyyətləri", "Qantəmirin nəsr dilində işlənmiş dialektizmlərin üslubi əhəmiyyəti", "Qafur Əfəndiyevin nəsr dilində danışıq leksikası", "Qantəmirin nəsr dilində sinonimlərin üslubi imkanları", "Приемы комического и стилистические особенности антонимов в языке прозы Кантемира" məqalələrində öz əksini tapmışdır.

III FƏSİL. QANTƏMİR YARADICILIĞINDA KOMİK BƏDİİ DİL VASİTƏLƏRİ

3.1. Sözlərin komik potensialı

Qantəmirin bədii təfəkkürü, əsasən, komik hərəkət planına malikdir. Onun bədii yaradıcılığının böyük hissəsi komik bədii ifadəetmə üzərində qurulmuşdur. Aydındır ki, mətnin komik ifadəsində bədii yaradıcılıq maneraları ilə yanaşı, dil materialları da fəal şəkildə iştirak edir. Yəni dil materialları bu üslubda özünün yalnız leksik-qrammatik funksiyalarını yerinə yetirmir, həm də bədii vasitəyə çevrilir. Komizmin elmi-nəzəri tədqiqatlarında dil məsələləri həmişə önə çəkilmişdir.

"*Komizmi ifadə etməyin vasitə və üsulları vardır. Vasitə dil, üsul isə süjet hadisədir*" [82, s.137].

"*Üsullar da xarakterinə görə müxtəlifdir. Aydındır ki, bədii əsərdə bütün komik üsullar dillə bağlı olduğu kimi, bədii əsər də dil materialları əsasında yaradılır. Amma bütün komik üsullar leksik və qrammatik vasitələrlə eyni dərəcədə aktiv əlaqədə olmur*" [143, s.474-478].

Dil materialları əsərin komik bədii strukturunda poetik fiqur səviyyəsindədirsə, onun tədqiqatı ədəbiyyatşünaslığın, yoxsa, dilçiliyin araşdırma obyektidir? - sualına dəqiq cavabı prof. Qəzənfər Kazımov verərək, estetikanın, ədəbiyyatşünaslıq və dilçiliyin tədqiqat obyektinə aid olduğunu bildirmişdir.

Onu da qeyd edək ki, komik əsər realist bədii yaradıcılıq üslubunda yarandığından burada dil faktları linqvistik tədqiqatlar üçün daha zəngin material verir. Romantik üslubdan fərqli olaraq realist üslubda dil müəyyən çərçivələrə salınmış formada, cilalanmış şəkildə deyil, öz canlı, təbii boyaları ilə bədii əsərdə iştirak etdiyindən burada dil özünün üslubi imkanlarını, qrammatik forma zənginliyini ortaya qoyur. Xüsusən də, realist-satirik əsərlərdə dilin üslubi imkanları, qrammatik forma zənginliyi daha güclü şəkildə özünü göstərir.

Qantəmir nəsrinin də komik-satirik təhkiyəsi linqvistik tədqiqatlar üçün dəyərli mənbədir. Onun yaradıcılığı Azərbaycan ədəbiyyatı tarixinin elə bir dövrünə təsadüf

edir ki, ondan əvvəl milli satiramız böyük bir ədəbi məktəb - mollanəsrəddinçilər məktəbini keçmişdi. Bu məktəbin Qantəmirin satirik üslubunun formalaşmasında rolu olduğu kimi, həm də dil-üslub tərzinə də təsiri mübahisəsiz faktdır. Ancaq onu da qeyd edək ki, Qantəmirin komik təhkiyəsi böyük bir ədəbi məktəbin təsirində və davamında yaransa da, onun komizmində bədii dil materialları fərdi-yazıçılıq üslubuna malikdir. "*Hər müəllifin öz "alətləri" vardır və çöx vaxt yazıçı nədən istifadə etdiyi üzərində heç düşünmür də*" [82, s.137].

Qantəmirin nəsrində komizmin yaranmasında komik üsullarla yanaşı və komik vasitələr də hərəkətdədir və bəlkə də, daha fəal hərəkətdədir. Onun komizmində gülüş qammalarının hərəkət ağırlığı bədii dil materialları üzərinə düşür. Yazıçının sözün ekspressiv çalarından, poetik sintaksisin üslubi ahəngindən, söz oyunundan istifadə maneraları Azərbaycan dilinin komik potensialını öz böyük sələflərindən sonra bir daha və yeni şəkildə üzə çıxarır.

Tədqiqatımızın əvvəlki fəsillərində də qeyd etdiyimiz kimi, Qantəmir yaradıcılığı özünün demokratizmi, xalq məişətinə yaxınlığı ilə seçilir. Yazıçının nəsrində satirik dilin qurulmasında xalq danışıq dili əsas baza rolunu oynayır.

Tofiq Hacıyev yazır: "*...Xalq dilinə, onun canlı danışığına, xalq məişətinə satira dili, komediyanın ifadə vasitələri daha yaxındır*" [64, s.62].

"*Gülüşə hədəf olan qəhrəmanlar yazıçı tərəfindən ancaq təsvir edilən hadislərlə deyil, həm də cümlələrin, sözlərin sırası, mənası vasitəsilə də lağa qoyulur, gülünc vəziyyətə salınır. Məhz buna görə də satirik əsərin müəllifindən ümumxalq dilinə dərindən bələdlik, hər sözdən sərrast atılan güllə kimi istifadə etmək bacarığı da tələb olunur*" [13, s.113].

Onu da qeyd edək ki, Qantəmir xalq danışıq dilindən yalnız onun daşıyıcıları olan obrazların nitqində deyil, həm də təhkiyəçinin dilində istifadə etmişdir. Canlı xalq dili üzərində qurulan bu təhkiyə komik dil-üslub tərzinə malikdir.

Qantəmir bəzən danışıq dilinin ən loru ifadələrini müəllif təhkiyəsində verməkdən çəkinməmişdir. Nisə xala hekayəsində müəllif kəndlinin zahiri təsvirinin komik portretini belə təsvir edir.

Mən olan meydançaya əvvəllər şəhər vağzalı tərəfindən gələn motalpapaq bir kəndçi çıxdı. Üz-gözündən kolxoz yağırdı [88, s.264].

Yazıçının obrazın təsvirini *kolxoz* sözü ilə ümumiləşdirməsi həm də onu təsdiq edir ki, hələ keçən əsrin otuzuncu illərində *kolxoz* sözü avamlığın, geridə qalmışlığın simvoluna çevrilmişdir. Hazırda *kolxoz* sözü xalq danışıq dilində də sözünün və hərəkətinin yerini bilməyən insanlara işarə ilə işlədilir.

Qantəmirin satirasında təhkiyənin iki formasından: birinci və üçüncü şəxsin təhkiyəsindən istifadə edilmişdir. Ağamusa Axundov satirik əsərlərdə müəllif təhkiyəsinin bu formaları haqqında yazır: "*Satira dilinin çətinliyi bir də ondadır ki, satirik əsərdə yazıçı ilk plandadır. Təsadüfi deyildir ki, həmin əsərlər çox vaxt ya birinci şəxsin dilindən yazılır və yaxud da müəllif hər addımda təsvir olunan hadisələrə, obrazların hərəkət və sözlərinə müdaxilə edir*" [13, s.114].

Qantəmir nəsrində üçüncü şəxsin - yazıçının təhkiyəsi belə birinci şəxsin - obrazın təhkiyəsi qədər xəlqidir və komik-dil detalları ilə zəngindir. Müəllif dilin bu xəlqiliyi və komikliyi bir araya yalnız fonetik, leksik elementlərə, sintaktik konstruksiyalara müraciət etməklə gətirmir, həm də predmetə yanaşma, nəqletmə tərzi ilə bədii dilin bu formasını yarada bilir. Yazıçı təhkiyəsində ifadə loruluğundan, hadisələrə münasibətdə məişət düşüncəsindən istifadə maneraları dilin komik fonunu gücləndirir.

Xanım Əminə hekayəsində müəllif canlı satirik təhkiyə forması əldə etmək üçün təhkiyəçini süjetə qəhrəman kimi daxil etmədən onu hadisələrin müşahidəçi-iştirakçısı mövqeyində qoymuşdur. Bu, müəllifə yazıçı təhkiyəsini III şəxsin dil çərçivəsindən çıxarmaq üçün lazım olmuşdur. Müəllif qeybətçi bir insan mövqeyində qoyduğu təhkiyəçinin dili ilə hadisənin komik pafosunu həm artırmış, həm də canlandırmışdır. Adətən, bədii əsərlərdə ciddi və yaxud intelligent mövqedə görməyə alışdığımız müəllifin bu hekayədə məişət düşüncəsi səviyyəsindəki nəqli gülüş doğurur. Təhkiyəçi mətləb-məzmuna keçməzdən əvvəl oxucusuna söyləyir:

Siz nə rəng verirsinizsə, veriniz, mənim ən çox xoşuma gələn şey arvad davasıdır [88, s.273].

Göründüyü kimi, burada, əslində, heç bir komik-satirik dil vasitəsi yoxdur. Amma cümlənin bütöv mətn kimi ovqatı komedikdir. Müəllif buna heç bir bədii dil vasitələrindən və söz oyunlarından istifadə etmədən, sadəcə bir kişinin qadın qeybətinə olan marağını səmimi bir etirafda verməklə nail olmuşdur. Müəllif bu tip etiraflardan əsərdə vaxtaşırı istifadə edir.

Heç bir şey almağa ehtiyacım yoxdur. Məqsədim ancaq qadınlar danışığına qulaq asmaq idi [88, s.275].

Qantəmir nəsrində müəllif təhkiyəsinin komik maneralarından biri də təbii və məlum hadisəni xüsusi vurğu altına salaraq söyləməkdir. Məsələn, Sürəyyanın qaynanası hekayəsində o, özü haqqında oxuculara deyir:

Oxuculara xəbər verməliyəm ki, mən ömrümdə gəlin olmamışam [88, s.329].

Göründüyü kimi, burada oxucu üçün xəbər olacaq heç nə yoxdur. Müəllifin kişi cinsinə malik olan birinin heç vaxt gəlin olmadığını ciddi bir intonasiya ilə deməsi əslində mövzu-məzmunun inkişafına yox, təhkiyənin komik tərzdə qurulmasına xidmət edir. Bu maneraya biz Xanım Əminə hekayəsində də rast gəlirik. Təhkiyənin ciddi intonasiyası altında qeyri-ciddi bir məzmunun yaratdığı ziddiyyət komik effekt doğurur.

Mənim anam özü də qadın idi. Bacılarım da qadındır [88, s.273].

Əslində, məlum bir şeyin ciddi bir tərzdə mühüm bir xəbər kimi nəqlinin doğurduğu komizmi müəllifin çox uğurlu olaraq seçdiyi qrammatik vasitə - *idi* hissəciyi daha da artırır və birinci cümlənin komik effekti ikinci cümləyə nisbətən qüvvətli səslənir. İkinci cümlədə oxşar fikir *-dır* xəbərlik şəkilçisi vasitəsi ilə ifadə olunmuşdur. Cümlələrin əsas informasiya yükünü daşıyan *qadın* sözünü xəbər şəklinə salan bu morfemlərin mətnin komik boyasına qatdığı çalar fərqi dildə *-dır* xəbərlik şəkilçisi ilə bu tip semantik yükə malik cümlələrin işlənmə praktikasının olmasıdır. Məsələn; *Mən insanam; Biz azərbaycanlıyıq.* Bu tip cümlələr ciddi mətnlərin də materialı ola bilir. Birinci cümlədə isə qadın sözünün keçmiş zaman anlamlı *idi* hissəciyi ilə işlənməsi sanki ananın başqa bir cinsə aid ola bilmə ehtimalını da yaradır və cümlənin komik tonunu artırır.

Komik başlanğıc yazıçının hekayələrində istifadə etdiyi uğurlu bədii priyomdur. Hərcayi əsərində müəllifin I şəxsin dilindən verdiyi bədii müqəddimə kifayət qədər komik effektə malikdir. Məsələn:

Mərdüməzarı axtarmaqla deyil, rast gəlməklədir. Quruluş etibarilə düz gəlməyən bu zərbi-məsəl məna etibarilə lap doğru və həqiqət imiş. Kaş ki mən o günü kinoya getməyəydim, getsəydim də, "hərcayi"yə rast gəlməyəydim. Gəlsəydim də, onun "evlənmək və qadın" haqqındakı xüsusi düşüncələrinə vaqif olmayaydım. Olsaydım da, onun sözlərini götürüb "Şərq qadını" məcmuəsinə yazmayaydım [88, s.160].

Hərcayinin xarakterinə *Mərdüməzarı axtarmaqla deyil, rast gəlməklədir* atalar sözündən giriş alması komik təhkiyə yaratdığı kimi, obrazın satirik xarakterini də çizir. Hərcayi ilə tanışlığının peşmançılığını yaşayan təhkiyəçinin hissləri bədii-linqvistik metodlarla komik effekt qazanmışdır. Bu cümlələrdə sözlərin dövriyyə şəkli - bir fikrin sonunda inkarşəkilli feilin digər fikrin başlanğıcında təsdiqi təhkiyəni canlandırdığı kimi əvvəlki cümlələrdəki gülüşü də davam etdirir.

Əsərə girişin gülüş ovqatı üzərində qurulması və oxucu əhvali-ruhiyyəsini bu ovqata kökləmək Qantəmir nəsrində hədəfə dəyən vasitələrdən biridir. Onun Şarlatan hekayəsinin ilk cümlələrindən biri budur:

Otağa əvvəla soyuq bir hava, onun arxası ilə də qonağım daxil oldu [88, s.283].

Cümlədəki təsvirin məzmununda, əslində, əhəmiyyətsiz bir detal - qonaqdan əvvəl soyuq havanın içəri daxil olması var. Müəllifin onu xüsusi hadisə kimi təhkiyəyə daxil etməsi oxucuya duzlu-məzəli bir hekayə vəd edir.

Qantəmir müəllif təhkiyəsinin komizmini gücləndirmək üçün onu oxucu ilə ünsiyyət üzərində qurur.

Buradan bir haşiyəyə çıxmağıma acığınız gəlməsin [88, s.259].

Bu haşiyədə müəllif öz qəhrəmanının satirik keyfiyyətlərini cızır. Müəllifin bu haşiyəyə görə özünü oxucu qəzəbindən sığortalaması isə satirik təsvirin təsirini bir az da artırır.

Ümumiyyətlə, Qantəmir nəsrində bədii struktur forması məsələlərini komik məzmunda təhkiyənin mövzusuna çevirmək rast gəlinən hallardandır. Məsələn, Ağlayan Züleyxa hekayəsində müəllif hadisələrin nəqlinə belə keçir:

Mənim bu "müqəddimə yerinə metodik izahat"ımdan sonra zənn edirəm ki, hekayəyə başlaya bilərəm [88, s.148].

Bu cümlədə *metodik izahat* ifadəsi cümlədə ifadə olunan fikrə komik boya verir. Təbii ki, bədii müqəddimə ilə metodik izahatın müqayisəsi uyğunsuzdur.

Yuxarıdakı cümlədə müqəddimənin bədiiliyi ilə metodik izahatın elmiliyinin yaratdığı uyğunsuzluq komik elementdir.

Qantəmirin nəsrində komizm yaratmaq üsullarından biri də obrazın zahiri portretidir. Bu təsvirlərdə yazıçı hər təsvir detalına komik rəng verməyə çalışır. İntelligent hekayəsində əsərin baş qəhrəmanının təsviri kifayət qədər bu rəngə bürünmüşdür.

Onun boyu azca uzun, şalvarı azca qalife, çənəsi azca yastı, bədəni azca arıqdır. Çeçələ barmağındakı dırnağının uzunluğu doqquz millimetr yarımdır [88, s.177].

Bu nümunələrdə ümumi mətn kontekstinin yaratdığı komizmdə ən aktiv dil elementi *azca* sözü və *doqquz millimetr yarım* ifadəsidir. Belə ki, əgər birinci cümlədən *azca* sözünu çıxarsaq, ciddi bədii təsvir forması alınar. Demək, bu söz heç bir məzmun detalının iştirakı olmadan cümlənin komik yükünü təkbaşına daşıyır. Qantəmir əsl satira ustası kimi bu cür dil elementini arayıb-axtara bilir. Satirik yazıçı verilən nümunələrə komik don geyindirməyi, komik xüsusiyyətlərə malik dil vahidlərini düzgün seçərək bədii əsəri komik dil nümunələri ilə zənginləşdirməyi bilməlidir [142, s.91].

İkinci cümlədə də təsvirin məzmunu deyil, *doqquz millimetr yarım* ifadəsinin iştirakı komizm doğurur. Fikrimizi sübut etmək üçün cümlənin dəyişilmiş formasını təsəvvür etməyə çalışaq. Məsələn, bu mətndə *doqquz millimetr yarım* ifadəsini *bir santimetr* ifadəsi ilə əvəzləsək, əslində, obrazın dırnağının uzunluğu artacaq, amma məzmunun komik effekti azalacaq və bəlkə də yox olacaq. Demək, komizm cümlənin daşıdığı məzmunda, yəni dırnağın uzunluğunda deyil, yazıçının bu ölçünü vermək

üçün tapdığı ifadədədir. Bu ifadəyə yazıçının *yarım* sözünü də daxil etməsi uzunluğun ölçüsünü yox, ifadənin çoxsözlülüyünü artıraraq komik effekti gücləndirməyə xidmət edir.

Bildiyimiz kimi, komizm bədii oyundur. Yazıçı müxtəlif detallardan istifadə edərək bu oyunu qurur. Bu detallardan biri də sözdür ki, Qantəmir yaradıcılığında da onun uğurlu həll formaları vardır. Bu uğuru yazıçının xalq dili ilə yanaşı, xalq düşüncə tərzinə də dərindən bələdliyi təmin etmişdir. Belə ki onun əsərlərində bu oyun sadə xalq kütlələrinin dilində qurulur. Aybikə xala hekayəsində Şura hökumətinə öz minnətdarlığını bildirmək istəyən Aybikə xala söyləyir:

Allah hökumətin balalarını saxlasın [88, s.321].

Burada *balalarını saxlasın* alqışını yazıçı qeyri-normativ dil qəlibinə salmışdır. Ancaq yazıçı söz oynunu elə qurmuşdur ki, bu qeyri-normativlik satirik dilin ədəbi dil normalarını pozmaq icazəsinin yox, avam bir qadının düşüncə tərzinin ayağına yazır.

"Düzəlmədi" hekayəsində öz adını təsdiqləməyə çalışan obrazın dilində müəllif bu oyunu *ayaq, baş* sözlərinin məcazi mənalarına istinadən qurmuşdur.

- *...orada iki Əli olasıdır. Biri mənim ayağımda, o biri də atamın başında.* [88, s.196].

Qantəmir leksik normanın pozulmasından da komik vasitə kimi məharətlə istifadə etmişdir.

On beş yaşına çatmamış <u>sütül gəlinlərə</u> ancaq bu dairədə rast gəlmək olar [88, s.274].

Xanım Əminə hekayəsində tam yetişməmiş bitki məhsulları haqqında söylənən *sütül* sözünü *gəlin* sözünə yanaşdırmaqla müəllif erkən nikahlara kinayəli münasibət ifadə etmişdir.

Mənim tələbəm hekayəsində də leksik normanın pozulması susuzluğun ifadəsini komik həddə çatdırır.

Ürəyim <u>cız-sız cızıldayır</u> [88, s.190].

Komizm elə bir yaradıcılıq üsuludur ki, bu müstəvidə mürəkkəb məsələlər sadə dillə çatdırılır. Qantəmir nəsrində də dövrünün çox ağır ictimai-siyasi yüklü məsələlərinin bir yaxud bir neçə cümlədə ifadəsi vardır.

Çadranın əleyhinə, yeni əlifbanın lehinə barmağını qaldırar, arvadı həmişə çadralı! [88, s.219].

Müəllif burada fikrin komik ifadəsini almaq üçün *əleyhinə və lehinə* antonimlərinin ritmindən istifadə etmişdir.

Elmi ədəbiyyatda antonimlərdən komik effekt doğuran bədii dil elementi kimi bəhs edilmişdir. Komizm yaradan antonimlər obrazların daxili və xarici keyfiyyətlərinin ifşası ilə kifayətlənmir, eyni zamanda, onlar ziddiyyətli hadisələrin iç üzünün açılmasına kömək göstərir.

Qantəmir Hacı Lələ hekayəsində qəhrəmanın xarakterinin komik cizgilərini əksmənalı sözlər və onlardan doğan ziddiyyət vasitəsi ilə çəkir.

Məhəllə arasında ona bizim Hacı Əliqulu "yarımmolladır" deyirlərsə də, inanın ki, doğrudur. Bəzi komsomolçular ona Hacı yarım firqəvidir deyirlərsə də, buna da şübhən olmasın. Nə başınızı ağrıdım, Hacı həm dünya adamıdır, həm də axirət adamı! Həm şah adamı, həm şura adamı! [88, s.219].

Bu təsvirdə komik ziddiyyət *yarımmolladır - firqəvi, dünya- axirət, şah -şura* sözləri üzərində qurulmuşdur. *Yarımmolladır - firqəvi, şah -şura* sözləri əslində antonim olmasa da, burada onlar əksmənalı sözlər kimi təzad yaratmışdır. Qantəmir bu mətndə üslubi antonimlərlə yanaşı, *dünya- axirət* kimi qrammatik antonimlərdən də istifadə etmişdir.

Qantəmir xalq danışıq dilinə yaxşı bələd olan yazıçılardan idi və onun satirik təhkiyə üslubunun əsas elementlərindən biri də bu dilə məxsus ifadələrdir.

Kimin hünəri var ki, bu bahalı çəkməni çıxarıb onun bunun başına geydirsin?! [88, s.274].

-Bacı, nə verəcəklər? - deyə sorur, bəziləri yolundan qalır, növbəyə mıxlanırdı [88, s.275].

Ancaq burada bir məğlubiyyət sezilirdi. Bunun ucu da müəllimin buduna sancılırdı [88, s.151].

Zalım balaları fikrimizi duydular, durub əkildilər [88, s.189].

Çəkmənin başa geydirilməsi deyimi, yaxud durub getməyin *durub əkilmək,* növbəyə dayanmağın *növbəyə mıxlanmaq,* əhvali-ruhiyyənin *buduna sancılmaq* şəklində ifadəsi Azərbaycan ədəbi dili üçün xarakterik deyil. Fikrin ədəbi dil variantında deyil, məhz bu şəkildə ifadəsi komik effekt yaratmışdır.

Ümumiyyətlə, Qantəmir elə yazıçılardandır ki, o, təhkiyədə verilən hər fikrin komik çalar alması fürsətindən istifadə edir. Ona görə də onun nəsrində komizm üsul və vasitələri rəngarəngdir.

Bədii ədəbiyyatda fikrin komik ifadəsi üsullarından biri də anoxronizmlərdir. Anoxronizm nədir? - sualına dəqiq və təfərrüatlı cavabı Qəzənfər Kazımovun tədqiqatlarında tapmaq mümkündür. Alim yazır: "*Bədii ədəbiyyatda komik anaxronizmlərdən istifadə ilə - zamanın tələblərinə uyğun gəlməyən, köhnəlmiş və vaxtını keçirmiş qaydaların, adətlərin, qeyri-normal dünyagörüş və təfəkkür tərzinin ölçüsüzlüyü, əndazəsizliyi yolu ilə də yaradılır. Bu üsul dünyagörüşü, adət və vərdişləri, hadisə və xarakterləri əhatə etdiyi kimi, obraz nitqinin tipikləşdirilməsinə də aid olur"* [84, s.351].

Aydındır ki, Qantəmir elə bir dövrdə yaşayırdı ki, bu şəraitdə cəmiyyətdə yenilik özünə yer eləməyə, köhnəlik isə yerini güzəştə getməməyə məcbur idi. Köhnəliklə yeniliyin mübarizəsinin doğurduğu bu sosial ziddiyyətləri Qantəmir ayrı-ayrı obrazların xarakterində ifadə etmişdir.

Hacı Lələ hekayəsində göstərilir ki, Hacı Əliqulu xaricilərlə görüşəndən sonra mütləq əllərini sabunlayar, xaricinin əlinə dəyən qabları isə dəfələrlə su ilə yumamış istifadə etməzdi.

Xariciləri, yəni qeyri-müsəlmanları murdar hesab etmək və bu murdarlığın yeddi dəfə yuyunmada təmizləndiyinə inam köhnəlmiş inanclardan idi.

Qantəmir təhkiyəsində komik effekt doğuran konkret üsul və vasitələrdən istifadə edilmədiyi hallarda belə, təhkiyənin ritmində gülüş qammaları sezilir. Gülüş təhkiyənin zahiri formasında, cümlənin üslubi ritmində, sintaktik quruluşunda hərəkət edir. Məsələn:

Mən kimsəyə böhtan atan deyiləm və çarşablı qadınlara qarşı döşümdə bir söz, başımda bir şübhə yoxdur [88, s.340].

And içib sizi inandıra bilərəm ki, 15 ildə bircə dəfə də olsa, mənim zənbilimə badımcan qoyan olamyıb [88, s.340].

Məlumdur ki, komizmin yumoristik və satirik formaları vardır. Bədii tipikləşdirmə istər yumoristik, istərsə də satirik formanın poetik strukturunun əsasını təşkil edir. Tipikləşdirmənin bədii həllində isə dil elementləri aparıcı rol oynayır. Qəhrəmanı tip səviyyəsinə yüksəltmək, üçün yazıçı onun nitqini fərdiləşdirir, bu nitqə qəhrəmanın psixotipinə uyğun çalarlar verir.

Qantəmir komizminin sosial-ictimai bazası sivil qurumların və mədəni tərəqqinin cəmiyyətə daxil olduğu dövrün hadisələrinə təsadüf edir. Bu hadisələrin burulğanı cəmiyyətdə müxtəlif psixotiplər yetişdirmişdir ki, yazıçının nəsrini onların bədii qalereyası hesab etmək olar. Müəllif onların tipini ayrı-ayrı əsərlərində müxtəlif hadisələrin rakursundan izləyir. Bu qəhrəmanların təfəkkür tərzinin komik boyalarını leksik-sintaktik aşırımlarla rəsm edir.

Yazıçının Hacı Lələ hekayəsində Hacı Əliqulu obrazı üzdə sovet quruluşunun gətirdiyi yeniliyin tərəfdarı, arxada isə köhnə tərzin davamçısı olanların ümumiləşdirilmiş satirik tipidir. Müəllif əsərdə onu bədii gülüşün hədəfinə çıxarmaq üçün müxtəlif bədii vasitələrdən istifadə etmişdir. Bu vasitələr Hacı Əliqulunun xarakterinin cizgilərindən asılı olaraq dəyişir. Onun camaat arasında nüfuzuna, dövlət idarələri ilə bağlı problemləri asanlıqla öz yoluna qoymaq fərasətinə rəğmən, məhdud təfəkkür dairəsinə malik olmasını yazıçı dil anomaliyası vasitəsilə ifadə etmişdir. Sovet hakimiyyətinin qurulmasına, onun apardığı siyasətə münasibətini bildirən, Şura hökuməti tək padşahın olmadığını deyən Hacı Əliqulunun sözləri gülüş doğurur, dövləti yalnız padşah formasında dərk edən, *şura hökuməti* və *padşah* ifadələrinin bir araya sığmadığından xəbərsiz olan bu obrazın söylədikləri gülüş obyektinə çevrilir.

Qantəmir dilin komik imkanlarından əsərin bütün qatlarında yararlanmaq fürsətini fövtə vermir. Onun iki hekayəsinin sərlövhəsinə çıxardığı idiomatik ifadələr: *ağıl dəryası və söz dağarcığı* komik keyfiyyətlərə malikdir. Qəzənfər Kazımov göstərir ki, frazeoloji birləşmələr üç halda komizmə xidmət edə bilər. "*a) kinayə*

intonasiyası ilə müşayiət edildikdə; b) dildə təbiətən komik keyfiyyətdə formalaşmış olduqda; v) komik fonda başqa söz və ifadələrlə ustalıqla əlaqələndirildikdə" [79, s.220].

Söz dağarcığı dilimizdə təbiətən komik keyfiyyətə malik ifadə olub, sözbaz insan haqqında işlədilir. Bu ifadə ilə verilmiş sərlövhədə obraza və hadisələrə, onların komik məzmununa işarə var. *Ağıl dəryası* sərlövhəsi isə frazeoloji birləşmənin kinayə intonasiyası ilə müşayiəti nəticəsində komiklik qazanmışdır. Bu sərlövhənin komik effekti əsərin məzmunu ilə əlaqədə üzə çıxır. Əsərin məzmununun daşıdığı komik mahiyyəti Qəzənfər Kazımov belə ifadə etmişdir: "*Arzu ilə imkan arasında, müqəddəs istəklərlə çirkin şöhrətpərəstlik hissi arasında, real iş ilə xəyalpərvərlik, imkansızlıq ilə qabiliyyətsizlik arasında uyğunsuzluq Ağıl dəryasını gülüş hədəfinə çevirir, gülünc vəziyyətə salır*" [79, s.173]. Məzmunun bu fonunda *ağıl dəryası* sərlövhəsi komik çalar alır.

Qantəmirin istifadə etdiyi hər iki komik sərlövhə obyekti, konkret olaraq desək, obrazı ifşa etmək üçün işlədilmişdir. Bu da təsadüfi deyildir. Çünki xarakter yazıçının satirasının bədii strukturunda əsas poetik fiqurdur. Qantəmir komik qəhrəmanlarının əksəriyyətini satirik tip səviyyəsinə qədər yüksəldir.

Realist bədii üslubun, o cümlədən də satiranın yaradıcılıq metodu kimi əsas xüsusiyyəti tipik şəraitdə tipik obraz yaratmaqdır. Bu şəraitin və obrazın bədii mənzərəsi süjet xəttinin inkişafında yaranır. Obrazın tipikliyi yalnız onun xarakterində deyil, həm də nitq fərdiliyində yaranır. Qəzənfər Kazımov doğru olaraq qeyd edir ki, *"satirik-yumoristik ifadələr obraz nitqinin ən mühüm tipikləşdirmə keyfiyyətlərindəndir"* [79, s.220]. Ağamusa Axundov da Dilin estetikası adlı tədqiqatında bu qənaətlə çıxış edir ki, "*yazıçı surətləri tipikləşdirdiyi kimi, onların dilini də tipikləşdirməlidir. Bədii ümumiləşdirmə və tipikləşdirmə prinsipinə cavab verməyən bədii surət, tip olmadığı kimi, surət dili, tip dili də yoxdur*" [13, s.47].

Qantəmir nəsrində də satirik-yumoristik ifadələrdən tipikləşdirmə vasitəsi kimi məharətlə istifadə edilmişdir. "Düzəlmədi" hekayəsində müəllif qısa bir dialoq çərçivəsində qəhrəmanın cahil dünyagörüşünü, sadəlövh təbiətini aça bilmişdir.

-Bir sən mənə de görüm, mən Məhəmmədəli Əliqulu oğluyam ya yox?

-Dedim: "Məhəmmədəlisən sən!

-Ay başına dönüm, de gəl bu hökuməti başa sal ki, mən Məhəmmədəli Əliqulu oğluyam, özüm də ölməmişəm, sağam.

-Necə yəni? Bu nə sözdür?

-Vallah, billah, qardaş, yoldaş, tovariş! Düz bir ay on yeddi gündür çalışıram, sübut eliyə bilmirəm ki, mən Məhəmmədəli Əliqulu oğluyam [88, s.193].

Bu mükalimədə bədii dil elementləri yalnız informasiya daşımır, həm də bu informasiya komik çalara bürünür. İnsanın öz kimliyini, adını sübut etmək cəhdi və bu cəhdin iflasa uğraması özlüyündə gülüş doğuran bir situasiyadır. Bu situasiyaya düşmüş qəhrəmanın şikayət dolu nitqində *ay başına dönüm* kimi xalq ifadəsi, *vallah, billah* kimi andlar onun bezmiş, yorğun düşmüş halını vermək üçün müəllifin tapdığı uğurlu dil vasitələridir. Dövlət idarələri ilə bağlı düşdüyü bu müşkülü həll edə bilməyən qəhrəman öz halını anlatmaq üçün gündəlik leksikonununa daxil olan *qardaş* sözünün kifayət etməyəcəyini düşünərək daha rəsmi kəlmələrə: *yoldaş, tovariş* sözlərinə əl atır. Leksikonu rəsmi üslub elementlərindən uzaq olan bir şəxsin öz nitqində bu sözlərdən istifadəsi gülüş doğurur.

Qantəmir bu hekayədə təhkiyəçinin dilindən verilmiş bir neçə cümlədə dövlət idarələrinin süründürməçiliyini, bürokratizmini canlı boyalarla, satirik emosiya doğuran leksik-semantik və üslubi-qrammatik vasitələrlə rəsm edir. Məsələn:

İndi iş qalıb bu yerdə. Vəkil deyir gərək suda ərizə verib adını dəftərə saldırasan. Əlli manat da pul istəyir. 200 manat cəhənnəm, inək cəhənnəm, ara yerdə evim əlimdən çıxır. Bağışla, sənə başağrısı verdim. Qoy gedim yorğandan, qazandan satıb verim vəkilə, görüm Məhəmmədəli Əliqulu oğlu olduğumu sübut edə bilərəmmi? [88, s.196].

Qəhrəmanın öz kimliyini sübut etmək nitqinin sonluğuna sual cümləsinin gətirdiyi intonasiya komik qrammatik vasitədir. Onun inək almaq, bankdan iki yüz manat götürmək cəhdlərinə "cəhənnəm" deməsi təhkiyəçininn verdiyi informasiyanın satirik effektini artırır. Çünki məllifin xalq danışıq dilindən götürdüyü bu ifadə qəhrəmanın öz arzularına biryolluq "əlvida" deməsini vurğulayır. Qazanc dalınca bu işə girişən bir insan nəticədə özünü Məhəmmədəli Əliqulu olduğunu sübut etmək

kimi bir bəlaya düşməsini ifadə etmək üçün *yorğan, qazan* kimi evin sonuncu varidatını bildirən sözlərdən istifadə etmişdir.

Qantəmir yaradıcılığının komik dil xüsusiyyətlərindən danışarkən satirik ad məsələsinə də xüsusən nəzər yetirilməlidir. O, adlar vasitəsilə komizmin müxtəlif xüsusiyyətlərindən istifadə edərək obrazın sinfi mənsubiyyətini oxucuya çatdıra bilmişdir. Qadınların örtüyünün atmasından, əlifbanın yenilənməyindən hirslənərək Ağamalı oğluna şikayət məktubunun aşağısında adını *Sara xanım Muradbəyova Xudayar xan qızı* formasında yazdırmaq istəyən Sara bibi ("Sara bibi" hekayəsi), yeni yaradılan dövlət quruluşunda da xanım sözündən əl götürməyəcəyini çatdırır.

"Zeynəb Tükəzbənova" hekayəsinə nəzər salaq: *Ərizənin altında Zeynəb Tükəzbanova imzasını qoymuşdu.*

- *Xalaqızı, bu nə cür imzadır?*

- *İmzalar kişi adı ilə tamam olması haqqında göydən ayə nazil olmayıb ki?! Yazarsan olar* [88, s.218].

Gülüş doğuran cəhət Zeynəbin komik şişirtmə yolu ilə yaradılmış ifrat mövqeyidir. Keçmişdə heç bir hüququ olmayan qadın indi bir növ həmin hüquqsuzluğun intiqamını almaq istəyir. Elə bu cür anaxronik düşüncələrin nəticəsidir ki, özünə soyadı da (Zeynəb Tükəzbanova) qadın adından götürmüşdür. Zeynəb indiyə qədər qadınların kişilərdən asılı olduğunu nəzərə alaraq, belə bir nəticəyə gəlir ki, indi də əksinə olmalı, kişilər qadınların tabeliyində yaşamalıdır.

Anlaşılmazlıq texnikası ilə bağlı olan xüsusi adların komizmi güclü komik effektə səbəb olur. Yaxın səslənən müxtəlif sözlərin – poronimlərin vasitəsilə anlaşılmazlıq komizminin nümunələrinə Qantəmirin nəsrində də rast gəlirik. Yazıçının Düzəlmədi hekayəsində bütün əhvalat *Məhəmmədəli* sözündə "Əli"nin düşməsi *Məhəmmədəli Əliqulu* əvəzinə, bu adın sənədlərdə *Məhəmməd Əliqulu* şəklində yazılması üzərində qurulmuşdur.

-... *Mənim ayağımdakı Əli qələmdən düşüb, yazılmayıb, götür ayağımın Əlisini köçürt bir kağıza, ver əlimə* [88, s.196] – deyən Məhəmmədəlinin gizli ihtehzalarını başa düşməyən, müsəlman adlarına, müsəlman yazısına bələd olmayan müdir daha da əsəbiləşir (A.M.):

-Что такое bir əl, iki əl? Причем здесь твой рук или ног? Я не понимаю!.. [88, s.196].

Qantəmir xüsusi adlardan istifadə edərək Şərq aləmində qoşa işlənən adlara istehza etmişdir. Düzəlmədi hekayəsində müəllif bir neçə obyekti tənqid edir: həm Şərqdə geniş yayılmış ikiadlılığı, Əli, Məhəmməd kimi adların bir-birinə mənasızcasına calaşdırılmasını, müdirlərinin ləyaqətsizliyini, həm də idarələrdə Azərbaycan ədəbi dilinin rəsmi-işgüzar üslubunun işlədilməməsini.

"Adətən, bədii əsərlərdə adlar iki cür olur: 1. Həyatda, ictimai yerlərdə və məişətdə bilavasitə təsadüf edilən təbii adlar; 2. Satirik tipi xarakterizə edən, komik effekt yaradan, müəllifin bilavasitə düzəltdiyi qondarma, uydurma adlar" [104, s.233].

Həyatda adların mənası ilə onun daşıyıcısı arasında bir əlaqə olmasa da, bədii ədəbiyyatda antroponimlər, adətən, personajların təbiəti ilə əlaqədar olur. Burada əsərin janrına, məzmununa uyğun, surətin səciyyəsinin tamamlanmasına kömək edə bilən, müəyyən effekt yaradan adlardan istifadə olunur. Bu məqsədlə yazıçılar ya xalq dilindən gələn adlardan istifadə edir, yaxud da personajların xarakterinə uyğun olaraq özləri yeni adlar yaradırlar.

Bu baxımdan Qantəmirin satirik tiplərinin adı çox maraqlıdır. Yazıçı *Ağıl dəryası*, *İntelligent*, *Hərcayi* adını təsadüfi seçməmişdir. Əsərdə surətin öz xarakterindən nəşət edən bu adlar tənqid obyektinin mahiyyətini ifşa etməyə, komizmi daha da qüvvətləndirməyə xidmət edir.

Obrazların özü həyati, təbii olduğu kimi, adı da inandırıcı olmalıdır. Elə ona görə də yazıçılar öz qəhrəmanlarını adlandırarkən çətin bir yol keçir, dəfələrlə düşünüb-daşınıb obrazın fərdi və ümumi səciyyəvi xüsusiyyətləri ilə təbii surətdə səsləşən bir ad "kəşf edirlər".

Qantəmirin mənfi tiplərə verdiyi adlardan aydın olur ki, onlar surəti tipikləşdirən, gülüşü şiddətləndirən, bədii effekt yaradan adlardır.

Məlumdur ki, Şərqdə yüksək mənsəbədən olan bir şəxs haqqında yazarkən onun adına beş, altı, bəzən daha artıq titulun qoşulması norma idi. Qantəmir müasir dövrdə öz funksionallığını itirən bu normanı satirik üslubun tələblərinə uyğun

yenidən canlandırır, çoxmərtəbəli adlardan üslubi priyom kimi istifadə edir. O, bir qayda olaraq, öz əsərlərində hörmətli şəxslərin adlarını titullarla: rütbə, vəzifə, ictimai mövqeyi göstərən, dini münasibəti müəyyənləşdirən səciyyəvi ifadələrlə işlədir. Müəyyən bir tip ilə əlaqədar heç bir məlumat oxumadan da, yalnız adı ilə onun haqqında tam təsəvvür əldə etmək olur. Hiss edirsən ki, müəllif hansı satirik boyalarla bu surəti təsvir edəcəkdir. Məsələn: *Buyurun tanış olun, Hacı Əliqulu ibn Hacı Sadıq, ibn Hacı Cavad, ibn Şeyxanə Hacı Məmmədrza...Mən öz-özlüyümdə bu qədər ağıllı, bu qədər kamallı, bu qədər səliqəli Hacı görməmişəm, desəm inanın. Hacı qiyamətdir, qiyamət! (Hacı lələ)* [88, s.219].

Satirik əsərlərin dilində ləqəblər də üslubi rənglərin yaranmasında xüsusi rol oynayır. Satirik yazıçı olan Qantəmirin yaradıcılığı üçün də bu cəhət xarakterikdir. O, mədəniyyətsizliyin və avamlığın nəticəsi olan, insan ləyaqətini təhqir edən, alçaldan ləqəblərə qarşı çıxmış, köhnə mühitin təsviri və tənqidi məqsədlə xalq arasında işlənməkdə olan ləqəblərdən öz üslubuna uyğun olaraq istifadə etmişdir.

Bu hansı dində, hansı məzhəbdə görünübdür ki, Yumurta Heydərin qızı Çopur Zeynəb gəlib bizə üzbaşı olubdur? (Sara bibi) [88, s.232].

O, tın-tın Musanın nəvəsidir (İntelligent) [88, s.177].

İncilburun Fatmanın oğlunumu deyirsən?(Şarlatan) [88, s.286].

Onu da qeyd edək ki, onun nəsrində satirik ad aktiv planda deyil, yəni müəllif heç bir satirik obrazına qondarma ad verməmiş və bu vasitə ilə onun xarakterinin satirik keyfiyyətlərini qabartmamışdır. Qantəmir yaradıcılığında satirik ad epizodik şəkildə özünü göstərir. Məsələn, İntelligent hekayəsində Tın-tın Musa, "Ağlayan Züleyxa"da Keçisaqqal, "Şarlatan"da İncilburun Fatma, "Sara bibi"də Çopur Zeynəb kimi satirik onomastik vahidlərə rast gəlirik. Bu adlar obrazların xarakteri, görünüşü, psixoloji mahiyyəti ilə uyğunluq təşkil edir.

Aydındır ki, satirik adlar, adətən, qondarma adlar olur. Ancaq bu qondarma hər cür uydurma deyil, həm də sözün kəsəri deməkdir. "Hərcayi" hekayəsində müəllifin düzəltdiyi ad həm komik kəsərə, həm də məna-məzmuna malikdir.

"Hərcayi"nin bir ləqəbi də <u>*Bulvarbəyidir*</u> [88, s.166].

Bu ləqəb qəhrəmanın həyat tərzi haqqında oxucuya çox şey deyir. Məlumdur ki, bulvar insanların gəzmək, boş vaxtlarını keçirmək üçün getdiyi yerdir. Demək, bu yerin bəyi ləqəbinə layiq görlən şəxs vaxtını ancaq bulvarda keçirən, yəni avara, boş həyat sürən bir şəxsdir. Müəllif obrazın xarakterini təfərrüatlı təsvirlərdə deyil, bir antroponimik vahiddə – Bulvarbəyi ləqəbində verməyə müəvəffəq olmuşdur.

Qantəmir "Hacı Lələ" hekayəsində adın qondarılmış formasından yox, ərəb versiyasından istifadə etmişdir. Yazıçının yaradıcılıq üslubu üçün hadisələrə obrazın təqdimatı ilə başlamaq xarakterik haldır. Adətən, bu təqdimatları obrazın bədii portreti və yaxud xarakterik cizgiləri üzərində quran ədib "Hacı Lələ" əsərində bunu "rəsmi" şəkildə edir.

Buyurun, tanış olun, Hacı Əliqulu ibn Hacı Sadıq, ibn Hacı Cavad, ibn Şeyxanə Hacı Məmmədrza... [88, s.219].

Bu nümunədə təqdimatın rəsmiliyi altında müəllifin qəhrəmanına ironik münasibəti gizlənmişdir. Ümumiyyətlə, hekayənin mövzusu bu münasibət üzərində qurulmuşdur. Hətta əsərin sərlövhəsi belə qəhrəmana bir kinayədir. Müəllif sərlövhədə qəhrəmanını öz adı ilə yox, *lələ* deyə adlandırmışdır. Məlumdur, *lələ* qəyyumluq edən kəslərə müraciət formasıdır. Hekayənin məzmunu bəlli edir ki, bu isim müəllifin qəhrəmanına məsxərəsidir.

Qantəmirin satirik təhkiyə üsulları rəngarəngdir. Ancaq onun satirasının gücü yalnız üsulların rəngarəngliyində deyil, həm də effektivliyindədir. Onun satirik dil-üslub axtarışları uğurlu tapıntılarla zəngindir. Qantəmirin komik üslubunda dil elementlərinin bədii detala çevrilməsi prosesi Azərbaycan dilinin komik potensialını nümayiş etdirir.

3.2. Tropların komizmi

Məlumdur ki, sözün bədii təsiri onun məcazi mənasında daha da güclənir. Odur ki, bədii təsvir vasitələri bədiiliyin, o cümlədən də komizmin ifadəsi üçün ən effektiv vasitələrdir. Nəsr əsərlərində, adətən, troplar o qədər də rəngarəng şəkildə, aktiv mövqedə olmur. Qantəmirin nəsrində də komizm, əsasən, sözün leksik, qrammatik

potensiyası əsasında yaransa da, onun məcazi mənasına istinadən də qurulmuşdur. Onun yaradıcılığında tropun bədii təyin, müqayisə və mübaliğə kimi növlərinə daha çox rast gəlirik.

Bədii təyin elə bir poetik fiqurdur ki, onun məzmunu əksər hallarda bədii təsvir yaradır. Komik təyinlərdə isə bu təsvirlər, adətən, karikatur şəkli alır.

Qonağımın səyahətnaməsi hekayəsində bədii təyinin məhz bu şəklinə rast gəlirik.

Saçlarını iki qulağının qabağından İtaliya xəritəsivari sallandıran intelligent iddia edirdi ki, o qoyunların ətini dilinə vurmaq olmaz! [88, s.271].

Bu cümlədə təyin mürəkkəb quruluşa malikdir ki, onun bu qrammatik forması həm də komizmin çoxqatlılığını yaradır. Burada yazıçı komizmi dərinləşdirmək üçün zahirin mərtəbəli təsvir formasından istifadə etmişdir. O, intelligentin bakenbordlarının İtaliya xəritəsinə oxşarlığını birbaşa təsvir etməmişdir. Bu təsvir bakenbordun özünün təsviri üzərində qurulmuşdur və müəllif məqsədli şəkildə onun adını çəkmədən təsvirini vermişdir. Təsvirdə predmetin primitiv şəkildə loru tərzdə *saçlarını iki qulağının qabağından* kimi izahı gülüş doğurur. Diqqət edək ki, yazıçı təsvirdə iki qulaq ifadəsini işlədir. Normativ dilə görə *iki* sözünün qulaq sözünə yanaşması qrammatik cəhətdən düzgün, üslubi baxımdan isə nöqsanlıdır və artıq söz yerindədir. Amma aydındır ki, komik dil normalara tabe dil deyil, bədii-üslubi maraqlar baxımından normaların pozulması özü bu dil üçün "norma"dır. Bakenbord anlayışının izahındakı *iki qulaq* ifadəsi də bədii-üslubi məqsədlərə xidmət edir, təsvirdəki loruluğu gücləndirir və nəticədə, təhkiyənin komik çaları artır. Yazıçı obrazın komik bədii portretini yaratmaq üçün mümkün qədər onu əcaib-qəraib şəkildə təsvir etməyə çalışır, buna görə də təyinin əsas hissəsini - bakenbordun özünün təsvirini İtaliya xəritəsinə oxşadır. Hətta bakenbordun nə olduğunu bilməyən, yaxud İtaliya xəritəsi ilə tanış olmayan oxucu da obrazın iki qulağının qabağından sallanan saçların nəsə gülməli bir şey olduğuna əmin olur.

Aydındır ki, komizm bədii ifadəetmə üsulu kimi öz ifadəsini poetik fiqurlarda tapır, lakin Qantəmir nəsrində təyinedici sözün bədii təyin dərəcəsinə yüksəlməyib,

yalnız qrammatik təyin olaraq qalması onların komik bədii detal kimi çıxış etməsinə mane olmur:

Apardım 12-ci otağa, başı tüklü bir rus oturmuşdu, aldı, baxdı [88, s.194].

Bu cümlədə yazıçının obrazın zahiri ilə bağlı qurduğu təyin bədii portret yaratmaq yox, komik təsvir qurmaq məqsədinə xidmət edir. Aydındır ki, obrazın təsvirində elə xüsusiyyətdən söz açılır ki, o, xüsusi diqqət doğursun. Göründüyü kimi, *başı tüklü* təyinində normal bir xüsusiyyət - başın tüklü olması təsvir edilir. Ancaq nəzərə alaq ki, Düzəlmədi hekayəsində bu təsvir təhkiyəçinin - avam bir insanın dilindən verilir. Dövlət idarələrinin süründürməçiliyinə məruz qalan və əslində nələrin cərəyan etdiyini sona qədər anlamayan bu insan üçün növbəti girib-çıxdığı kabinetdə rastlaşdığı rus məmurunun zahirində onun diqqətini cəlb edən və yadında qalan keyfiyyət onun başının tüklü olmasıdır. Rus məmurunun başının tükünü əcaib-qəraib bir xüsusiyyət kimi yaddaşına həkk etməsi onun evin sənədləşməsi ilə bağlı dövlət idarələrinə etdiyi get-gəllərdən qavrayışının sıfır olduğunu ifadə edərkən situasiyanın komizmini də artırır.

Yazıçı təhkiyənin leksik-sintaktik strukturunda təyinlərin komizm yaratmaq imkanlarından geniş istifadə etmişdir.

Bu yaşda bir qadın xeylağının ağzından o qədər rəngarəng söyüşlərin çıxmasına mən ehtimal verməzdim [88, s.280].

Yağlı ət arzusundakı kişi xanım Əminəyə dedi [88, s.279].

Bu cümlələrdə *rəngarəng* və *yağlı ət arzusundakı* təyinləri yalnız informativ yüklü leksik-sintaktik fiqur deyil, həm də komik bədii detaldır. Belə ki, *rəngarəng söyüş* ifadəsində *rəngarəng* təyininin *söyüş* kimi vulqar bir anlayışa verdiyi tərif, *yağlı ət arzusundakı kişi* birləşməsində isə arzunun qeyri-nəcibliyi komizm yaradır.

Məlumdur ki, bədii portret bədii xarakterin yaradılması üçün istifadə olunan ən kəsərli vasitələrdəndir. Oxucu təsəvvüründə xarakteri onun portret təsviri tamamlayır, bütövləşdirir. Xüsusən də satirik xarakterin təsvirində satirik portretin təsviri daha effektiv olur. Bədii portretin, o cümlədən də satirik portretin təsvirində bədii təyin aktiv şəkildə iştirak edir. Vəsiyyət hekayəsində Qantəmir bədii portreti bədii təyində rəsm edir.

O, sizin bildiyiniz qarqaburun, muncuqgöz, təzəcəsaqqal hacılara bənzəməz [88, s.223].

Burada satirik effekti gücləndirmək üçün bədii təyin yalnız bədii təsvir yox, həm də bədii müqayisə funksiyasını yerinə yetirir. Müəllif *qarqaburun, muncuqgöz, təzəcə saqqal* təyinlərində birbaşa obrazı təsvir etmir, onun zahirini digər Hacıların zahiri təsviri ilə müqayisəyə çıxarır. *Qarqaburun, muncuqgöz, təzəcə-saqqal* təyinlərinin komik effekti bu müqayisədə daha da güclənir. Bu təyinlərin təsviri Hacıların zahiri yox, daxili keyfiyyətlərinə daha çox işarədir. Bu keyfiyyətlərin mənfi çaları *qarqaburun, muncuqgöz, təzəcəsaqqal* təyinlərinin komik boyalarında verilir. Diqqət etsək, görərik ki, bu təyinlərin hər biri mürəkkəb qrammatik quruluşa malikdir. *Burun, göz, saqqal* kimi bədən üzvlərinin qarşısına *qarğa, muncuq, təzəcə* kimi artırılmış sözlər onların təsvirinə komik çalar verir.

Qantəmir bədii portretin təsvirində vulqar sözün komik potensialından da istifadə etmişdir.

Bir az dayanmışdım, yanımdan on beş yaşında, sarıbaş bir qız gəlib keçdiyini görürəm [88, s.187].

Sonra yekə bığlı, yoğunqarın bir fəhlə çıxıb danışdı [88, s.208].

Vulqar söz predmetin daxili kefiyyətlərinin bədii təyini kimi çıxış etmişdir.

Qarnı yanmış Zəhrabəyim onsuz da deyəcəkdir ki, Aybikə kəndi dağıdır [88, s.322].

Sadıq öz atını "dılğır yabı" adlandırırsa da, bu, Qara Hüseynə sataşmaq üçün bir kinayədir [88, s.51].

Qantəmir nəsrində bədii təyin işləndiyi məqamlardan biri də satirik adların yaradılmasıdır.

Aybikə xala hekayəsində *Qarğa Vəli, Yorğa Həşim,* Kolxozıstan povestində *Lüt Rəcəb,* Sara bibi hekayəsində *Yumurta Heydər, Çopur Zeynəb* kimi adların hər biri aşağı təbəqənin, kasıbların ünvanıdır. Məlumdur ki, Qantəmirin nəsri sosial-sinfi münasibətlərin istər ictimai-siyasi müstəvidə, istərsə də bədii müstəvidə həllinin aktual olduğu dövrdə yaranmışdı. Əslində, yazıçının işlətdiyi bu bədii təyinlərin məzmunu həmin münasibətləri özündə əks etdirir. Sara bibi hekayəsində bəy arvadı

Sara bibinin dilindən eşitdiyimiz *Çopur Zeynəb, Yumurta Heydər* adlarındakı bədii təyinlər onun aşağı təbəqənin insanlarına həqarətli münasibətini tamamlayır. Həm də onu qeyd edək ki, *qarğa, lüt, çopur, yumurta* bədii təyinlərində aid olduqları obrazın sosial-sinfi mövqelərinə həm də satirik bir işarə var.

Bəzən fikrin satirik ifadəsi üçün yazıçıya dilin ədəbi və yaxud qeyri-ədəbi dil bazasında olan sözlər kifayət etmir. Satirik sənətkar dilin söz bazasına yox, söz yaradıcılığı imkanlarına müraciət edir. Böyük rus satiriki Qoqolun yaradıcılığında da bu xüsusiyyət özünü göstərirdi. "*Qoqolda gülüş yaratma vasitələrindən biri qeyri-təbii söz yaradıcılığı və ya lüğətdə olmayan sözlərin işlənməsidir"* [136, s.89].

"Söz dağarcığı" hekayəsində onun paxırını açan məqaləyə obrazın qeyzini satirik tərzdə ifadə etmək üçün müəllif *nağıllı* sözünü uydurur.

Rayon qəzetəsi iri xətt ilə adını yazıb altında bir nağıllı məqalə buraxır [88, s.312].

Bu cümlədə *məqalə* sözünə bədii təyin kimi yanaşan *nağıllı* sözünün yaratdığı paradoksallığın komizmi vardır. Belə ki bu sözün kökünün ifadə etdiyi uydurmaçı, fantastik məzmuna sığınaraq məqalənin qeyri-ciddiliyi ilə bağlı təsəvvür formalaşdırmaq istəyən obazın təhkiyəsi gülüş doğurur.

Mənim tələbəm hekayəsində obrazın satirik xarakterinin cizgilərini müəllif onun geyimində də cızır.

Dördüncü gün, butulka şalvarda, lotkaburun batinkada idi"[88, s.184].

Bu cümlədə işlənmiş *butulka, lotkaburun* təyinləri ilə müəllif oxucunun təsəvvüründə obrazın geyiminin karikaturik şəklini cızmaq istəmişdir.

Qantəmir bu hekayədə tələbənin geyiminin komik təsviri üçün metonimiyadan da istifadə etmişdir. Bu obrazın yaşam, düşüncə tərzinin mənasızlığını, bivecliyini onun geyimində satirik təsvir obyektinə çevirmək istəyən yazıçı metonimiyadan istifadə edərək altıncı gündə tələbənin Amerika ilə Avropanı bir-birinə qatıb qarışdırdığını söyləyir. Mədəni tərəqqi arxasınca kənddən şəhərə gələn tələbənin artıq bu dərəcədə "tərəqqi etməsi" gülüş doğurur.

Prof. Qəzənfər Kazımov yazır ki, XX əsrin əvvəllərində, demək olar, bütün satirik yazarlar müqayisələrdən komizm vasitəsi kimi bəhrələnmişlər. Ancaq bu,

bütün satirik ustadlarda eyni şəkildə olmur. Müqayisə obyektləri müxtəlif olduğu kimi, onlardan istifadə qaydası da fərqlənir. Bəzi ədiblərin nəsr dilində komik tipli müqayisələr az işləndiyi halda, elə yazıçılar var ki, əsasən də Mir Cəlal və Qantəmir yaradıcılığında belə vasitələrdən daha çox istifadə olunur.

Bədii müqayisələrin satirik keyfiyyəti, adətən, müqayisə detallarının uyğunsuzluğu üzərində qurulur. Komik bədii əsərlərdə müqayisələr gülüş mənbəyi kimi verildiyindən, satirik yazıçı zərif müqayisələrdən daha çox, əsasən kobud müqayisələrə üstünlük verməli olur. Belə vəziyyət yazıçının obraza olan münasibətini göstərən, komik əhval-ruhiyyə əmələ gətirən vəziyyət olub, komik məzmunlu bədii əsərlərin əsas əlamətlərindən sayılır [82, s.129].

Firqə qurultaylarından, çarizmdən, Fransa inqilabından az-çox cavab verə bilən tələbələr "beşillik plan","Çin hadisələri", "Sağ təmayül", "Sənayeləşdirmə" mövzularından bir turşu alça qədər dadmamışlardı [88, s.149].

Bənzətmə fiqurları, adətən, yükək estetik keyfiyyətlərə malik əşyalar olur. Bu nümunədə mövzu haqqında biliyin *turş alça ilə* müqayisəsinin yaratdığı qeyri-estetik, qeyri-poetik məzmun komizm doğurur.

Qantəmir nəsrində uyğunsuzluğun müxtəlif formalarından komik fiqur kimi istifadə edilmişdir. Bu bədii üsul onun yaradıcılığında heç də həmişə bənzətmə fiqurlarının uyğunsuzluğu üzərində qurulmur, bənzədilənlər, əslində, müqayisəyə gələn əşyalardır. Belə müqayisələrdə komiklik qarşılaşdırmanın doğurduğu məzmunla bağlı olur. Məsələn, Dəfatirati-üzviyyə hekayəsində Məhəmməd Cəfərin tərxunla keşniş haqqındakı təsəvvürləri olduqca maraqlıdır. O, belə hesab edir ki, tərxun keşnişə nisbətən daha çox avropalıdır.

Qantəmir uyğunsuzluğu bir-birinə yaraşmayan iki predmetin tapılması kimi asan bir variantda qurmamışdır. *Tərxunla kişniş* eynicinsli bitkilərdir və onların müqayisəsi gülüş doğurmur. Komiklik bu bitkilərin müqayisəyə gətirilməsinin məqsədində və gəlinən nəticədədir. Burada uyğunsuzluq Avropa tərzini münasib olmayan yerdə - göyərtidə axtarılmasındadır. O, elə dil elementlərini bədii vasitəyə çevirmişdir ki, onların uyğunsuzluğu satirik məzmunla müşayiət olunmaqla yanaşı, həm də dərin məna-mahiyyət kəsb edir. Belə ki kişnişin yerli, tərxunun isə avropalı

kimi xarakteristikası ilə Qantəmir həmin dövrdə cəmiyyətdə mövcud olan kor-koranə avropalaşmaq tendesiyasına çox ümumiləşmiş və komik şəkildə işarə etmişdir.

Qantəmir dilində elə bənzətmə fiqurlarına da rast gəlirik ki, onlar yazıçının yaradıcılıq məhsulu deyil, dildə formalaşmış, az qala qəlibləşmiş müqayisələrdir. Məsələn:

Lakin Sürəyyanın qəlbi üçüncü mərtəbədən yerə atılan bir şişə parçası kimi qırılmışdı [88, s.331].

Qəlb küskünlüyün qırılmış şüşə parçasına bənzədilməsi dilimizdə işlənən və kifayət qədər poetik gözəlliyə, bədii-estetik məzmuna malik müqayisədir. *Qəlbi üçüncü mərtəbədən yerə atılan* feili sifət tərkibinin *şişə parşası* bənzətmə fiquruna təyin kimi yanaşması bu müqayisənin poetik gözəlliyini pozmuş, komik keyfiyyət vermişdir.

Yaxud Kolxozstan povestində müqayisənin komizmi frazeoloji birləşməyə istinadən qurulub.

Yumurtası tərs gələn toyuq kimi o tərəf - bu tərfə çapalayır və patrondaşlarını heybəsinə yerləşdirə-yerləşdirə deyirdi [88, s.15].

Aydındır ki, komizm elə bir bədii ifadə vasitəsidir ki, onun bədii hədəfində həmişə tənqid dayanır. Müqayisə isə tənqidi təhlillərin verilməsi üçün ən tutarlı vasitədir. Söz dağarcığı hekayəsində bədii müqayisədə müəllif dövr üçün son dərəcə əhəmiyyətli sosial-ictimai bir məsələni mövzuya çevirmişdir.

Amma bir çox kişilərin qadınlar haqqındakı fikirləri dəvə quyruğu kimi öz yerində qalır [88, s.307].

Burada müqayisənin yaratdığı komizmin effekti güclü olduğu kimi, tənqidi çəkisi də ağırdır. Tənqidin bu ağırlığına müəllif onun obrazlı şəkildə ifadəsi ilə nail olmuşdur. Çünki obrazlı dil daha efektiv və təsirli dildir. Bu nümunədə müqayisənin linqvistik təhlilinə nəzər salanda görürük ki, o, mücərrəd və konkret əşyalar arasında qurulmuşdur. Fikir kimi vizuallıq ilə heç bir əlaqəsi olmayan əşyaya müəyyən bir zahiri formanın verilməsi (*dəvə quyruğu kimi)* bənzətməni gülünc etmişdir.

Yazıçı əsərin digər bir məqamında da Azərbaycan kişisinin təfəkküründə qadın obrazını *dəvə quyruğu* bənzətməsinin bədii ifadəsində vermişdir.

-Heç... fikrim budur ki, bunlar xalis dəvə quyruğudurlar. Qadınlar haqqında bu adamların düşüncələri bircə santimetr olsun, qabağa uzanmamışdır [88, s.308].

Müəllif yenidən bu müqayisəyə qayıtmaqla təkrara yol verməmişdir. Belə ki ondan istifadə etməklə fikrin yeni şəkildə satirik ifadəsini qurmuşdur. Burada düşüncənin konkret əşya ilə müqayisəsi deyil, onun konkret əşya kimi ölçü şkalasına qoyulması gülüş doğurur.

Qantəmir nəsrində bəzən komik müqayisə dialoq mövzusuna çevrilərək gülüşü daha da şiddətləndirir. Məsələn, "Şarlatan" hekayəsində tüfeyli həyat keçirən kəsin təsviri obrazlar arasında belə bir söhbətə səbəb olur.

-Çaxır tuluğu kimi. Elə bil püfləyib doldurublar.

Onda motal kimi de də, çaxır tuluğunu püfləməzlər [88, s.293].

"Sürəyyanın qayınanası" hekayəsində komik müqayisənin effekti yalnız müqayisə predmetlərinə söykənmir.

Bağban Haşım ona dəymiş bir qarpız və ya yetişmiş bir armud kimi baxırdı [88, s.328].

On yaşlı Sürəyyanın armud və ya *qarpızla* müqayisəsinin yaratdığı gülüşü həm də bu müqayisəni quran kəsin bağban olması daha da artırır.

Qisas alındı hekayəsində müəllif mənfi surətin ölüm səhnəsini belə təsvir edir:

Bu halda atılan güllələr bəyin kəlləsini qarpız kimi partlatdı [88, s.210].

Məlumdur ki, "Qisas alındı" hekayəsi satirik əsər deyildir. Ancaq satirik təhkiyəyə meyil Qantəmirin bütün əsərlərində özünü göstərir. Güllələrdən parçalanan kəllənin partlayan qarpıza bənzəməsi onun karikaturik təsvirini yaratmışdır.

Yazıçının satirik təhkiyəsi üçün komizmi bütün cümlənin məzmununa deyil, bir sözə yaxud ifadəyə istinadən qurmaq xarakterikdir. Adətən, sintaktik konstruksiyanın bütün detallarının ansambl şəklində qurduğu mübaliğə də Qantəmirin dilində yalnız bir sözün və ya ifadənin ağırlığı üzərində qurulur.

Qantəmirin nəsrində satirik mübaliğənin linqvistik strukturunu daha aydın dərk etmək üçün bir bayatıda onun ifadəsinə nəzər salaq:

Mən aşiqəm sal yana,
Dara zülfün, sal yana.

Necəsən, bir ah çəkim,
Kür quruya, sal yana?

Göründüyü kimi, mübaliğə bayatının ücüncü, dördüncü misralarında cümlənin bütün komponentlərində öz ifadəsini tapmışdır.

İndi isə Qantəmir nəsrində mübaliğənin ifadə şəklinə baxaq:

Adam lap ürəkdən kommunist olsun, millətbaz olsun, idealist, sofiməzhəb olsun, şeyx olsun, peyğəmbər olsun, nə olur-olsun, yenə Hacı Əliqulu ona lazım olur [88, s.220].

Hacı Lələ hekayəsində obrazın satirik xarakterinin bu təsvirinin mübaliğəli formasını *peyğəmbər* sözü yaradır. Əgər bu sözü cümlədən çıxarsaq, fikrin ifadəsində şişirtmə də yox olur.

Mübaliğə, xüsusən, təsvirin satirik bədii ifadəsində ən uğurlu bədii vasitələrdəndir. İntelligent hekayəsində Qantəmir obrazın üzərinə gülmək üçün onun geyimini mübaliğəli şəkildə təsvir edir.

Şalvarının qalifesində ikiyaşar dovşan balası asudəcə gizlənə bilərdi [88, s.182].

Qantəmirin nəsrində komik dil ansamblında tropların həcmi böyük olmasa da, effektivliyi güclüdür. Onların xalq dili və ya danışıq sintaksisinə yaxın şəkildə qurulması bu effektivliyi təmin edən əsas vasitələrdən olmuşdur.

3.3. Frazeoloji birləşmələrin, atalar sözlərinin komik təbiəti

Qantəmir nəsrində komizmin poetikası, demək olar ki, sadə, ümumxalq dil vahidləri vasitəsilə əks olunmuşdur. Artıq araşdırmamızın əvvəlki fəsillərində də qeyd etdiyimiz kimi, ədibin xalq danışıq dilinə yaxından bələd olması ona bu cür dil nümunələrinin komik gücündən yetərincə yararlanmaq şansı vermişdir. Qantəmir nəsrində komik situasiyanın yaranmasına xidmət edən dil elementlərindən biri də frazeoloji birləşmələrdir.

Digər dil nümunələri ilə bərabər, frazeloji dil vahidləri də dəqiqliklə seçildikdə, ondan məharətlə istifadə olunduqda, bədii əsərin lüğət tərkibi rəngarəngləşir, yerində

deyilən atalar sözləri, mənalı ifadələr, söz ustadlarından çəkilmiş nümunələr dilin bədiiliyini yüksəldir, təsiretmə qüvvəsini artırır. Elə bu səbəbdən belə dil nümunələrindən kasad olan bədii əsərlər sanki rəngsiz-boyasız görsənir, öz oxunaqlığını itirir. Satirik əsərlər digər növ əsərlərdən bu keyfiyyətlərinə görə seçilməsə də, belə bədii ədəbiyyat nümunələrində ümumxalq dilindən süzülüb gələn frazeologiya komik gücünə, komik şəraitdə komik keyfiyyət yaratma xüsusiyyətlərinə görə özünəməxsus rəng alaraq bədii əsərlərə xüsusi ifadəlilik gətirir [128, s.156].

Frazeologiyadan yetərincə istifadə bədii ədəbiyyat nümunələrinin daha tutarlı, mənalı, oxunaqlı olmasına səbəb olur. Bilirik ki, frazeologiya bədiiliyin əsas göstəricilərindən biridir, bədii dil nümunələrinə obrazlılıq qatan əsas əlamətlərdən sayıla bilər.

Frazeologiyanın bədiilik imkanları həm də onun komik imkanlarını şərtləndirir.

Şıq geyimli bir qadının bu sözü arxadakı bir az yaşlı arvada söylədiyini gördüm, elə bil arvadı cır arı vurdu [88, s.266].

Bu cümlədə yazıçı iki qadın arasında olan sözləşmənin komik mənzərəsini təsvir etmək istəmişdir. Bunun üçün o, xalq dili frazeologiyasına müraciət etmiş, bu dilin zəngin xəzinəsindən bədii məqsədin həyata keçirilməsi üçün uğurlu vasitə kimi *cır arı vurmaq* birləşməsini bədii mətnə gətirmişdir. Bu birləşmənin cümlədə predikativ funksiyası şıq geyimli qadının sözünə qarşı bir az yaşlı arvadın göstərdiyi hirsi ifadə etməkdir.

Hirs emosiyasını ifadə etmək üçün dilimizdə çoxsaylı sözlər və frazeoloji birləşmələr vardır. Məsələn, *hirslənmək, əsəbiləşmək* kimi sözlər və *cin atına minmək, özündən çıxmaq, hirsi təpəsinə vurmaq* və s. kimi frazeoloji birləşmələr. Yazıçının bunların içərisindən seçdiyi *cır arı vurmaq* birləşməsi yalnız obrazın hirsini deyil, onun deyilmiş sözə verdiyi reaksiyanın komik şəklini ifadə edir.

Qantəmir yaradıcılığında xalq danışıq dilindən gələn frazeologiyanın bədii-komik diapazonu daha genişdir.

"Canlı danışıq dili milli frazeologiyanın əsas zənginləşmə qaynağıdır" [128, s.8].

“ ....mətnin bədiiliyi və obrazlılıq səviyyəsi müəllifin xalq dilinə yaxınlığından, onun xalqın bədii təfəkkürünü, obrazlı düşüncə tərzini nə dərəcədə bilməsindən və bundan yararlanmaq qabiliyyətindən asılı olur” [98, s.8].

Xalq dili frazeologiyasının bədiilik imkanları kimi komiklik imkanları da daha genişdir. Qantəmir həssas bir sənətkar kimi bu imkanları duya və bədii mətndə dəyərləndirə bilir. “Mənim tələbəm” hekayəsində obraz küçədə gördüyü gözəl bir qıza tamah salan dostuna deyir:

-Mən ölüm, boşla getsin, mən onu tanıyıram, onlardan deyil. Əzizbəyov küçəsindəki diş həkiminin qızıdır. Bundan sənə yağ düşməz, gəl bu yana [88, s.188].

Müəllif xalq danışıq dilindən gələn *yağ düşməz* frazeoloji ifadəsini işlətməklə, bu birləşmənin tərkibindəki *yağ* sözü vasitəsi ilə gənclərin qıza münasibətində bir yemək assosasiyası yaradır. Göründüyü kimi, Qantəmir komik ifadəetmələrdə ifadə vasitələrini seçərkən ən incə məqamlara belə diqqət yetirmişdir.

Onu da qeyd edək ki, yazıçının dilində komik vasitə kimi xalq dilindən bədii mətnə gələn elə ifadələr var ki, onlar kütləvi işləkliyə və anlaşıqlığa malik deyillər. Baxmayaraq ki, oxucuya bu ifadələr tanış deyil, onların mənasını dəqiq bilmir, ancaq hər bir oxucu bu ifadələrdəki komizmi duya bilir.

Mən yolda milisin gözünü oğurlayıb qarışdım adamlara. Oradan dızıqquluya dən verdim [88, s.190].

Dızıqquluya dən verdim frazeoloji birləşməsi oxucu üçün anlaşıqlı olmasa da, bu ifadə vasitəsi ilə obrazın satirik xarakterinin cizgilərini duyur. Bu ifadə dialekt frazeologiyasında *qaçmaq, uzaqlaşmaq* mənasındadır.

Bu cümlələr Mənim tələbəm hekayəsində müəllim yanında darülfünuna hazırlaşan tələbənin dilindən verilir. Dərslərinə qeyri-ciddi yanaşıb, özünü kefə həsr edən bu tələbənin satirik obrazının təsvirində müəllifə yalnız məzmun detalları yox, həm də dil elementləri lazım olmuşdur. Belə ki, müəlliminin tapşırığı ilə bir günlük xatiratını yazan tələbənin söylədikləri komikdir, xalq dilinin müxtəlif qatlarından gələn ifadələrlə bu məzmunun verilməsi komizmi daha da dərinləşdirmişdir. Diqqət edək ki, yuxarıdakı *cümlələrdə gözünü oğurlayıb, dızıqquluya dən verib* ifadələrini

onların sinonimləri ilə əvəz etsək, komik məzmun itməsə də, onun koloriti azalmış olur.

Birinci cümlədəki *gözünü oğurlayıb* frazeoloji birləşməsi müəyyən morfoloji fərqlərlə - *gözündən oğurlanmaq* şəklində ədəbi dildə işlənir. İkinci cümlədəki *dızıqquluya dən vermək* birləşməsi isə müəllif dilinə dialektdən gəlmişdir. Bu birləşmənin loruluğu komizmi gücləndirmişdir.

Qantəmir nəsrində frazeoloji birləşmənin işləndiyi elə məqamlar da vardır ki, onu leksik vahidi ilə əvəz etsək, mətn öz komikliyini itirir.

Vəsiyyət hekayəsində həkimlərin yararsız müalicəsindən və pulgirliyindən şikayət edən obraz deyir:

Həkimlərdə o taqsır var ki, əlinə azarlı keçəndə <u>*soyub soğana döndərirlər*</u> [88, s.225].

Bu cümlədə həkimlərin rüşvətxorluğunun tənqidinə satirik çalar qazandıran dil vahidi *soyub soğana döndərmək* birləşməsidir. Əgər burada fikri eyni semantikanı ifadə edən pulunu almaq feili ilə ifadə etsək, tənqidin çaları öz rəngini tamamilə dəyişərək tragik məzmun alır.

Məlumdur ki, fikrin loru, kobud ifadəsi bədii gülüş yaradan vasitələrdən biridir. Ona görə də Qantəmir məqsədli şəkildə bu cür ifadəyə malik frazeoloji birləşmələrə müraciət etmişdir. Qantəmirin nəsr dilində elə nümunələr vardır ki, fikrin gülüş yaradacaq qədər loru, kobud ifadəsi frazeoloji birləşmənin işləndiyi sintaktik konstruksiyalarda öz əksini tapmışdır.

Mən belə cavab vermişəm ki, <u>*ruhuma qaşov çəkmə*</u> [88, s.191].

Bu cümlədə gülüş qammaları *"ruhuma qaşov çəkmə"* sintaktik konstruksiyasında *ruh* sözünün və *qaşov çəkmək* frazeoloji birləşməsinin bir-birinə zidd məzmununda müşayiət olunur. Belə ki, *qaşov çəkmək* heyvanın tozunu və çirkini təmizləmək hərəkətinin icrasını ifadə edir, normativ dildə hər hansı bir heyvan anlayışı ilə yanaşı işlənir. Bu birləşmə yuxarıdakı cümlədə heyvan sözünün kobudluğuna tamamilə zidd olan ruh sözünə yanaşaraq incə danışmaq istəyən bir kəsi gülünc bir vəziyyətdə qoymuşdur.

Satirik dilin gücü yalnız onun doğurduğu gülüşdə deyil, həm də onun mətnaltı mənasındadır. Müəllif yuxarıdakı cümlədə həm də mənanın bu formasından istifadə etmişdir. Belə ki *qaşov çəkmək* ifadəsi ilə obrazın heyvanlığına işarə etmişdir.

Söz dağarcığı hekayəsində rayonda doktor işləyən bir kəsin söylədiklərinə diqqət edək:

Rayonda işləməyin səfası nə qədər çoxsa, zəhmət və cəfası da o qədər çoxdur. Şəhərdə qədəğən olmayan çox işlər burada yasaqdır... Heç bir zadın üstündə görürsən ki, adam getdi gurultuya... Peşimansan ki, azarlının gətirdiyi iki girvəngə yağı qəbul edəsən. Və yaxud tapşırasan ki, pulu ilə sənə yumurta alsın... İki gün sonra məktəblərin divar qəzetlərində görürsən ki, səni biabır ediblər... hələ böylə qalsa, eybi yoxdur... Rayon qəzetəsi iri xətt ilə adını yazıb altında bir nağıllı məqalə buraxır... Yağ adamın burnundan tökülür, yumurta da... [88, s.312].

Burada yazıçı obrazın dilində rüşvət almaq qadağasını satirik bir təhkiyə ilə nəql etmişdir. İlk cümlədən başlayaraq bütün nitqi müşayiət edən gülüş ahəngini sonuncu cümlədəki *burnundan tökülmək* frazeoloji birləşməsi kəskinləşdirir və yekunlaşdırır. Məlumdur ki, *burnundan gəlmək* birləşməsi xeyrini gördüyü bir şeyin sonradan zərərini yaşamaq mənasını ifadə edir və müəllif doktorun aldığı rüşvətin aqibətini bu birləşmə ilə verməklə onun üçün acı, oxucu üçün isə gülməli bir situasiya qurur. Əslində, dilimizdə bu birləşmə burnundan tökülmək yox, burnundan gəlmək şəklindədir. Yazıçının *gəlmək* sözünü *tökülmək* sözü ilə əvəzləməsi komik dil qurmaq işinə xidmət edir. Belə ki, birləşmənin *burnundan tökülmək* şəkli işin fizioloji mənzərəsini göz qabağına gətirdiyindən alınan rüşvətin aqibətinə daha bərkdən gülmək mümkün olur.

Qantəmirin yaradıcılığında kinayəli gülüş ən tutarlı və çəkili komik detallardandır. Gülüşün bu tipinin qurulmasında müəllifə kömək edən vasitələrdən biri də frazeoloji birləşmələrdir. “Hacı Lələ” hekayəsindən belə bir məqama diqqət edək:

Bir gün gələcəkdir ki, Hacı Əliqulu əmini əli çıraqlı axtaracağıq, tapa bilməyəcəyik [88, s.220].

Bu hekayə başdan ayağa qədər qəhrəmanın məziyyətlərinin bədii təsvirləri üzərində qurulub. Müəllif kinayəli bir dillə Hacı Əliqulunun işbazlığını təsvir və tərif edir. Yuxarıdakı cümlədəki *əli çıraqlı axtarmaq* ifadəsi də müəllifin qəhrəmanına etdiyi kinayənin ifadəsi kimi mətnə daxil olmuşdur. Məlumdur ki, bu ifadə yoxa çıxmış dəyərli bir şey haqqında söylənir. Yazıçı Hacının hansısa yollarla iş düzüb-qoşmaq bacarığına *əli çıraqlı axtarmaq* ifadəsi ilə istehza etmişdir. Bu ifadə onun etdiyi yardımların mənfi çalarını vermək gücünə malikdir.

Bəzən bir mənfi hadisəyə bir fraza ilə gülmək, onu bir fraza ilə ifşa etmək olur [131, s.38].

Bu hekayədə digər bir situasiyada da qəhrəmana müəllif istehzası frazeoloji birləşmədə ifadə olunmuşdur.

Doğrudan da, Hacının <u>*bir əli oddur, bir əli su*</u> [88, s.220].

Onu da deyək ki, istər *əli çıraqlı axtarmaq*, istərsə də *bir əli oddur, bir əli su* birləşməsi, demək olar ki, heç bir informativ funksiya daşımır, komizmin bədii dil elementləri kimi çıxış edir. Başqalarına yardımçı olmaq məziyyətini ifadə edən *bir əli oddur, bir əli su* birləşməsi bu cümlədə Hacının bu xüsusiyyətini ifadə etmək üçün müəllifə lazım olmamışdır. Bütün əsər boyu oxucusuna Hacının yardım etmək məziyyətləri haqqında kifayət qədər məlumat verən müəllif bu ifadələr vasitəsi ilə bu yardımlara öz münasibətini ifadə etmişdir. "Aybikə xala" hekayəsində isə *bir əli oddur, bir əli su* birləşməsi bədii mətnə informtiv məqsədlə daxil edilməmişdir.

Yorğa Həşimin hamının boynunda haqqı var, rəhmətliyin <u>*bir əli su idi, bir əli od,*</u> *hamının işinə yarayırdı* [88, s.317].

Qeyri-satirik üslubda yazılmış bu hekayədə müəllif *bir əli oddur, bir əli su* birləşməsi vasitəsi ilə Yorğa Həşimin keyfiyyətlərini vermək istəmişdir.

Göründüyü kimi, frazeoloji birləşmə mətn kontekstindən asılı olaraq komik, yaxud da qeyri-komik çalar qazanır. Frazeoloji birləşmələrin bu xüsusiyyəti barədə Qəzənfər Kazımov yazır: "*Dilimizdə elə frazeoloji vahidlər vardır ki, gülüş qammasının çalarları onların öz təbiətindəndir. Sözsüz, komik əsər yaradan satira ustası beləvasitələrdən yan keçəbilməz. Bu qrupa daxil olan frazeoloji vahidlər mənşə-yaranış etibarilə komik sematikaya malik olur və tarixin ən kiçik*

satirik əsəri kimi formalaşır. Frazeoloji vahidlərin və ümumiyyətlə xalq dili frazeologiyaının bir qisminə aid olan bu xüsusiyyətkomizmin dil vasitələrinin hüdudunu xeyli genişləndirir. Bu cür dil faktlarının komik təsirliliyi komik mühüt və başqa sözlərlə əlaqə kimi amillərlə o qədər də bağlı deyildir" [82, s.159].

Qantəmir yaradıcılığında komik məzmuna malik olmayan mətn daxilində təhkiyəyə komik çalar qatmaq gücünə malik frazeoloji birləşmələrin də işləndiyi məqamlara rast gəlirik.

Lakin oğlu Tapdığı Hacı Nemətin böyük oğlu məktəbdə bərk döyəndən sonra Aybikə də papağını tərs çöyürdü və uşağının başına yağlı xəmir salarkən gözünün yaşını silə-silə:

-*Yaxşı... – demişdi* [88, s.319].

Bu cümlə "Aybikə xala" hekayəsində verilmişdir. Bu hekayə oxucuya varlı ailənin qapısında özu və səkkiz yaşlı oğlu nökərçilik etməyə məcbur qalan bir qadının acı taleyini dramatik bir tərzdə nəql edir. Göründüyü kimi, bu cümlədə də nə komik situasiya, nə də fikrin komik ifadəsi yoxdur. *Papağını tərs çöyürdü* birləşməsi isə hadisələrin dramatik məzmununa xəfif bir komik çalar əlavə edir. *"Frazeologiya insan şüurunun hazırladığı ilk bədii məhsuludur. Frazeoloji vahidlər öz başlanğıcında məhz bədii əsərdir"* [59, s.4].

Demək, frazeologiyalar bir bədii mətn kimi öz yaranışlarında müəyyən bir üsluba malikdir. Vahid bir məna ətrafında toplanan *papağını tərs çöyürmək* birləşməsinin komponentləri də bir-biri ilə əlaqədə semantikanın komik ifadəsini yaratmışdır. Həm də bu birləşmənin qadın haqqında işlənməsi bu komik ifadəni gücləndirmişdir. Aybikə qadındır və məlumdur ki, həmin dövrdə papaq qadın geyiminə daxil deyildi. Məhz papaq sözünün qadın anlayışı ilə yaratdığı uyuşmazlıq dilə komik çalar qatmışdır. Dildə hazır şəkildə olan bu cür ifadələr, təbii ki, yazıçı üçün əlverişli komik vasitələrdir. Qantəmir satirik bir yazıçı duyumu ilə bu cür ifadələri dilin frazeoloji bazasından axtarıb tapa və bədii mətndə işlədə bilmişdir.

Orada nə edirlər, bilmirəm, ancaq ərim gecə vaxtı gec gələrdi. Özü də lülüşqulu. Bizi aftabanın ağzından salıb lüləyindən çıxardardı [88, s.166].

Aftabanın ağzından salıb lüləyindən çıxartmaq birləşməsinin məzmunu nə qədər komizmdən uzaq olsa da, bu birləşmənin zahiri detalları *(aftabanın ağzından salıb lüləyindən çıxmaq prosesi)* gülüş doğurur.

Qantəmir öz təhkiyəsində komik üsluba meyil edən sənətkarlardandır. Bədii strukturun qeyri-satirik detallar üzərində qurulduğu əsərlərdə belə o, təhkiyəyə komik rəng qatmaq fürsətini fövtə vermir. Kolxozıstan povestinin qeyri-satirik üslubunda da Qantəmir frazeoloji birləşmənin komik tərzindən nitqin canlı formasını almaq üçün istifadə etmişdir:

Xalça alanların elə bil hamısı bir-birinin ağzına tüpürüb [88, s.21].

Qantəmirin məzmununda deyil, zahiri detallarında komizm daşıyan frazeoloji birləşmələrə hər fürsətdə müraciət etməsi onu göstərir ki, yazıçı üçün yalnız fikrin ifadəsi yox, həm də onun ifadə tərzi başlıca şərt idi. O, əsərlərində ifadə tərzini komik çalarda qurmaq üçün yalnız dilin frazeoloji bazası ilə kifayətlənməmiş, həm də dilin imkanlarından istifadə edərək özü bu cür birləşmələr yaratmağa cəhd etmişdir.

Həbsdən azad olundu, bir qədər sonra vicudi-paki firqədə natəmiz göründü, süpürgənin quyruğu bir balaca ona toxundu [88, s.183].

Süpürgənin quyruğu toxunmaq frazeoloji birləşməsinə dilimizin lüğət bazasında rast gəlinmir. Müəllif bu birləşməyə süpürgənin quyruğu kimi qeyri-ciddi detallar gətirməklə fikrin ifadəsini komik müstəviyə keçirmişdir. El arasında belə inanc var ki, süpürgəni ayağa toxundurmazlar, yoxsa həmin adam şərə düşər. Yazıçı bu el inancından istifadə edərək farazeoloji birləşmə vasitəsilə cümləyə komik don geyindirmişdir.

Sözün zoğalını adamın şax alnına deyərlər [3, 76]. Bu cümlədə işlənmiş *sözün düzü* formasında anlaşılan sözün zoğalı ifadəsi yazıçının novatorluğundan irəli gəlir.

Nümunələrdən göründüyü kimi, Qantəmirin nəsr dilində bir sıra maraqlı frazeoloji birləşmələrə rast gəlirik. Məsələn:

...süpürgənin quyruğu bir balaca ona toxundu – şərə düşmək

min dərədən su götürür, aləmi bir – birinə qarışdırır – gec cavab vermək

yığırmış torbasına – yadda saxlamaq

bitdən sirkəyə kimi - ətraflı, hər xırdalığına qədər

ruhuma qaşov çəkmə – narahat etmə

hamının qabığını çıxardıb - iç üzünü açıb göstərmək

soyub soğana döndərmək - pulunu almaq

paçti yarısını qoydum yerə - qaytarmaq

çestimi əlimdən buraxmaram – namusumu əlimdən vermərəm

dişi ağarır – gülmək

qabına sığmayırdı – sevinmək

dişlərini səfərbərliyə almışlardı- hərisliklə yemək

sözün zoğalı - sözün düzü

Məlumdur ki, xalq danışıq dilinin ədəbi dilə nisbətən satirik potensialı daha güclüdür. Odur ki, əsərlərində satirik üsluba yiyələnmək üçün Qantəmir xalq təfəkkürünün hər bir imkanından yararlanmışdır. Xalq dilinin zəngin xəzinəsində belə imkana malik elementlərdən biri də atalar sözləri və məsəllərdir. Qəzənfər Kazımov yazır: *"...Məhsuldar və intensiv işlənmə imkanlarına görə atalar sözləri və məsəllər, ibarə və şablonlar, hikmətli sözlər və aforizmlər digər komizm vasitələri ilə müqayisədə məhdud olsa da, mənalılıq və komik situasiyanı gücləndirmək baxımından bəzən nəzəri daha çox cəlb edir* " [79, s.175].

Məlumdur ki, atalar sözləri və məsəllər kommunikativ funksiyaya malik sabit birləşmələrdir və dilçilik ədəbiyyatlarında onlar frazeoloji birləşmələrin bir növü kimi göstərilir.

Afad Qurbanov frazeoloji ifadələr sırasına atalar sözləri, məsəllər, yazıçıların yaratdığı məsəlvari ifadələri - aforizmləri, həmçinin bəzi rəvayətli ifadələri, ştamp, klişe adlanan ifadələri, ədəbi sitatları və s. daxil edir.

Qantəmir yaradıcılığında atalar sözlərinin bədii-estetik diapazonundan, fikir və məna yükündən hər fürsətdə istifadə edilmişdir. Ancaq biz onların komik dil elementi kimi işləndiyi məqamlara nəzər yetirəcəyik.

İntelligent hekayəsində yazıçı tək bircə şeydən - idarələrin milliləşməsindən qorxan qəhrəmanın qorxularının gerçəkləşməsini belə ifadə etmişdir.

Qorxan gözə çöp düşər deyərlər. Bunun da gözünə çöp düşdü [88, s.82].

Vəsiqələrinin anarxiya zamanı qayib olduğunu bəhanə edərək anketlərə "türkcə, rusca ali təhsil" görməsi ilə bağlı yalan məlumat ötürən hekayə qəhrəmanının idarələrə "işlərin milliləşdirilməsi" ilə bağlı gələn əmri eşidərkən keçirdiyi hisləri "bunun da gözünə çöp düşdü" deyərək atalar sözünə istinadən sözün məcazi, satirik boyaları ilə təsvir edir. *Gözünə çöp düşdü* birləşməsi müəllifə türkcəni bilmədiyi halda tərcümə adı ilə işbazlıq edən qəhrəmanına istehza etmək üçün lazım olmuşdur. Məlumdur ki, atalar sözləri idiomatik ifadələrdir, burada sözlər öz həqiqi mənalarından uzaqlaşaraq vahid bir məna ətrafında birləşir. Qantəmir *Bunun da gözünə çöp düşdü* cümləsində *Qorxan gözə çöp düşər* idiomatik vahidinin komponentlərini öz həqiqi mənasına qaytararaq atalar sözünün ifadə etdiyi nəsihətamizliyi komizmlə əvəzləmişdir.

Vulqar sözlər yalnız ayrılıqda yox, atalar sözləri daxilində də komik vasitə olmaq imkanlarını saxlayır. Bu sözlərin iştirak etdiyi atalar sözləri, adətən, satirik məzmun daşıyır. Mirzə Aves hekayəsində *Eşşək qazanar, at yeyər* [88, s.235]-atalar sözü vasitəsi ilə müəllif Şərq-Qərb arasındakı münasibətləri ümumiləş-dirmişdir. Burada *eşşək* sözü Şərqin mütiliyinə, at sözü isə Qərbin fironluğuna müəllif rişxəndini ifadə edir.

Qantəmir əsərlərində atalar sözünün komik keyfiyyətindən bədii fikrin ifadəsi üçün istifadə etdiyi kimi, bu keyfiyyəti ona bədii mətnin məzmununda qazandırdığı məqamlar da olmuşdur. Qəzənfər Kazımov yazıçının komizminin bu xüsusiyyəti haqqında yazır: *Örkən nə qədər uzun olsa, yenə gəlib doğanaqdan keçər* misalı çox vaxt təsadüfi söylənən, adi halda heç bir komik keyfiyyətə malik olmayan məsəldir. *Lakin Qantəmir tın-tın Musanın nəvəsinin (İntelligent hekayəsində) təsvirində onu elə işlətmişdir ki, məsələ komik kinayə çaları qazanmışdır. Müəllif əsərin ilk cümlələrindən bu mənfi tipi oxucuya tanıtmaq uçun məsxərə ilə yazır: "... onu burada gör, bil, tanı, birdən gərəyin olar. Örkən nə qədər uzun olsa, yenə gəlib doğanaqdan keçər"* [88, s.176]. Kinayə intonasiyası ilə söylənmiş bu sözlər təsvir edilən obrazın yaramaz adam olacağını ilk andan daha tutarlı ifadə etmişdir.

Sürəyyanın qayınanası hekayəsində xalqımızın milli mental düşüncəsində tarixən qadına olan münasibəti ifadə edən *Arvadın saçı uzun, əqli qısa olar* atalar sözünün müstəvisində XX əsrin əvvəllərində Azərbaycan qadının obrazını ifadə etmişdir. Məsələn:

Keçmiş zamanlarda onu saçı uzun, ağlı qısa olmaqda ittiham edirdilər, o da bu axır zamanlarda saçını kəsib əqlini uzatmışdır [88, s.329].

Arvadın saçı uzun, əqli qısa olar atalar sözü bu mətndən kənarda belə özlüyündə komikdir. Müəllifin onun komponentləri arasında yerdəyişmə edərək yalnız Azərbaycan qadınının həyatındakı dəyişikliyi göstərməmiş, həm də bu atalar sözünün ifadə etdiyi komizmi daha da dərinləşdirmişdir. Bu dərinləşmə Hacı Qambay hekayəsində daha qabarıq şəkildədir. Yazıçı Arvadın saçı uzun, əqli qısa olar atalar sözünə istinadən obrazlar arasındakı dialoqdakı gülüşü şiddətləndirmə dərəcəsinə çatdırmışdır.

-Kişi xeylağı, gur səsi ilə, qıllı döşü ilə nazik səsli, yumurta döşlü arvad tayfasından fərqlidir.

Soruşdum ki, Hacı əmi, "arvadın saçı uzun, ağlı qısa olar" sözü haqqında sənin fikrin nədir?

-Qardaşoğlu, -dedi,- bu söz lap qızıl suyu ilə yazılmalıdır. Bax, bunu indiki qızlar başa düşübdür deyə saçlarını kəsdiriblər ki, ağıllı görünsünlər.

-Hacı əmi, - dedim - demək, tük uzun olarsa, ağıl qısa olar, eləmi buyurursunuz?

-Əlbəttə, oğul.

-Bəs sizin saqqalınız bu qədər uzundur ki?

-Saqqal qabaq tərəfdədir, amma saç dal tərəfdədir [88, s.246]

Atalar sözləri qapalı modeldir. Satirik söz tariximizdə bu qapalı modelin açılması, ondakı müdrikliyin satira ilə əvəzlənməsi ənənəsi hələ Molla Nəsrəddin jurnalından başlamışdı. Qantəmir də Mollanəsrəddinçilər məktəbinin satirik üslubunun davamçısı kimi bu vasitədən əsərlərində istifadə etmişdir. *Hər şeyin təzəsi, dostun köhnəsi* atalar sözünün leksik tərkibini dəyişməklə fikrin satirik bədii ifadəsini almışıdır.

Hər şeyin tazası, aşnanın köhnəsi [88, s.47].

Qantəmir əsərin məzmunundakı komizmi frazeoloji birləşmələr və atalar sözlərinin bədiiliyi ilə çulğalaşdıraraq gülüşün daha bədii-estetik formasını, təhkiyənin isə daha canlı şəklini yaratmışdır. Həm də bu birləşmələrin Qantəmir yaradıcılığına xalq danışıq dilindən daxil olması bu canlılığı daha da artırmış, komik bədii ifadəetməni isə daha da sadələşdirmişdir.

Tədqiqat işinin bu fəslində əldə edilən əsas elmi nəticələr "Qantəmirin nəsr dilində komik müqayisələr", "Qantəmirin nəsr əsərlərində frazeoloji birləşmələrin komik təbiəti", "Qantəmirin nəsr dilində komik troplar", "Qantəmirin nəsr dilində sözlərin komik potensialı", "Qantəmir yaradıcılığında leksik vasitələrin komizm yaratma imkanları", "Qantəmirin satirik əsərlərində antroponimlərin üslubi imkanları", "Qafur Əfəndiyevin nəsr dilində qadın nitqində gender bərabərliyi məsələsi", "Qantəmirin nəsr dilində komik frazeologizmlər", "Заимствования из русского языка в прозе Кантемира", "Qantəmirin yaradıcılığında bəzi sözlərin semantikası" məqalələrində öz əksini tapmışdır.

NƏTİCƏ

Qantəmir yaradıcılığı üzərində apardığımız linqvistik və üslubi tədqiqatda aşağıdakı qənaətlərə gəlinir:

1. Qantəmir kütlə üçün anlaşıqsız ərəb və fars istilahlarından istifadə edərək dili qəlizləşdirməyin əleyhinə olmuşdur. Yazıçı XX əsrin 20-30-cu illərində ərəb və fars dili dəbinin rus dilləri dəbi ilə əvəzlənməsi tendensiyasından narahat olmuş, bunu dilimizin saflaşması, milliləşməsi üçün növbəti təhlükə hesab etmişdir. Qantəmirə görə, milli keyfiyyətlərin qorunması dilin qorunmasından başlamalıdır.

2. Qantəmir yaradıcılığı Azərbaycan dilinin dialektoloji bazasının öyrənilməsi işinə yeni material verir. Onun əsərlərində dialektoloji tədqiqatlardan və lüğətlərdən kənarda qalmış dialektizmlərə rast gəlinir.

3. Ədibin nəsr dili göstərir ki, XX əsrin 20-30-cu illərində Azərbaycan ədəbi dilində milliləşmə və xəlqiləşmə prosesi daha əsaslı şəkildə getmişdir. Ərəb və fars dilləri passiv, rus dili isə aktiv mənbəyə çevrilməyə başlamışdı. Bədii ədəbiyyatda hələ də osmanlı-türk leksikasının işlənməsi isə müəyyən dərəcə dilin genetik yaddaşı, dil-təfəkkür kodu ilə əlaqəli hadisə hesab etmək olar.

4. Bu dövrdə milli leksikanın fəallığı nəticəsində ədəbi dildə yeni arxaik qat müəyyənləşirdi. Qantəmir nəsrində leksik arxaizmləri araşdırarkən görürük ki, ədəbi dilimizdə işlənmə təcrübəsi olan ərəb və fars mənşəli sözlər əksərən milli sözlərlə əvəzlənmişdir.

5. Qantəmir yaradıcılığında poetik leksikanın əsas materialı kimi danışıq-məişət leksikası çıxış edir. O, ümumxalq dilini ədəbi-bədii müstəviyə çıxarmış və bu müstəvidə xalq dilinin imkanlarını nümayiş etdirmişdir. Ancaq danışıq dili elementlərinin güclü hərəkətliliyi Qantəmir nəsrinin dilini loruluğa aparmamışdır.

6. Qantəmir yaradıcılığı ədəbi dil və canlı danışıq dili paralelliyinin güclü şəkildə mövcud olduğu bir dönəmdə yarandığından onun morfoloji və fonetik sistemində də xalq danışıq dili elementləri güclüdür. O, ümumxalq dilinin zənginliyindən bədii effekt yaratmaq, bədii dili canlandırmaq üçün məharətlə istifadə edə bilmişdir.

7. Onun nəsrinin dili xalq danışıq dili sintaksisinə əsaslanır. Bu sintaksisdə fikir sadə ifadə forması və çevik hərəkət qazanmışdır. Ərəb dilinə məxsus qəliz sintaktik konstruksiyalar bəzən klassik dil ənənəsinin qalığı kimi, bəzən isə bədii vasitə kimi Qantəmir yaradıcılığında qeyri-fəal şəkildə özünü göstərir.

8. Qantəmir yaradıcılığında komizmin dil elementləri aktivdır. Yazıçı dilimizin komik potensialını sadə xəlqi dil elementlərində axtarıb tapmış, frazeoloji birləşmələrdən, o cümlədən də atalar sözləri və məsəllərdən komik effekt yaradılmasında məharətlə istifadə etmişdir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

1. Abbasova, Ş. Hacıbəyovun hekayə və felyetonlarının dil və üslub xüsusiyyətləri: / filologiya üzrə fəlsəfə doktoru dis. /–Bakı, 2008, –143 s.

2. Abdinova, H. Nəriman Nərimanovun dram əsərlərinin dili və üslubu: / filologiya üzrə fəlsəfə doktoru dis. / –Bakı: 2010, –132 s.

3. Abdullayev, A. Qantəmirin pedaqoji fəaliyyəti // Azərbaycan məktəbi. –1965, № 11, -s. 75-78

4. Abdullayev, A. Qantəmirin yaradıcılığında satira // –Bakı: Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, –1964, № 5, –s.41-47

5. Abdullayev, A. Unudulmaz sənətkarlarımız − Qantəmir. // Ədəbiyyat və incəsənət. –1965, 20 noyabr

6. Abdullayeva, İ. Füzulinin "Leyli və Məcnun" əsərində ərəbizmlər: / filologiya üzrə fəlsəfə doktoru dis. /–Bakı, 2005. –175 s.

7. Adilov, M. Bədii dilimizin bəzi məsələləri // –Bakı: Azərbaycan jurnalı, –1963, №12, –s.16-20.

8. Ağakişiyeva, Ş. Ədəbi dil normaları və üslubları: / Filologiya üzrə elmlər doktoru dis. / –Bakı, 2008, –196 s.

9. Ağayeva, F. Azərbaycan danışıq dili / F.Ağayeva. -Bakı: Elm, –1987. –274 s.

10. Ağayeva, F. Danışıq dilində leksik və sintaktik vahidlər / F.Ağayeva. –Bakı: 1987, –156 s.

11. Ağayeva, F. Şifahi nitqin sintaksisi / F.Ağayeva. –Bakı: Maarif, –1975, –118 s.

12. Axundov, A. Dil və üslub məsələsi/A.Axundov. –Bakı: Gənclik, –1970, –104 s.

13. Axundov A. Dilin estetikası / A.Axundov. –Bakı: Yazıçı, –1985, –224 s.

14. Allahverdiyeva Ş. C.Məmmədquluzadənin dram əsərlərinin dili: / filologiya üzrə fəlsəfə doktoru dis. / –Bakı, 1998, –127 s.

15. Azərbaycan bədii dilinin üslubiyyatı (oçerklər) / –Bakı: Qızıl Şərq, –1970, –357 s.

16. Azərbaycan dili leksikasının məsələləri // Elmi əsərlərin mövzu məcmuəsi. –Bakı: Azərbaycan Universiteti nəşriyyatı, –1989, № 3, –101 s.

17. Azərbaycan dilinin antonimlər lüğəti / –Bakı: Şərq-Qərb, –2007, –144 s.

18. Azərbaycan dilinin dialektoloji lüğəti / –Bakı: Şərq-Qərb, –2007, –568 s.

19. Azərbaycan dilinin izahlı lüğəti: [4 cilddə] / –Bakı: Elm, –c.2. –1980. –576 s.

20. Azərbaycan dilinin izahlı lüğəti: [4 cilddə] / –Bakı: Şərq-Qərb, – c.3. –2006, –672 s.

21. Azərbaycan dilinin izahlı lüğəti: [4 cilddə] / –Bakı: Elm, –c.4. –1987, –542 s.

22. Azərbaycan dilinin morfologiyası / –Bakı: Maarif, –1988, –288 s.

23. Azərbaycan dilinin omonimlər lüğəti / –Bakı: Şərq-Qərb, –2007, –168 s.

24. Azərbaycan dilinin sinonimlər lüğəti /- Bakı: Şərq-Qərb, –2012, –424 s.

25. Azərbaycan Sovet Ensiklopediyası: [10 cilddə] / –Bakı: Elm, – c.7. –1984, –544 s.

26. Bağırov, Ə. Azərbaycan dilinin üslubiyyatı / Ə.Bağırov. –Bakı,–1985,-78 s.

27. Bağırov Ə. Azərbaycan sovet romanlarının dil xüsusiyyətləri (1946-50): / filologiya üzrə fəlsəfə doktoru dis. / –Bakı, 1955. –259 s.

28. Bağırov, Q. Azərbaycan nəsrində danışıq dilinin leksik xüsusiyyətləri / Q. Bağırov. –Bakı: APİ, –1987, –80 s.

29. Bağırova, Q. Bədii əsərlərdə danışıq dilinin qrammatik xüsusiyyətləri / Q. Bağırova. –Bakı: APİ, –1978, –95 s.

30. Bayramov, A.Ə. Azərbaycan onomastikası / A.Ə. Bayramov. –Bakı: AM965 MMC-nin mətbəəsi, –2005, –320 s.

31. Bayramov, H. Azərbaycan dilinin frazeologiyasının əsasları / H.Bayramov, tərt.ed., Y.Seyidov. –Bakı: Maarif, –1978. –174 s.

32. Bədii ədəbiyyatda xüsusi adların komik təbiəti / Azərbaycan onomastikası problemlərinə dair konfransın materialları, –Bakı, –1987, –s.237-243

33. Bəylərova, A. Azərbaycan ədəbi dilində sintaktik üslubi vasitələr / A. Bəylərova. – Bakı, –2007, –25 s.

34. Bəylərova, A. Bədii dildə üslubi fiqurlar / A. Bəylərova. –Bakı: Nurlan, –2008, –212 s.

35. Budaqova, Z. Məcazlar. Azərbaycan dilinin leksik üslubiyyatı. Oçerklər / Z.Budaqova. –Bakı, –1970, –358 s.

36. Cabbarov, X. Bədii ədəbiyyatda obrazlılıq / X. Cabbarov. –Bakı: Yazıçı, –1986. –221 s.

37. Cabbarov, X. Sənətkar, söz, üslub / X. Cabbarov. –Bakı: Maarif, –1993. –122 s.

38. Cavadzadə E. Əli Tudə əsərlərinin dili və üslubu: / Filologiya üzrə fəlsəfə doktoru dis. / –Bakı, 2008. –138 s.

39. Cəfərov, S. Müasir Azərbaycan dili (Leksika) / S.Cəfərov. –Bakı: Maarif, –1970. 235 s.

40. Cəlilova Ş. İsa Hüseynovun nəsr əsərlərinin dili və üslubu: Filologiya üzrə fəlsəfə doktoru dis. / –Bakı, 2005. –141 s.

41. Çəmənzəminli, Y. Dil məsələsi. Əsərləri: [3 cilddə] / Y.Çəmənzəminli. –Bakı: Elm, –c.3. –1977. –234 s.

42. Dəmirçizadə, Ə. Azərbaycan dilinin üslubiyyatı / Ə.Dəmirçizadə. –Bakı: Azərtədrisnəşr, –1962, –272 s.

43. Dəmirçizadə, Ə. Gülmək və şarlatanlar. “Ədəbiyyat” qəz., Bakı, 1935, 1 mart

44. Dəmirçizadə, Ə. M.F.Axundov dil haqqında və M.F.Axundovun dili / Ə. Dəmirçizadə. –Bakı: Azərbaycan XMK, –1941, –44 s.

45. Əbdürrəhimova, C. Satirik janrlarda ədəbi dilin lüğət tərkibinin üslubi imkanları // –Bakı: Azərb. SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin elmi əsərləri, Jurnalistika seriyası, –1977, № 1, –s. 23-27.

46. Əfəndiyev, H. Nəsrimiz yüksəliş yollarında / H.Əfəndiyev. –Bakı: Azərnəşr, –1936, –150 s.

47. Əfəndiyeva, T. Azərbaycan dilinin leksik üslubiyyatı / T. Əfəndiyeva. –Bakı: Elm, –1980, –252 s.

48. Əfəndiyeva, T. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri / T. Əfəndiyeva. –Bakı: Elm, –2001, –183 s.

49. Əhmədov, B. Azərbaycan satirasının inkişaf problemləri (1920-1980-ci illər) / B.Əhmədov. –Bakı: Elm, –2000, –296 s.

50. Əlibəyzadə, E. Azərbaycan dilinin tarixi: [2 cilddə] / E.Əlibəyzadə. –Bakı: Azərnəşr, –c.2. –2008. –640 s.

51. Əliyev, M. Ədəbiyyat nəzəriyyəsi / M.Əliyev. –Bakı: Elm və təhsil, –2012. –478 s.

52. Əliyev, Ə. Nəsr əsərlərində yersiz işlənən dialektizmlər və əcnəbi sözlər / Dil mədəniyyəti / Ə.Əliyev. –Bakı: Elm, –1979, –143-145 s.

53. Əliyev, K. Köməkçi nitq hissələrinin üslubi xüsusiyyətləri (metodik göstəriş) / K.Əliyev. –Bakı: ADU nəşri, –1981. –56 s.

54. Əlizadə, Z. Azərbaycan atalar sözü və zərb-məsəllərinin leksik-semantik xüsusiyyətləri / Z.Əlizadə. –Bakı: –1968. –238 s.

55. Ərəb-fars sözləri lüğəti: / –Bakı: Maarif, –1967. –219 s.

56. Əsgərova, S. Anarın dili: / Filologiya üzrə elmlər doktoru dis. / –Bakı, 1999. –169 s.

57. Füzuli, M. Leyli və Məcnun / M.Füzuli. –Bakı: Maarif, –1991. –160 s.

58. Hacıyev, T. Azərbaycan ədəbi dilinin tarixi: [2 cilddə] / T.Hacıyev. –Bakı: Elm, – c.1. –2012. –476 s.

59. Hacıyev, T. Azərbaycan ədəbi dilinin tarixi: [2 cilddə] / T.Hacıyev. –Bakı: Elm, – c.2. –2012. –392 s.

60. Hacıyev, T. XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili / T.Hacıyev. –Bakı: Maarif, –1977. –188 s.

61. Hacıyev, T. Molla Nəsrəddinin dili və üslubu / T.Hacıyev. –Bakı: Yazıçı, –1983. –267 s.

62. Hacıyev, T. Satira dili / T.Hacıyev. –Bakı: ADU nəşri, –1975. –178 s.

63. Hacıyev, T. Sinonimlikdə dilin tarixi // Azərbaycan dilinin sinonimlər lüğəti / T. Hacıyev. –Bakı: Yazıçı, –1990. –472 s.

64. Hacıyev, T. Yazıçının dili və ideya-bədii təhlil / T. Hacıyev. –Bakı: Maarif, –1979. –130 s.

65. Həsənov, H. Nitq mədəniyyəti və üslubiyyatının əsasları / H.Həsənov. –Bakı: BDU, –1999. –245 s.

66. Həsənov, R. Antroponimlərin üslubi xüsusiyyətləri // –Bakı: APİ-nin Elmi xəbərləri. XI seriyası, –1964, № 5

67. Hüseyn, M. Ədəbi döyüşlər / M.Hüseyn. –Bakı: Azərnəşr, –1932. –83 s.

68. Hüseyn, M. Ədəbiyyat və sənət məsələləri / M.Hüseyn. –Bakı: –1958, –612 s.

69. Hüseynova, H. Mir Cəlal Paşayevin bədii əsərlərinin dil və üslub xüsusiyyətləri: / Filologiya üzrə fəlsəfə doktoru dis. / –Bakı, 2009.

70. Xəlilov, B. Müasir Azərbaycan dilinin leksikologiyası / B.Xəlilov. –Bakı: Nurlan, –2008. –442 s.

71. Xəlilov, B. Müasir Azərbaycan dilinin morfologiyası. II hissə. –Bakı: –2007. –278 s.

72. Xəlilzadə, F. Müəllim, yazıçı, həkim // Kaspi. –2014, 6 sentyabr.

73. Xudiyev, N. Azərbaycan ədəbi dili tarixi (Ali məktəblər üçün dərslik) / N. Xudiyev. –Bakı: Elm və təhsil, –2012. –686 s.

74. Xudiyev, N. Seçilmiş əsərləri: [11 cilddə] / N.Xudiyev. –Bakı: Elm və təhsil, –c.1. –2012. –686 s.

75. İslamzadə, M. 1960-90-cı illərin Azərbaycan nəsr dili: Filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / –Bakı, 2007. –22 s.

76. Kazımov, İ. Müasir türk dillərinin müqayisəli leksikası: [2 cilddə] / İ. Kazımov. –Bakı: Təknur, –c.2. –2010. –400 s.

77. Kazımov, İ. Rəhimovun bədii nəsrinin dil və üslub özəlliyi / İ.Kazımov. –Bakı: Bakı Qızlar Universiteti nəşriyyatı, –2011, –265 s.

78. Kazımov, İ.B. Müasir türk dillərinin müqayisəli fonetikası: [2 cilddə] / İ.B. Kazımov. –Bakı: Elm və təhsil, –c.1. –2011. –196 s.

79. Kazımov, Q. Bədii ədəbiyyatda komizm üsulları / Q.Kazımov. –Bakı: Maarif, –1987. –228 s.

80. Kazımov, Q. Dil, tarix, poeziya / Q. Kazımov. –Bakı: Nurlan, –2005. –283 s.

81. Kazımov, Q. Dildən xüsusi seminar. Yazıçı və dil / Q. Kazımov. –Bakı: APİ, –1975. –228 s.

82. Kazımov, Q. Komik bədii vasitələr / Q. Kazımov. –Bakı: Yazıçı, –1983.–188 s.

83. Kazımov, Q. Müasir Azərbaycan dili (Sintaksis) / Q. Kazımov.–Bakı: Ünsiyyət, –2000. –496 s.

84. Kazımov, Q. Seçilmiş əsərləri: [10 cilddə] / Q.Kazımov. –Bakı: Nurlan, –c.2. –2008. –480 s.

85. Kazımov, Q. Sənət düşüncələri / Q.Kazımov. –Bakı: Dövlət Kitab Palatası, –1997. –576 s.

86. Kazımov, Q. Yazıçı və dil / Q.Kazımov. –Bakı: APİ, –1975. –226 s.

87. Kərimova, Z. Müasir aşıq şerinin dili: Filologiya üzrə fəlsəfə doktoru dis. / –Bakı, 2003. –144 s.

88. Qantəmir. Seçilmiş əsərləri. –Bakı: Azərnəşr, –1972. –350 s.

89. Qasımova, Ş. Azərbaycan bədii ədəbiyyatında rus dili elementlərinin üslubi xüsusiyyətləri: Filologiya fəlsəfə doktoru dis. / –Bakı, 1987. –138 s.

90. Quliyeva, K. Bədii ədəbiyyatda dialektizmlər / K.Quliyeva. –Bakı: Elm və təhsil, –2019. –288 s.

91. Qurbanov, A. Müasir Azərbaycan dili: [2 cilddə] / A.Qurbanov. – Bakı: Nurlan, –c.1. –2005, –450 s.

92. Qurbanov, A. Azərbaycan ədəbi və danışıq dili / A.Qurbanov. –Bakı: Nurlan, –1965. –215 s.

93. Qurbanov, A. Bədii əsərlərin dilinin öyrənilməsinə dair // –Bakı: Azərbaycan məktəbi, –1964. №1, –s.9-13

94. Qurbanov, A. Ümumi dilçilik: [2 cilddə] / A.Qurbanov. – Bakı: Nurlan, c.2. –2004. –531 s.

95. Lazarev, M. Türkcəni zənginləşdirmək yolları. // –Bakı: Maarif işçisi, –1926. № 8-9, –s.14-15

96. Məhərrəmova, M. Müasir dilçilikdə koqnitiv paradiqmaya dair // –Sumqayıt: Sumqayıt Dövlət Universitetinin Elmi Xəbərləri, Sosial və humanitar elmlər bölməsi, – 2017. cild 13, №1, –s.17-21

97. Məhərrəmova, R.C. Sabirin satirik şeirlərinin leksikası /R.C.Məhərrəmova. –Bakı: Azər. SSR EA nəşriyyatı, –1968. –143 s.

98. Məmmədova, Z. Bədii mətndə xarakteroloji nitq və onun ifadəsi problemləri – Dil nəzəriyyəsi: Filologiya üzrə elmlər doktoru dis. avtoreferatı. / –Bakı, 2011. –41 s.

99. Mikayılova, Ə. Azərbaycan dilində ləqəblər: Filologiya üzrə fəlsəfə doktoru dis. / –Bakı, 2001. –130 s.

100. Mir Cabbar. Bədii nəsrimiz haqqında qeydlər // İnqilab və mədəniyyət. –1948, №9, –s.7-12

101. Mir Cəlal. Bədii dilimiz haqqında // Ədəbiyyat. –1939, №2

102. Mirəhmədov, Ə. Ədəbiyyatşünaslıq terminləri lüğəti / Ə. Mirəhmədov. –Bakı: Maarif, –1988. –266 s.

103. Mustafayeva, Q. Adların üslubi imkanları / Q. Mustafayeva. –Bakı: ADPU, –1990. –100 s.

104. Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı (dərs vəsaiti) / Q. Mustafayeva. –Bakı: Elm, –2010. –388 s.

105. Mustafayeva Q. Onomastik vahidlərin üslubi-linqvistik xüsusiyyətləri / Q. Mustafayeva. –Bakı: Nurlan, –2001. –180 s.

106. Müasir Azərbaycan dili / Red.hey.sədri –Bakı: Elm, I c. –1978, –324 s.

107. Müasir Azərbaycan dili/ Red.hey.sədri –Bakı: Elm, –II c. –1980, –215 s.

108. Müşfiq, M. Əbədiyyət nəğməsi / M.Müşfiq. –Bakı: Yazıçı, –1978. –310 s.

109. Müzəffəroğlu, T. Müasir Azərbaycan dilində mürəkkəb cümlənin struktur semantikası / T.Müzəffəroğlu. –Bakı: Azərnəşr, –2002. –302 s.

110. Rəhman, S. Komediyalar / S.Rəhman. –Bakı: Azərnəşr, –1997. –397 s.

111. Rzazadə M. Vaqifin qoşmalarında sinonimlər // –Bakı: V.İ.Lenin adında Azərbaycan Pedaqoji İnstitutunun əsərləri, –1961. c.XIX, –s.16-20

112. Sadıqov, Ə. Müasir Azərbaycan bədii nəsr dilində inversiya // Nitq mədəniyyəti məsələləri / Ə.Sadıqov. –Bakı: Elm, –1988, –201-213s.

113. Sadıqova, S. "Dəbistan" uşaq jurnalının dili: Filologiya üzrə elmlər doktoru dis. / –Bakı, 1997. –196 s.

114. Seyidəliyev, N. Azərbaycan dilinin sinonimlər lüğəti / N.Seyidəliyev, T.Qurbanova –Bakı: Maarif, –2003. –327 s.

115. Talıbzadə K. Seçilmiş əsərləri: [2 cilddə] / K.Talıbzadə. –Bakı: Azərnəşr, c.1. –1991, –396 s.

116. Tanrıverdi, Ə. Azərbaycan dilinin tarixi qrammatikası / Ə.Tanrıverdi. –Bakı: Elm və təhsil, –2017, –538 s.

117. Tanrıverdiyev, Ə. Danışıq dilinin leksik xüsusiyyətləri / Azərbaycan müəllimi. –1988, 13 may.

118. Türkcəni zənginləşdirmək yolları. // –Bakı: Maarif işçisi, –1926. № 8-9, –s. 14-15

119. Veysəlova, M. Bədii üslubda danışıq dilinin fonetik xüsusiyyətləri // –Bakı: Tədqiqlər jurnalı, –2000. №1, –s.66-71

120. Vəliyev, M. İdeya və incəsənət / M.Vəliyev. –Bakı: NƏŞR–1980. –260 s.

121. Vəliyeva, X.Vahabzadə poemalarının dili və üslubi: / filologiya üzrə fəlsəfə doktoru dis. / –Bakı, 2007. –135 s.

122. Vəliyeva N. Nitq və təfəkkür feilləri ilə formalaşan frazeoloji vahidlər: / filologiya üzrə fəlsəfə doktoru dis./ –Bakı, 1996. –160 s.

123. Vurğun, S. Əsərləri: [6 cilddə] / S.Vurğun. –Bakı: Azər. SSR Elmlər Akademiyası Nəşriyyatı, c.4. –1963. –384 s.

124. Yunusova, Ş. Azərbaycan dialekt və şivələrində arxaizmlər: Filologiya üzrə fəlsəfə doktoru dis. / –Sumqayıt, 2005. –155 s.

RUS DİLİNDƏ

125. Абдуллазаде, А. Видный Азербайджанский сатирик / А.Абдуллазаде. Литературный Азербайджан, Баку, –1965. № 5, –ст.5

126. Абдуллазаде А. Жизнь и творчество Кантемира. Автореф. дис. … докт. фил. наук, Баку: АН Азерб. ССР, - 1965. - 21с.

127. Арнолд, У. Стилистика английского языка / У.Арнолд. –Ленинград: Наука, –1973. –224 с.

128. Бабкин, А. Русская фразеология, ее развитие и истоки / А.Бабкин –Ленинград: Наука, –1970. –106 с.

129. Белянин В. Психолингвистические аспекты художественного текста. –М.: Изд-во МГУ, –1988. –22с.

130. Виноградов, В. История русского литературного языка / В. Виноградов. –М.: Наука, –1978. –292с.

131.Виноградов, В. О языке художественной прозы / В.Виноградов. –М.: Наука, –1980. –360с.

132. Виноградов В. Стилистика. Теория поэтической речи. Поэтика. М: Изд. АН СССР, -1963. - 40 с.

133. Ефимов, А. Стилистика русского языка / А.Ефимов. –М.: Просвещение,–1969. –262 с.

134. Ефимов, А. Стилистика художественной речи / А.Ефимов. –М.: МГУ –1957. – 222-223 с.

135. Кожин, А. Лексика-стилистическое процесы в русском языке периода Великой Отечественной войны / А.Кожин. –М.: Наука, –1985. –328с.

136. Мандельштам, О. О характере гоголевского стиля / О.Мандельштам. –Гельсингфорс: Новая тип. Гувудстадсбладет, –1902, –406 с.

137.Николаев, А. Смех-оружие сатиры / А.Николаев. –М.: –1962, –193с.

138. Общее языкознание. Внутренняя структура языка. –М.: Наука, –1972. –564 с.

139. Пустовойт, П. От слова к образу / П.Пустовойт. –Киев: Родянська школа, –1974. –192 с.

140. Русские писатели о языке. –Ленинград: –1954. –453 с.

141. Русские писатели о языке. –Ленинград: –1955. –362 с.